Xalqın qəzeti!

# Xalq qəzeti

№ 73 (31042) 29 aprel 2026-cı il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Azərbaycan – Birləşmiş Ərəb Əmirlikləri strateji tərəfdaşlığı bütün sahələrdə uğurla inkişaf edir

## *Azərbaycan Prezidenti İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin nümayəndə heyətini qəbul edib*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də Qəbələdə Birləşmiş Ərəb Əmirliklərinin Xarici İşlər Nazirliyinin Dövlət naziri Səid bin Mübarək Əl-Hacirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Prezident İlham Əliyev strateji tərəfdaşlığa əsaslanan ikitərəfli əlaqələrimizin bütün sahələrdə uğurla inkişaf etdiyini deyərək, bu xüsusda Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə dostluq münasibətlərinə toxundu. Prezident İlham Əliyev özünün Birləşmiş Ərəb Əmirliklərinə, Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın isə Azərbaycana, o cümlədən Qarabağa səfərlərini, həmçinin bu səfərlər zamanı aparılmış müzakirələri məmnunluqla xatırladı, bütün bunların əlaqələrimizin genişləndirilməsində mühüm rol oynadığını vurğuladı.

Prezident İlham Əliyev Səid bin Mübarək Əl-Hacirinin ölkəmizə böyük nümayəndə heyəti ilə gəldiyini deyərək, bu səfərin münasibətlərimizin dərinləşdirilməsi baxımından roluna toxundu.

Qəbula görə minnətdarlığını bildirən Səid bin Mübarək Əl-Haciri Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Azərbaycan Prezidenti salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Şeyx Məhəmməd bin Zayed Al Nəhyana çatdırmağı xahiş etdi.

Qonaq dövlətimizin başçısının liderliyi ilə Cənubi Qafqaz regionunda sülh gündəliyinin irəli aparılması prosesində əldə edilmiş uğurlar, həmçinin Azərbaycan ilə Ermənistan arasında sülhün əldə olunması və dialoqun təşviqi istiqamətində göstərdiyi səylərə görə Azərbaycan Prezidentinin "Sülh və Barışıq üçün Gernika mükafatı"na layiq görülməsi münasibətilə təbriklərini çatdırdı.

Təbriklərə görə təşəkkür edən Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin qurucusu, sabiq Prezidenti Şeyx Zayed bin Sultan Al Nəhyanın humanitar irsini və dəyərlərini təşviq edən "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsini xatırladı və buna görə Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə bir daha minnətdarlığını çatdırmağı qonaqdan xahiş etdi.

Görüşdə ölkələrimiz arasında ikitərəfli gündəliyin zəngin olduğu vurğulandı, siyasi, iqtisadi, ticari, enerji, həmçinin bərpaolunan enerji, birgə investisiya fondunun fəaliyyəti, birgə hərbi təlimlər və digər istiqamətlərdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

Söhbət zamanı Yaxın Şərqdəki vəziyyətə toxunuldu, regiondakı bütün məsələlərin diplomatik yolla həll edilməsinin vacibliyi bildirildi.

***AZƏRTAC***

## Azərbaycan oftalmologiyasının dünya şöhrətli alimi



Səhifə ⇨ 11

## Beynəlxalq hüququn müdafiəsində dəyişməz mövqe



Səhifə ⇨ 4

## Paşinyanın "sərhəd mesajı" və ya rəzillikdən xilas anonsu



Səhifə ⇨ 5

## Kərə yağı bazarında "piylənmə"



Səhifə ⇨ 8

## Bakıda qlobal aqrosənaye təqdimatlarına hazırlıq



Səhifə ⇨ 9

## İnnovativ mühitdə yeni nəslin texnoloji tərbiyəsi



Səhifə ⇨ 14

## Populizm, revanşizm və fəlakətə çağırış

### *Erməni müxaliflərin seçki kampaniyasının mənzərəsi bundan ibarətdir*

**İyunun 7-də Ermənistanda keçiriləcək parlament seçkiləri ilə əlaqədar olaraq siyasi qüvvələr fəallıqlarını əhəmiyyətli dərəcədə artırıblar. Əgər Baş nazir Nikol Paşinyan Azərbaycanla sülh gündəminin irəli aparılması, sərhədlərin delimitasiya və demarkasiyası, həmçinin Türkiyə ilə əlaqələrin yaxşılaşdırılması kimi məsələlərdən bəhs edirsə, revanşist düşüncələrlə yaşayan radikal müxalifət özünün seçki platformasını Qarabağ məsələsi, daha doğrusu, vaxtilə bölgədən könüllü şəkildə köçüb getmiş ermənilərin qayıdışı məsələsi üzərində qurmağa uğursuz cəhdlər edir.**



Məsələn, "Hayastan" blokunun baş nazir vəzifəsinə namizədi, ölkənin ikinci prezidenti Robert Koçaryan bazar günü Masis sakinləri ilə görüş zamanı deyib: "Bu gün "Artsax"a qayıdış hüququndan danışmaq realdır. Bu, mümkündür. Mən görürəm ki, biz buna nail ola bilərik". Onun sözlərinə görə, hazırda dünya o qədər qeyri-sabitdir ki, əgər buna indi nail olunmasa, təhlükəsiz geri qayıdış imkanı itirilə bilər: "Amma dünya elə qurulub ki, fürsət pəncərələri açılır. Əgər Sovet İttifaqı dağılmasaydı, yəqin ki, "Artsax" məsələsi o zaman həll olunmazdı. Hansısa tarixi fürsət pəncərəsi açıldı və biz həmin dövrdə daha hazırlıqlı, daha cəsarətli və haqlı olduğumuza daha çox inanaraq uğur qazandıq.

*(ardı 4-cü səhifədə)*

## Azərbaycan – Çexiya enerji tərəfdaşlığı çoxtərəfli əməkdaşlıqla möhkəmlənir



Səhifə ⇨ 9

## Yaxın Şərq danışıqlarında "maneə aysberqləri"



Səhifə ⇨ 15

## Brüssel–İrəvan münasibətləri maliyyə müstəvisində



Səhifə ⇨ 5

# "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 10 aprel tarixli 384-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 10 aprel tarixli 384-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1** Müəyyən edilsin ki:

1.1. "Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanununun 45.4-cü maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 45.4-cü maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

**2** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanununun 45.4-cü maddəsinin ikinci cümləsinə uyğun olaraq, mədəniyyət sahəsində layihələrin qrant maliyyələşdirilməsi üzrə müsabiqələrin keçirilməsi qaydasını üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 10 aprel tarixli 384-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**3** "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 506-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 15 fevral tarixli 828 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 2, maddə 122 (Cild I); 2026, № 1, maddə 41) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bəndə "45.1-ci maddələrində" sözlərindən sonra ", 45.4-cü maddəsinin ikinci cümləsində" sözləri əlavə edilsin;

3.2. 2.2-1-ci bəndə "maddəsində" sözündən sonra "və 45.4-cü maddəsinin ikinci cümləsində" sözləri əlavə edilsin.

**4** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyun tarixli 119 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1209 (Cild I); 2024, № 5 (I kitab), maddə 529; 2025, № 7, maddə 662; 2026, № 1, maddə 41; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 27 fevral tarixli 609 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi haqqında Əsasnamə"nin 3.1.14-cü yarımbəndində "mədəniyyət sənayesinin" sözləri "mədəni və yaradıcı sənayenin" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 aprel 2026-cı il**

# "Azərbaycan Respublikası Hökuməti ilə Qvineya Respublikası Hökuməti arasında Qvineya Respublikasında "ASAN xidmət" modelinin tətbiqi ilə bağlı əməkdaşlığa dair Saziş"in təsdiq edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** 2026-cı il martın 16-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Qvineya Respublikası Hökuməti arasında Qvineya Respublikasında "ASAN xidmət" modelinin tətbiqi ilə bağlı əməkdaşlığa dair Saziş" təsdiq edilsin.

**2** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Qvineya Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 aprel 2026-cı il**

# "Dövlət xidmətləri haqqında" Azərbaycan Respublikasının 2025-ci il 31 oktyabr tarixli 279-VIIQ nömrəli Qanununun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 3 dekabr tarixli 543 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Dövlət xidmətləri haqqında" Azərbaycan Respublikasının 2025-ci il 31 oktyabr tarixli 279-VIIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

**1** "Dövlət xidmətləri haqqında" Azərbaycan Respublikasının 2025-ci il 31 oktyabr tarixli 279-VIIQ nömrəli Qanununun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 3 dekabr tarixli 543 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 12 (I kitab), maddə 1134) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 1.6-1-ci və 1.7-1-ci bəndlər əlavə edilsin:

"1.6-1. həmin Qanunun 6.3-cü maddəsində, 12.3-cü maddəsinin birinci (ikinci halda) və ikinci cümlələrində "orqan (qurum)" dedikdə kiçik və orta biznes evlərinə münasibətdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, "ASAN xidmət" və "ASAN Kommunal" mərkəzlərinə münasibətdə isə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi nəzərdə tutulur;";

"1.7-1. həmin Qanunun 10.2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi nəzərdə tutulur;";

1.2. 1.8-ci bənd ləğv edilsin.

**2** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 aprel 2026-cı il**

# Baş prokuror Rabatda



**Baş prokuror Kamran Əliyev Mərakeş Krallığında səfərdədir. Səfər çərçivəsində Baş prokuror Azərbaycanın bu ölkədəki səfirliyini ziyarət edərək ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül qoyaraq xatirəsini yad edib.**

Mərakeş Krallığının Prokurorluğunda keçirilmiş görüşdə Kamran Əliyev qeyd edib ki, Mərakeş Krallığı ortaq dəyərləri paylaşdığımız Azərbaycan üçün dost ölkədir və beynəlxalq platformalarda mütəmadi olaraq ölkəmizlə həmrəy mövqe nümayiş etdirib. Xüsusilə son illərdə ölkələrimiz arasında qarşılıqlı əlaqələr dövlət başçıları Prezident İlham Əliyev və əlahəzrət Kral VI Məhəmmədin uzaqgörən siyasəti və səyləri nəticəsində daha da dərinləşib.

Mərakeş Krallığının Baş prokuroru Hicham El Blaoui qurumlararası tərəfdaşlıq münasibətlərinin inkişafından məmnunluğunu ifadə edib. Rəhbərlik etdiyi qurumun fəaliyyəti barədə məlumat verən ev sahibi ölkəmizin təcrübəsinin, xüsusilə prokurorluq orqanlarının fəaliyyətinin elektronlaşdırılması və cinayət təqibinin rəqəmsallaşdırılması ilə bağlı görülən işlərin onların üçün xüsusi maraq kəsb etməsini və təcrübə mübadiləsinin həyata keçirilməsini istədiklərini bildirib.

Görüş zamanı gələcəkdə qurumlar arasında əməkdaşlığa dair Anlaşma Memorandumunun imzalanması ətrafında müzakirə aparılaraq razılıq əldə edilib.

Nümayəndə heyətinin səfəri davam edir.

***Q.YUSİFOĞLU***
***XQ***

# Məcburi köçkünlərin müraciətləri dinlənilib

**Aprelin 28-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev vətəndaşlarla görüşüb.**

Vətəndaşların müraciətləri, əsasən, işğaldan azad edilmiş ərazilərə qayıdış, köçürülmənin prinsipləri, sorğularda iştirak, məşğulluq, müvəqqəti məskunlaşma yerlərində mənzil-məişət şəraitinin yaxşılaşdırılması, kommunal xidmətlər, status, vahid aylıq müavinət və digər sosial məsələlərə dair olub.

Görüşdə vətəndaşların müraciətləri diqqətlə dinlənilib. Qeyd edilib ki, qaldırılan məsələlər müvafiq qaydada araşdırılacaq və qanunvericiliyə uyğun şəkildə həll ediləcək.

***XQ***



# Sahibkarlıq fəaliyyəti sahəsində fərqlənən şəxslərin "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının iqtisadi inkişafına verdikləri töhfəyə və sahibkarlıq sahəsində səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Abbasova Şənay Cəlaləddin qızı
Ağamirov İlkin Musa oğlu
Allahverdi Bəxtiyar Adil oğlu
Babaşov Nemət Adışirin oğlu
Bayramov Mübariz Xanlar oğlu
Bəşirov Səhliyalı Vahid oğlu
Əliyev Əli Vəli oğlu
Əliyev Vaqif Əli oğlu
Hacıyev Rauf Akif oğlu
Hüseynov Bəxtiyar Niyazi oğlu
Hüseynova Samirə Atamalı qızı
İlyas Emin Firudin oğlu
Krimpe Jana
Qasımov İsrafil Məmməd oğlu
Qəfərova Rəna Əbülfəz qızı
Məmmədov Muxtər Bilal oğlu
Məmmədova Rəna Müzəffər qızı
Mənsimov Elnur Ataş oğlu
Nurəliyev Nurlan İbadulla oğlu
Taşbağ Necmeddin
Van Ciyi
Vəliyev Ceyhun Əjdər oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 aprel 2026-cı il**

# Sel və daşqınların təhlükəli və zərərli təsirlərinə qarşı mübarizə ilə bağlı əlavə tədbirlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Cari ilin mart–aprel ayları ərzində güclü leysan yağışları və yaranan sel suları Bakı şəhərində və Azərbaycanın müxtəlif bölgələrində ciddi dağıntılara səbəb olmuş, kənd təsərrüfatına, infrastruktur (yol, körpü, elektrik) obyektlərinə və yaşayış evlərinə ciddi ziyan vurmuşdur. Aidiyyəti dövlət orqanları (qurumları) tərəfindən mövcud vəziyyətin təhlili aparılaraq, operativ və təxirəsalınmaz tədbirlər nəticəsində fəsadların aradan qaldırılması istiqamətində əməli işlər görülmüş, su basmış ərazilərdən suların çəkilməsi, sel və daşqın sularının maneəsiz ötürülməsi, əhalinin təxliyəsi və təhlükəsizliyi təmin edilmiş, infrastrukturun bərpası və təmir-tikinti işləri həyata keçirilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, sel və daşqınların fəsadlarının aradan qaldırılması ilə bağlı işlərin davam etdirilməsinin vacibliyini nəzərə alaraq **qərara alıram:**

**1** Bakı şəhərində və Azərbaycanın müxtəlif bölgələrində güclü leysan yağışları və yaranan sel suları nəticəsində dəymiş zərərin fəsadlarının aradan qaldırılması istiqamətində görülən işlərin davamlılığının təmin edilməsi, habelə gələ-cəkdə analoji halların təkrarlanmaması üçün Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan bu Sərəncama Əlavədə nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi üçün ümumilikdə 85.869.260,0 (səksən beş milyon səkkiz yüz altmış doqquz min iki yüz altmış) manat, o cümlədən Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə 8.876.210,0 (səkkiz milyon səkkiz yüz yetmiş altı min iki yüz on) manat, Bakı Şəhər İcra Hakimiyyətinə 1.437.315,0 (bir milyon dörd yüz otuz yeddi min üç yüz on beş) manat, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinə 21.443.875,0 (iyirmi bir milyon dörd yüz qırx üç min səkkiz yüz yetmiş beş) manat, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 39.103.600,0 (otuz doqquz milyon bir yüz üç min altı yüz) manat və "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinə 15.008.260,0 (on beş milyon səkkiz min iki yüz altmış) manat vəsait ayrılsın.

**2** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 aprel 2026-cı il**

# Çexiya Baş nazirinin Azərbaycana səfəri başa çatıb




**Çex Respublikasının Baş naziri Andrey Babişin Azərbaycan Respublikasına rəsmi səfəri aprelin 28-də başa çatıb.**

Qəbələ Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Çexiyanın Baş naziri Andrey Babişi Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və digər rəsmi şəxslər yola saldılar.

***AZƏRTAC***

# Xocavənddə növbəti köç




**Dünən Xocavənd şəhəri 39 ailə olmaqla 176 nəfərə, Qırmızı Bazar qəsəbəsi 16 ailə olmaqla 63 nəfərə, Xanoba kəndi isə 13 ailə olmaqla 60 nəfərə qucaq açıb.**

Köçürülən sakinlərin məskunlaşması üçün lazımi şərait yaradılıb. Yollar abadlaşdırılıb, evlər və infrastruktur bərpa edilib. Keçmiş məcburi köçkünlər onlar üçün yaradılan şəraitə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirib, torpaqlarımızı işğaldan azad edən şəhidlərimizə rəhmət diləyib, qazilərimizə isə cansağlığı arzulayıblar.

***XQ***

## Bakı şəhərində və Azərbaycanın müxtəlif bölgələrində güclü leysan yağışları və yaranan sel suları nəticəsində dəymiş zərərin fəsadlarının aradan qaldırılması ilə bağlı görüləcək işlərin siyahısı

*(əvvəli 3-cü səhifədə)*

| Sıra №-si | Yerləşdiyi ərazi | Dəymiş ziyanla əlaqədar görüləcək işlər |
|---|---|---|
| **5** | **"Azərişıq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən görüləcək işlər** | |
| **5.1** | **Binəqədi, Biləcəri, Xətai, Suraxanı, Sabunçu və Xəzər elektrik şəbəkələrinə dəymiş ziyanın aradan qaldırılması** | |
| 5.1.1 | Bakı şəhəri, Binəqədi rayonu | Binəqədi elektrik şəbəkəsi, 110/35/10 kV-luq "Dərnəgül" YS-dan çıxan 10 kV-luq 2585-565, 746-809, 31-38 saylı kabel xətlərinin zədələnərək istismara yararsız vəziyyətə düşən hissələrinin yenilənməsi |
| 5.1.2 | Bakı şəhəri, Binəqədi rayonu, Biləcəri qəsəbəsi | Biləcəri elektrik şəbəkəsi, 35/6 kV-luq 89 saylı yarımstansiyada zədələnmiş avadanlıqların yenilənməsi |
| 5.1.3 | Bakı şəhəri, Xətai rayonu | Xətai elektrik şəbəkəsi, Yarımstansiya Əhmədli – 200 saylı yarımstansiya arası 35 kV-luq EVX-nin hava xətti özüllərinin tam qəzalı vəziyyətə düşmüş hissəsinin kabel xətti ilə əvəz olunması (2 dövrəli 4 km uzunluğunda alternativ trassa ilə kabel xətti ilə əvəz edilməlidir) |
| 5.1.4 | Bakı şəhəri, Suraxanı rayonu | Suraxanı elektrik şəbəkəsi, 35/6 kV-luq 360 saylı yarımstansiyada zədələnmiş avadanlıqların yenilənməsi |
| 5.1.5 | Bakı şəhəri, Sabunçu rayonu | Sabunçu elektrik şəbəkəsi, 35/6 kV-luq 22 saylı yarımstansiyada zədələnmiş avadanlıqların yenilənməsi |
| 5.1.6 | Bakı şəhəri, Xəzər rayonu | Xəzər elektrik şəbəkəsi, KTM 378, KTM 382, KTM 171, KTM 564, KTM 1206, KTM 176 bərpası |
| **5.2** | **Abşeron, Bağlar, Yaşma və Sumqayıt elektrik şəbəkələrinə dəymiş ziyanın aradan qaldırılması** | |
| 5.2.1 | Abşeron rayonu | Abşeron elektrik şəbəkəsi, 35/10 kV-luq "Masazır" yarımstansiyasında zədələnmiş avadanlıqların yenilənməsi |
| 5.2.2 | Abşeron rayonu | Bağlar elektrik şəbəkəsi, 12 ədəd KTM-də 2870 metr 0,4 kV-luq kabel xətlərinin zədələnmiş hissələrinin bərpası |
| 5.2.3 | Xızı rayonu | Yaşma Külək Enerji Parkının ərazisində yerləşən 20/110 kV-luq 2x40 MVA gücündə "KES" yarımstansiyasında sel sularının dolması nəticəsində akkumulyatorların, mühafizə avadanlıqlarının yenilənməsi, kabel kanallarında əsaslı bərpa işlərinin aparılması |
| 5.2.4 | Abşeron rayonu | Abşeron rayonu, Badamlıq ərazisində 35/10 kV-luq 2x10 MVA gücündə yarımstansiyanın tikintisi |
| 5.2.5 | Sumqayıt şəhəri | Sumqayıt elektrik şəbəkəsi, 35/10 kV "138" saylı YS-da zədələnmiş avadanlıqların yenilənməsi, 7 ədəd transformator məntəqəsinin əsaslı yenidən qurulması, TM 68 – TM 69, TM 75 – TM 76, TM 136 – TM 135, TM 104 – TM 132, PM 4 – TM 72, TM 93 – TM 176, TM 105 – TM 106, PM 5 – TM 106, TM 146-TM 139-PM 8 arası sıradan çıxmış 6 və 10 kV-luq yeraltı kabel xətlərinin zədələnərək istismara yararsız vəziyyətə düşmüş hissələrinin yenilənməsi |
| **5.3** | **Quba, Qusar, Xaçmaz, Siyəzən və Şabran elektrik şəbəkələrinə dəymiş ziyanın aradan qaldırılması** | |
| 5.3.1 | Quba rayonu | Quba elektrik şəbəkəsi, 35 kV-luq Ulduz və Təngəaltı hava xəttinin Qonaqkənd istiqamətində sürüşmə nəticəsində qəzalı vəziyyətə düşmüş hava xətlərinin 12 km hissəsinin sürüşmə zonasından kənara çıxarılaraq yenilənməsi (L=12 km) |
| 5.3.2 | Quba rayonu | Quba elektrik şəbəkəsi, 10 kV-luq elektrik şəbəkələrində qəzalı vəziyyətə düşmüş hava xətlərinin yenilənməsi və bərpası (L=22,5 km) |
| 5.3.3 | Quba rayonu | Quba elektrik şəbəkəsi, sel suları dağıtmış 5 ədəd KTM-in yenisi ilə əvəz olunması |
| 5.3.4 | Qusar rayonu | Qusar elektrik şəbəkəsi, 10 kV-luq elektrik şəbəkələrində qəzalı vəziyyətə düşmüş hava xətlərinin yenilənməsi və bərpası (L=5,8 km) |
| 5.3.5 | Qusar rayonu | Qusar elektrik şəbəkəsi, sel suları dağıtmış 4 ədəd KTM-in yenisi ilə əvəz olunması |
| 5.3.6 | Xaçmaz rayonu | Xaçmaz elektrik şəbəkəsi, 10 kV-luq elektrik şəbəkələrində qəzalı vəziyyətə düşmüş hava xətlərinin yenilənməsi və bərpası (L=4,35 km) |
| 5.3.7 | Xaçmaz rayonu | Xaçmaz elektrik şəbəkəsi, sel suları dağıtmış 3 ədəd KTM-in yenisi ilə əvəz olunması |
| 5.3.8 | Siyəzən rayonu | Siyəzən elektrik şəbəkəsi, 10 kV-luq elektrik şəbəkələrində qəzalı vəziyyətə düşmüş hava xətlərinin yenilənməsi və bərpası (L=1,2 km) |
| 5.3.9 | Şabran rayonu | Şabran elektrik şəbəkəsi, 10 kV-luq elektrik şəbəkələrində qəzalı vəziyyətə düşmüş hava xətlərinin yenilənməsi və bərpası (L=3,6 km) |
| 5.3.10 | Şabran rayonu | Şabran elektrik şəbəkəsi, sel suları dağıtmış 3 ədəd KTM-in yenisi ilə əvəz olunması |

# Populizm, revanşizm və fəlakətə çağırış

*(əvvəli 1-ci səhifədə)*

İndi isə bu hakimiyyət həmin pəncərəni bağlayıb və sanki gələcəkdə onu yenidən açmaq imkanımız olmasın deyə mismarlayır. Biz deyirik ki, bu pəncərə açıq qalmalıdır… Heç kim düşünmürdü ki, Fars körfəzindəki hadisələr baş verə bilər. Heç kim bilmir ki, bu cür davam edərsə, 10 ildən sonra Cənubi Qafqazda nə baş verəcək. Qayıdış hüququnun tanınması – beynəlxalq səviyyədə!", – deyə Koçaryan vurğulayıb.

Onun digər açıqlaması bu revanşist niyyətini həyata keçirmək üçün yollar aradığından xəbər verir. Xocalı cəlladı deyib ki, pilotsuz uçuş aparatları istehsalçıları üçün geniş vergi güzəştləri tətbiq olunmalıdır: "Bu məhsulların satışı üçün nəhəng bazar – Rusiya və digər Avrasiya İqtisadi İttifaqı ölkələri mövcuddur. Eyni yanaşma elektronika və tibbi avadanlıqların istehsalına da aiddir. Vergi güzəştləri təqdim etməklə xarici şirkətlərin istehsallarını Ermənistana köçürməsi üçün şərait yaratmaq lazımdır. Digər cəlbedici amil Ermənistanda nisbətən ucuz işçi qüvvəsidir. Ən azı məhsulların ayrı-ayrı komponentlərinin istehsalı ilə məşğul olmaq, daha sonra isə tam istehsal dövrlərini işə salmaq olar".

Baş nazir vəzifəsinə əsas iddiaçılardan biri, "Güclü Ermənistan" partiyasının rəhbəri, rusiyalı oliqarx Samvel Karapetyan 300 min yeni iş yeri yaradacaqlarından dəm vurub: "Ermənistanda 300 min azərbaycanlının məskunlaşdırılması proqramı Sünikin itirilməsi, Sevanın Göyçəyə çevrilməsi və Ermənistanın türkləşdirilməsi kimi risklər yarada bilər. Amma narahat olmağa dəyməz, biz buna qarşılıq olaraq ermənilər üçün 300 min iş yeri yaradacağıq, birini isə Paşinyan üçün saxlayacağıq – zərb alətində çalması üçün".

Seçkilərdə iştirak edəcəyini açıqlamış digər siyasi qüvvə – "Maariflənmiş Ermənistan" partiyasının lideri, xüsusi tapşırıqlar üzrə keçmiş səfir Edmon Marukyan isə seçicilərə "remontada" vəd edir. O, "Facebook" səhifəsində yazıb: "Biz çoxlu məktublar alırıq, bir çoxları soruşur ki, bu kampaniya ərəfəsində "remontada" deyərkən nəyi nəzərdə tuturuq? "Remontada ispan sözüdür, ispan futbol şüarlarından biridir və yüksəliş, qayıdış deməkdir. Mahiyyət etibarilə bu, böyük hesablı məğlubiyyətdən sonra qələbə qazanmaq anlamına gəlir. Bu söz çox vaxt iradə gücü hesabına əldə olunan valehedici qələbələr kontekstində istifadə olunur. Başqa sözlə, qayıdış olanda transformasiya da baş verir. Biz seçki şüarlarımızda bunu belə ifadə etmişik: remontada – məğlubiyyətin nəticələrinin neytrallaşdırılması, siyasi dirçəliş, subyektliyin və gücün bərpasıdır. Burada aydın olur ki, möhkəm identiklik bizim erməni məzmunumuzu və dövlətçiliyimizi qoruyan əsas qalxandır. Bu yolla biz Türkiyə, Azərbaycan və ya digər ölkələrdən gələn (?) yumşaq güc təsirlərindən qorunuruq. Bu mənada, bir çoxları soruşur ki, məsələn, "remontada" dedikdə nəyi nəzərdə tutursunuz? Biz siyasi dirçəlişi, siyasi sistemin sağlamlaşdırılmasını, fundamental islahatları nəzərdə tuturuq. Remontada ilə biz məğlubiyyət mərhələsindən növbəti mərhələyə – dirçəliş və transformasiya mərhələsinə keçidi nəzərdə tuturuq. Deməli, remontada – zəfərli geri dönüşdür".

Bu arada daha bir iddiaçı, "Çiçəklənən Ermənistan" partiyasının lideri, oliqarx Qaqik Sarukyanın yadına müharibədə həlak olmuş 18 yaşlı əsgərlər düşüb: "Mən Yerablur haqqında düşünəndə həmişə ağrı hiss edirəm: günahsız (?) 18 yaşlı uşaqları sərhədə göndərmək olmazdı. Bunlar təcrübəsiz gənclər idilər. Buna görə də 50 min təcrübəsiz əsgərdən daha yaxşısı 10 min təcrübəli müqaviləli hərbçinin olmasıdır". Sarukyan daha sonra deyib: "Bilin ki, sizə dediklərimdən daha çox olacaq. Mən özünü tərifləyən və yalan



danışanlardan deyiləm. Deyirəm ki, daha çox olacaq. İmkanlar, əlaqələr, dünyanın hər yerində tanışlıqlar var — Amerikadan, Londondan, Fransadan, Rusiyadan başlayaraq… dostlar, lordlar, şeyxlər, prezidentlər. Əlaqələr lazımdır, təşkil etmək lazımdır, orada nə lazım olduğunu və bizə nə lazım olduğunu anlatmaq, elə təşkil etmək lazımdır ki, insanların üzündə təbəssüm, parıltı olsun. Həlli olmayan problem yoxdur".

* * *

Seçkilər fonunda səslənən bu bəyanatlar göstərir ki, ölkənin siyasi spektrində ciddi ideoloji parçalanma qalmaqdadır. Qeyd etdiyimiz kimi hakimiyyət daha çox sülh gündəliyi, sərhədlərin delimitasiyası və regionda kommunikasiyaların açılması kimi praqmatik məsələləri önə çəkdiyi halda, müxalifətin bir hissəsi, xüsusilə Koçaryanın təmsil etdiyi blok açıq şəkildə revanşist ritorikaya üstünlük verir. Onun Qarabağa qayıdış hüququnun beynəlxalq səviyyədə tanınması ilə bağlı fikirləri real siyasi və hüquqi çərçivədən daha çox emosional və populist yanaşmadır. Mövcud geosiyasi reallıqlar fonunda belə bir iddianın praktik mexanizmləri barədə konkret plan təqdim olunmur. Təqdim olunması mümkün də deyil. Bunun əvəzində o, "tarixi fürsət pəncərəsi" kimi mücərrəd tezislərlə seçicilərin hisslərinə təsir etməyə çalışır. Bu yanaşma isə regionda yeni risklər yarada biləcək gözləntiləri qızışdırmaqdan başqa bir nəticə vəd etmir.

Daha diqqətçəkən məqam isə Koçaryanın iqtisadi təşəbbüsləri ilə hərbi-siyasi ambisiyaları arasında qurduğu dolayı əlaqədir. Pilotsuz uçuş aparatları istehsalına geniş vergi güzəştlərinin təklif edilməsi ilk baxışdan iqtisadi inkişaf kimi təqdim olunsa da, bunun arxasında potensial militarizasiya meyillərinin dayandığı hiss olunur. Bu, Ermənistanın onsuz da həssas olan regional balansını daha da gərginləşdirə biləcək istiqamət kimi qiymətləndirilə bilər.

Digər müxalif fiqurların çıxışları da daha çox populizm və emosional çağırışlarla yadda qalır. Samvel Karapetyanın 300 min yeni iş yeri vədi və bununla bağlı ironik siyasi mesajları real iqtisadi hesablamalardan çox, siyasi şou təsiri bağışlayır. Edmon Marukyanın "remontada" konsepsiyası isə daha çox simvolik və ideoloji çərçivədə qalır, konkret idarəetmə proqramına çevrilmir. Qaqik Sarukyanın sosial və hərbi mövzulara toxunan fikirləri müəyyən həssas məqamları qabartsa da, sistemli həll yolları təqdim etmir.

Ümumilikdə, müxalifətin əsas hissəsi seçki kampaniyasını gələcəyə yönəlik real proqramlar üzərində deyil, keçmişin revanşist duyğuları və emosional səfərbərlik üzərində qurmağa çalışır. Xüsusilə Koçaryanın ritorikası göstərir ki, o, regional reallıqları qəbul etmək əvəzinə, onları dəyişdirmək iddiası ilə çıxış edir. Bu isə həm Ermənistan cəmiyyəti, həm də bütövlükdə, region üçün qeyri-müəyyənlik və risk amillərini artıran yanaşmadır.

***Səxavət HƏMİD***
***XQ***

# Beynəlxalq hüququn müdafiəsində dəyişməz mövqe

## *Azərbaycan Şərqi Avropa və Cənubi Qafqaz təhlükəsizlik konsepsiyalarının kəsişmə nöqtəsidir*

**Dövlətlərin xarici siyasət kursunda yaranan yeni çağırışlara adekvat cavabların verilməsi strateji yanaşma tələb edir. Dünyada formalaşan mürəkkəb hərbi-siyasi mənzərə fonunda tərəflərarası əlaqələrin dərinləşdirilməsi prioritet istiqamətə çevrilib. Aprelin 25-də Qəbələdə baş tutan yüksək səviyyəli təmaslar bu reallığın praktiki təzahürü idi. Azərbaycan Prezidenti İlham Əliyev və Ukrayna lideri Volodimir Zelenski arasında gerçəkləşən görüş, ümumilikdə, Şərqi Avropa və Cənubi Qafqaz regionlarının təhlükəsizlik dinamikasının təhlili baxımından vacib məqamdır. Siyasi və diplomatik proseslərin xronologiyasına diqqət yetirdikdə aydın görünür ki, tərəflər arasında formalaşan etimad müvəqqəti xarakter daşımır, əksinə, davamlı və ardıcıl siyasi xəttin məntiqi nəticəsidir.**

Prezident İlham Əliyevin səsləndirdiyi fikirlərə əsasən, son 4 il ərzində prezidentlər səviyyəsində 7 təmasın keçirilməsi, sonuncu görüşün iki ay əvvəl Münxen şəhərində baş tutması yüksək dinamikanı nümayiş etdirir. Hazırda qarşılıqlı hörmətdən, həmçinin ortaq maraqların təmin edilməsindən bəhs olunur. Ukrayna rəhbərinin Azərbaycana dövlət başçısı kimi 2019-cu ildə baş tutan ilk səfəri şəxsi münasibətlərin əsasını qoydu və həmin əlaqələr hazırda uğurla davam edir. Eyni zamanda, Azərbaycan rəhbərinin 2022-ci ilin yanvar ayında Kiyevə etdiyi səfər özündə beynəlxalq ictimaiyyət üçün aydın mesajlar ehtiva edirdi. Bu mesajlar dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsipləri hər iki ölkənin xarici siyasət strategiyasının təməl sütunu ilə bağlı idi.

Volodimir Zelenski müxtəlif beynəlxalq platformalarda gerçəkləşən təmasları xatırladaraq tərəflərin daim qarşılıqlı dəstək nümayiş etdirdiyini vurğuladı. Son dərəcə ağır və mürəkkəb dövrdə Azərbaycandan alınan 11 yardım paketinin dostluğun və həmrəyliyin real ifadəsi olduğunu deyən Ukrayna lideri göstərilən yardıma görə ölkəmizin başçısına dərin təşəkkürünü bildirdi. Həmçinin cəbhə bölgəsindən gələn ukraynalı uşaqlara göstərilən diqqətə, humanitar vəziyyətin yaxşılaşdırılması istiqamətində atılan addımlara görə xüsusi minnətdarlığını çatdırdı. Həmin azyaşlılar ağır əzab-əziyyətlərlə üzləşib, dəhşətli müharibənin travmalarını yaşayıblar. Təqdim olunan dəstək son dərəcə qiymətlidir. Hazırda 500-dən çox ukraynalı uşaq Azərbaycanda reabilitasiya keçir və humanitar missiyaya görə səmimi minnətdarlıq ifadə olunur.

Qəbələ görüşü əsnasında bir daha vurğulandı ki, Azərbaycan Ukraynanın hazırda yaşadığı müharibə reallığını çox yaxşı və dərindən anlayır. Səbəb isə odur ki, xalqımız illərlə müharibənin ağrısını, uzunmüddətli işğalın acı nəticələrini və dəhşətli dağıntıları taleyində yaşayıb. Tarixi paralellər və oxşar talelər eyni hüquqi müstəvidə fəaliyyət göstərən, bənzər geosiyasi təhdidlərlə üzləşən ölkələrin strateji tərəfdaşlığını möhkəm təməllərə bağlayır. Xarici işğal amilinin cəmiyyətdə yaratdığı psixoloji, sosioloji, demoqrafik təsirlər Azərbaycana yaxşı tanışdır. Uzun illər davam edən hərbi təcavüz, torpaqların zəbt, mədəni irsin məhv edilməsi kimi ağır cinayətlər Azərbaycan xalqının milli yaddaşında silinməz izlər buraxıb. Müvafiq olaraq, Ukraynanın üzləşdiyi fəlakətlər və ərazi bütövlüyünün pozulması faktı rəsmi Bakı tərəfindən həssaslıqla qəbul edilir.

Görüşün Qəbələdə keçirilməsi faktının arxasında maraqlı nüanslar mövcuddur. Diplomatik praktikada regionlara səfərlər, təmasların paytaxtdan kənarda təşkil edilməsi yüksək etimadın, dostluğun və sıx əlaqələrin nümayişi kimi qiymətləndirilir.




Alban dövlətinin paytaxtı olmuş Qəbələnin qədim tarixi, mədəni zənginliyi və sakit atmosferi aparılan danışıqların işgüzar ruhuna müsbət təsir göstərir. Siyasi məzmun baxımından isə nümayiş etdirilir ki, dövlətlərarası əlaqələr daha səmimi xarakter alıb. Münxen Təhlükəsizlik Konfransı zamanı formalaşdırılan gündəliyin iki ay sonra Qəbələdə müfəssəl şəkildə davam etdirilməsi sistemli xarici siyasətin təcəssümüdür. Liderlərin mütəmadi təmasları qərar qəbuletmə mexanizmlərinin sürətləndirilməsini və bürokratik əngəllərin aradan qaldırılmasını təmin edir. Dünya siyasətində böhranların kəskinləşdiyi, beynəlxalq təşkilatların operativliyinin sual altına düşdüyü dönəmdə ikitərəfli dialoqun keyfiyyəti həlledici əhəmiyyətə malikdir. Siyasi sistemlərin fəaliyyət qabiliyyəti bilavasitə liderlərin çevikliyi və strateji baxışları ilə ölçülür.

* * *

Dövlətlərin davranışında humanitar diplomatiyanın artan rolu xüsusi əhəmiyyətə malikdir. 500-dən çox uşağın sağlamlıq, reabilitasiya və istirahət imkanları ilə təmin edilməsi quru rəqəmlərdən daha böyük məna ifadə edir. Bu addım bilavasitə gələcək nəsillərin sağlamlığına qoyulan mənəvi sərmayədir. Savaşın dəhşətlərini yaşamış, bombaların səsini eşitmiş azyaşlıların sülh şəraitində, təhlükəsiz mühitdə cəmiyyətə yenidən inteqrasiyası böyük miqyaslı humanizm aktıdır. Xəstəxanaların, məktəblərin, yaşayış binalarının dağıdıldığı ərazilərdən çıxarılan uşaqlara uzadılan yardım əli siyasi bəyanatlardan daha təsirlidir. Ukraynaya göndərilən 11 yardım paketi isə infrastrukturun bərpasına, mülki əhalinin gündəlik ehtiyaclarının ödənilməsinə, elektrik və enerji böhranının yüngülləşdirilməsinə xidmət edir. Diplomatik bəyanatların real əməllərlə tamamlanması siyasətin səmimiyyət göstəricisidir.

Böhranlı vəziyyətlərin idarə olunması təcrübəsi göstərir ki, siyasi rəhbərlər arasındakı etimad həlledici rola malikdir. Dörd il ərzində keçirilən yeddi görüş böhranların idarə edilməsi sahəsində formalaşan sıx koordinasiya prosesidir. Çoxtərəfli beynəlxalq platformalarda tərəflərin sərgilədiyi həmrəylik səsvermə proseslərində, hazırlanan qətnamələrdə və müştərək bəyanatlarda açıq sezilir. Əməkdaşlığın inkişaf səviyyəsi qlobal güclərə tərəfdaşlığın sarsılmaz olduğu mesajını ötürür. Qarşılıqlı hörmət konsepti suveren hüquqlara bərabərhüquqlu yanaşmanın hüquqi fəlsəfəsidir. Münaqişələrin vurduğu yaraların sağaldılması illər, hətta onilliklər tələb edəcək. Şəhərlərin bərpası, infrastrukturun yenidən qurulması, əhalinin doğma yurdlarına qayıtması nəhəng resurslar və güclü iradə istəyir. Azərbaycan otuz illik işğal faktına son qoyduqdan sonra azad edilmiş ərazilərdə böyük quruculuq işləri həyata keçirir. Qazanılan təcrübə, minatəmizləmə əməliyyatlarının aparılması, müasir kəndlərin və şəhərlərin inşası sahəsində əldə edilən nailiyyətlər gələcəkdə Ukrayna üçün faydalı nümunə olacaq.

Tərəfdaşların qarşılıqlı olaraq uzatdığı dostluq əli strateji həmrəylik nümunəsidir. Zaman, məkan və qarşıda duran nəhəng geosiyasi maneələr tərəflərin qətiyyətli siyasi iradəsi qarşısında əhəmiyyətini itirir. Qəbələ görüşünün yekunları göstərir ki, təmaslar, gələcək hədəflərin müəyyənləşdirilməsi, diplomatik xəttin aydınlaşdırılması uğurla nəticələndi. Eyni mövqeyin müdafiəsi beynəlxalq tribunalarda daha güclü səslənməyə zəmin yaradacaq. Uğurlu xarici siyasətin arxasında qüdrətli dövlət, əzmli xalq və uzaqgörən rəhbər amili mütləq bütövlük təşkil edir. Tərəflərin nümayiş etdirdiyi siyasi həmrəylik sınaqdan çıxmış strategiyanın bariz göstəricisidir. Nümayiş etdirilən diplomatik məharət isə tərəflərə mürəkkəb beynəlxalq proseslərdən daim qalib və daha güclü çıxmağa imkan verəcək.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Paşinyanın “sərhəd mesajı” və ya rəzillikdən xilas anonsu

## Ermənistanın Baş naziri bu dəfə nəyi dedi, nəyi demədi?

**Səhifədə gördüyünüz mənzərəni yazı müəllifi illər əvvəl Türkiyə–Ermənistan sərhədində lentə alıb. Hazırda vəziyyət necədir, xəbərimiz yoxdur. Amma 2015-ci ildə Qarsdakı tarixi Ani xarabalıqlarından qarşı tərəfə nəzər salanda Rusiyanın bayrağının Ermənistanın bayrağından hündürdə dalğalandığı görünürdü. Ərazi ikincinin, yüksəkdəki rəmz birincinin...**

“Ermənistanın bütün sərhədləri Sərhəd Qoşunlarının məsuliyyəti altında olmalıdır”. Bu fikri Baş nazir Nikol Paşinyan Milli Təhlükəsizlik Xidmətinin Sərhəd Qoşunlarının yaranmasının ildönümünə həsr olunmuş mərasimdə çıxışında bildirib: “Sərhəd Qoşunlarının yerləşdikləri yerdə təhlükəsizliyə daha çox inam olur. Məhz bu inam sayəsində dövlət sərhədin bu və ya digər hissəsini sərhəd mühafizəçilərinin xidmətinə təhvil vermək qərarına gəlib”.

N.Paşinyanın fikirləri adi sayıla bilməz. Məsələ ondadır ki, hazırda Ermənistanın yalnız Türkiyə ilə deyil, eyni zamanda, İranla sərhəd xəttində Rusiya hərbçiləri keşik çəkirlər. Bu, müasir dövrdə son dərəcə unikal hadisədir. Ortada hətta bənzərsiz və təkrarsız durum var. Deməli, Nikolun söylədikləri keçmişin əmanəti sayılan rəzil mənzərənin dəyişəcəyinə dair anonsdur. Həqiqətən, necə mümkündür ki, bir dövlət özünü müstəqil adlandırsın, ancaq onun sərhədlərində başqa bir dövlətin hərbçiləri dayansın? Nəinki dayansınlar, habelə söz sahibi olsunlar. Bir neçə gündən sonra Ermənistan Avropa Siyasi Birliyinin növbəti sammitinə ev sahibliyi edəcək, “köhnə qitə”nin liderləri İrəvana toplaşacaq. Bir anlıq onların təhlükəsizliyinin Rusiyanın nəzarətində olduğunu təsəvvürə gətirin. Axı Vətənin özü kimi, onun təhlükəsizliyi də sərhəddən başlayır.

Ermənistanın İran və Türkiyə ilə sərhədlərini Rusiya hərbi kontingentinin qoruması həm tarixi, həm hüquqi, həm də geosiyasi baxımdan izah olunur. Bu mövzuda bir neçə əsas məqamı vurğulamaq mümkündür. İlk növbədə, tarixi-hüquqi bazaya söykənib bildirək ki, Ermənistan müstəqillik qazandıqdan sonra, konkret olaraq, 1991-ci ildə sərhədlərin qorunması məsələsində Rusiya ilə əməkdaşlığa getdi. Səbəb kimi resurs çatışmazlığı və təhlükəsizlik amili əsas götürüldü. Əslində isə...

Beləliklə, 1992-ci ildə tərəflər arasında müqavilə imzalandı. Müqaviləyə əsasən Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd qoşunları Ermənistanın hər iki qonşusu ilə sərhədlərində yerləşdirildi. Onu da deyək ki, müstəqillik illərində Ermənistan üçün xüsusilə Türkiyə ilə sərhəd həssas hesab olunub. Çünki iki ölkə arasında diplomatik münasibətlər qurulmadı. Üstəlik, Ankara Azərbaycan torpaqlarının işğalı səbəbindən Ermənistanla sərhədi bağladı və durum hələ dəyişməyib. Hərçənd, son illər Türkiyə-Ermənistan normallaşmasında irəliləyiş əldə olunub və mövcud amil bağlı qapıların açılacağına ümid yaradır. Bəli, 1992-ci ildə Rusiya amili Ermənistan üçün təhlükəsizlik zəmanəti kimi təqdim olunurdu. Həmçinin hay təfəkküründə Türkiyənin ermənilərə qarşı soyqırımı törədən dövlət olması və ənənəvi türk düşmənçiliyi ideyası sözügedən zəmanəti gücləndirən amil rolunda çıxış etdi. İranla sərhəd isə həmişə açıq qalsa da, rəsmi İrəvan regiondakı ümumi qeyri-sabitlik fonunda burada da Rusiya nəzarətinin saxlanılmasını məqbul saydı. Yəni görünən tərəf budur. Reallıq isə ondan ibarətdir ki, Ermənistanda Rusiya qoşunlarının mövcudluğu birincinin xunta rejiminin, hətta dərin mənada Qarabağ avantürasının saxlanılmasına xidmət edirdi və başlıca məqam ölkəni idarə edənlərin Moskvanın əlaltıları olmaları idi. Axı söhbət Azərbaycan torpaqlarının işğalında Ermənistana hərtərəfli dəstək göstərən Rusiyadan gedir. Məsələyə mövcud prizmadan yanaşsaq, 1992-ci il müqaviləsi yalnız formal xarakter daşıyıb. Yəni ruslar onsuz da dayanmalı olduqları yerdədirlər. Hazırda isə Paşinyan administrasiyası həmin yeri, obrazlı desək, dar etməyə çalışır. Çünki faktiki olaraq, Ermənistanda rus hərbi varlığına ehtiyac yoxdur. Əksinə, bu varlıq zərərlidir.



Haqqında söz açdığımız müqavilənin mexanizmi təkcə sərhəd mühafizəsi ilə məhdudlaşmır. Nəzərə alaq ki, Rusiya silahlı qüvvələri Ermənistan ərazisində, xüsusilə Gümrüdə yerləşən 102-ci hərbi baza vasitəsilə geniş təhlükəsizlik missiyası yerinə yetirirlər. Mövcud məqam ümumi müdafiə sistemində Ermənistanın Rusiyadan asılılığını artırır. Buna görədir ki, birincinin tam suverenliyinə dair suallar yaranır. Ermənistan hakimiyyəti Rusiya sərhədçilərinin İrəvanın Zvarnots Hava Limanındakı fəaliyyətinə son qoyulmasına da son dərəcə ehtiyatla yanaşdı. Paşinyan illərlə davam edən xidmətə görə Kremlə təşəkkürünü çatdırdı və erməni hərbçilərin artıq təcrübə topladıqlarını vurğuladı. Hərçənd soyuq reallıq onu deməyə əsas verir ki, erməni iqtidarının qərarı daha böyük dəyişiklikdən əvvəlki sınaq xarakterli testdir.

Bir məqamı da vurğulayaq: Ermənistanla Rusiya arasında sərhəd mühafizəsi razılaşması hüquqi baxımdan ikitərəfli müqavilədir. Birinci istəsə, sənədi ləğv edə bilər. Ancaq bunun ciddi siyasi nəticələr doğuracağı və onsuz da soyuq məcraya malik Moskva-İrəvan münasibətlərinə mənfi təsir göstərəcəyi birmənalıdır. Axı Rusiya Cənubi Qafqazda mövcudiyyətin yalnız jandarm funksiyasını təsəvvürə gətirir. Yeri gəlmişkən, ölkə zamanında Azərbaycana da İranla sərhədləri qorumaqla bağlı təklif irəli sürmüş, belə bir missiyaya razılıq qarşılığında Qarabağ məsələsində dəstək vəd etmişdi. Aydındır ki, ölkəmizin rəhbərliyi bu sayaq siyasi bazarlığa gedə bilməzdi və getmədi də.

...Reallıq odur ki, Ermənistanın İran və Türkiyə ilə sərhəd-keçid məntəqələrində söz sahibi ruslardır. Ölkənin öz sərhəd qoşunları olsa da, həmin qoşunlar daha çox ikinci dərəcəli və ya koordinasiyaedici funksiyanı yerinə yetirirlər. Xüsusən, Türkiyə sərhədi tam bağlı olduğundan, burada rus hərbi komponenti daha güclüdür. İran istiqamətinə gəlincə, burada da nəzarət mexanizmi bilavasitə rusların iştirakı ilə həyata keçirilir. Paradoksa baxın, Ermənistanın öz hərbçiləri müstəqil şəkildə yalnız Azərbaycanla sərhədyanı zolaqda yerləşib. Bu məqam ətrafında düşünməyə dəyər. O anlamda ki, illərlə hərbi-siyasi münaqişə durumuna baxmayaraq, yekunda İrəvan dövlət atributunun tam funksionallığını məhz ölkəmizlə sərhəddə təmin edib. Hesab edirik ki, parlament seçkiləri ərəfəsində olan erməni cəmiyyətinin bundan nəticə çıxarması və sülhü prioritet seçməsi vacibdir...

Yenidən N.Paşinyanın fikirlərinə qayıdaq. Aydındır ki, həm Nikolun, həm də onun komandasının təmsilçilərinin Rusiyanın Ermənistanın təhlükəsizlik təminatı paramentrlərinə uyğun gəlmədiyinə dair çoxsaylı açıqlamaları var. Hiss olunur ki, erməni iqtidarı ölkədəki rus hərbi varlığı ilə yollarını ayırmaq üçün ciddi mətləblər axtarışındadır. Nəzərə alaq ki, bu axtarışın əlahiddə səbəbləri var.

Birinci səbəb “Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu”, yaxud TRIPP layihəsidir. O layihə ki, reallaşması Ermənistanın Azərbaycanla ötən il avqustun 8-də Vaşinqtonda imzaladığı Birgə Bəyannamənin vacib komponenti və öhdəliyidir. Rəsmi İrəvan öhdəliyi qüsursuz yerinə yetirməlidir. Ötən ildən indiyədək mövzu ətrafında gedən müzakirələr onu göstərir ki, İranla sərhəddəki rus hərbi varlığı layihənin nəzərdə tutulan qüsursuzluq seqmentinə ziddir. Rəsmi Moskvanın TRIPP-dən söz düşəndə özünün silahlı kontingent mövcudluğunu yada salması da bunu söyləməyə əsas verir. Deməli, layihə üçün qeyri-müəyyənlik yaradan vəziyyət aradan qalxmalıdır.

İkincisi, haqqında söz açdığımız və son vaxtlar intensivləşən Türkiyə-Ermənistan normallaşma xətti ayrıca vurğulanmalıdır. Məlumdur ki, erməni iqtidarının təmsilçiləri indidən Türkiyə istiqamətindəki sərhəd-keçid məntəqələrində yalnız erməni sərhədçilərinin xidmət aparacaqlarını diqqətə çatdırıblar. Bu, son dərəcə önəmlidir. Hər halda, fəaliyyət göstərəcəkləri təqdirdə sözügedən məntəqələr böyük daşımaların həyata keçirildiyi nöqtələr olacaq. Tam aydındır ki, maraqlı tərəflər həmin nöqtələrdə Rusiyanın jandarm missiyası yerinə yetirməsi, söz sahibi olması reallığı ilə barışmayacaqlar. Yəni Paşinyan həm də bu səbəbdən öz mesajını gerçəyə çevirməlidir.

Sonda onu da deyək ki, Paşinyanın Milli Təhlükəsizlik Xidmətinin Sərhəd Qoşunlarının yaranmasının ildönümünə həsr olunmuş çıxışında söylədikləri xeyli dərəcədə indinin məsələsi deyil. Ermənistan parlament seçkiləri ərəfəsindədir və Rusiya hərbçilərinin ölkədən çıxarılmaları yox, ümumən digər vacib məsələlərin həlli üçün iqtidarın, ilk növbədə, seçki qalibi olması şərtdir. Əks təqdirdə...

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Brüssel–İrəvan münasibətləri maliyyə müstəvisində

## *Kənar yardımlar, doğrudanmı, bölgədə sülhə və əməkdaşlığa xidmət edir?*

**Avropa İttifaqının (Aİ) Ermənistana yönəlmiş müxtəlif layihələr çərçivəsində həyata keçirdiyi genişmiqyaslı maliyyə yardımları son dövrlər regionun siyasi gündəmini zəbt edən mövzulardan birinə çevrilib. Son aylar Ermənistan mətbuatında, xüsusən də “NEWS.am” kimi platformalarda bu yardımların gecikdirilməsi, kəsilməsi və ya başqa istiqamətlərə yönləndirilməsi ilə bağlı yayılan məlumatlar həm daxili ictimai rəydə, həm də xarici analitik dairələrdə ciddi rezonans doğurub.**

Bu iddiaların kökündə dayanan əsas narrativ ondan ibarətdir ki, rəsmi Brüssel daxili büdcə kəsiri və Ukraynadakı müharibəyə ayrılan xərclərin prioritetləşdirilməsi səbəbilə Ermənistana verdiyi maliyyə vədlərindən geri çəkilir. Lakin Aİ-nin Ermənistandakı nümayəndəliyinin sözügedən məsələ ilə bağlı yaydığı rəsmi açıqlama bu məlumatı təkzib edib. Aİ rəsmiləri bəyan edirlər ki, Ermənistana ayrılmış maliyyə resurslarında nə bir gecikmə, nə də hər hansı istiqamət dəyişikliyi var. Əksinə, Brüssel tərəfindən bəyan edilmiş strateji kurs Ermənistanın iqtisadi və institusional sisteminin Avropa standartlarına yaxınlaşdırılması istiqamətində daha da intensivləşib.

Bu məqamda, xüsusi qeyd edilməlidir ki, Aİ-nin Ermənistandakı fəaliyyəti artıq sadəcə ikitərəfli əməkdaşlıq çərçivəsində qiymətləndirilən texniki yardım prosesi deyil. Bu, Cənubi Qafqazda baş verən və daha geniş coğrafiyanı əhatə edən geosiyasi dəyişikliyin tərkib hissəsidir. Təklif olunan çoxmilyonluq maliyyə yardımları, institusional islahat paketləri və xüsusilə Avropa Sülh Fondu vasitəsilə verilən hərbi-texniki dəstək regionun siyasi və iqtisadi balansında yeni bir xəttin formalaşdığını göstərir. Bu yeni xətt Ermənistanın ənənəvi təhlükəsizlik çətirindən uzaqlaşaraq Qərb sisteminə inteqrasiya olunması cəhdləri ilə müşayiət olunur. Lakin bu cür sürətli keçid və ona paralel olaraq təqdim edilən maliyyə stimullları Azərbaycan–Ermənistan sülh prosesi ilə eyni vaxta təsadüf etdiyi üçün prosesin təsirini çoxqatlı edir. Qərbin iqtisadi rıçaqları bir tərəfdən sülh gündəliyini stimullaşdırmaq potensialına malik olsa da, digər tərəfdən Ermənistan daxilindəki destruktiv və revanşist qüvvələr tərəfindən manipulyasiya edilərək regional gərginliyi artıran alətə çevrilir.

Məsələnin maliyyə tərəfinə nəzər saldıqda Ursula fon der Lyayen tərəfindən elan edilmiş 270 milyon avroluq “Dayanıqlılıq və İnkişaf Proqramı” diqqət mərkəzində dayanır. Bu proqramın məqsədi Ermənistanın infrastrukturunun modernləşdirilməsi, “yaşıl enerji” keçidinin təmin edilməsi və idarəetmə sistemindəki islahatların dərinləşdirilməsidir. Sözügedən vəsaitin ayrılması və icrası Ermənistanın Qərb sisteminə iqtisadi yöndən bağlanması strategiyasının mühüm sütunudur. Bu mənzərə həm də Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi çərçivəsində nəzərdə tutulan addımların davamı kimi görülməlidir.

* * *

Ermənistanın daxili siyasi və informasiya müstəvisində baş verən gərginliklər bu yardımların manipulyasiya alətinə çevrildiyini aydın göstərir. Məsələn, Aİnin xarici diplomatiya idarəsinin rəhbəri Kaja Kallas ilə Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan arasında keçirilən görüşlə bağlı yayılan iddialar buna bariz nümunədir. Ermənistanın müxalif və radikal dairələri iddia edirdilər ki, bu görüşdə, guya, seçkiönü informasiya mühitinin gücləndirildiyi və “dezinformasiya ilə mübarizə” adı altında nəzərdə tutulan 50 milyon avroluq yardımın dondurulduğu bildirilib.



Tərəflər bunu təkzib etsə də, belə məlumatların dövriyyəyə buraxılması göstərir ki, kənar maliyyə yardımları Ermənistan daxilində “yumşaq güc” aləti kimi qəbul edilir və daxili siyasi mübarizədə rəqiblərə qarşı istifadə olunur. Bu ziddiyyətli informasiya mühiti sübut edir ki, xarici aktorların maliyyə müdaxiləsi artdıqca, regiondakı həssas balansın pozulması təhlükəsi də böyüyür.

Azərbaycanın strateji maraqları fonunda ən kritik məqamlardan biri də 2025-ci ilin dekabrında imzalanmış strateji tərəfdaşlıq sazişidir. Rəsmi Bakı üçün bu sənədin məzmunu prinsipial əhəmiyyət kəsb edir. Azərbaycan tərəfi dəfələrlə bəyan edib ki, postmünaqişə reallıqlarını təhrif edən, regionun suverenlik prinsiplərinə xələl gətirən və Azərbaycanı birbaşa və ya dolayısı ilə hədəf alan hər hansı bəndin bu sənəddə yer alması qəbulolunmazdır. Xüsusilə, Aİ-nin Ermənistandakı monitorinq missiyasının fəaliyyətinin genişləndirilməsi ilə bağlı məsələlər Bakıda ciddi suallar doğurur. Monitorinq missiyasının mülki xarakterli fəaliyyətdən uzaqlaşaraq bəzi hallarda üçüncü ölkələrə, Azərbaycan, Rusiya və İrana qarşı “kəşfiyyat platforması” kimi istifadə olunduğuna dair iddialar regional etimad mühitinə kölgə salır. Bu cür addımların “Genişlənmə və Şərq Qonşuluğu” siyasəti çərçivəsində əsaslandırılmasına baxmayaraq, hərbi və kəşfiyyat elementlərinin ön plana çəkilməsi sülh gündəliyi ilə ziddiyyət təşkil edir.

* * *

Bütün bu proseslərin kulminasiya nöqtəsi kimi Ermənistanda 2026-cı il iyunun 7-nə təyin edilmiş parlament seçkiləri çıxış edir. Bu seçkilər Ermənistanın daxili məsələsi deyil, həm də regionun gələcək taleyini müəyyən edəcək strateji bir mərhələdir. Seçkiöncəsi dövrdə Ermənistana ayrılan maliyyə yardımlarının və informasiya dəstəyinin hansı istiqamətə yönəldiləcəyi böyük əhəmiyyət daşıyır. Ermənistan daxilindəki revanşist qüvvələr hər vəchlə sülh prosesini ləngitməyə çalışır və Qərbin iqtisadi dəstəyini “milli dəyərlərin satılması” və ya “iqtisadi asılılıq” kimi manipulyasiya edirlər. Onlar yardımların gecikməsi xəbərlərini seçki kampaniyasının mərkəzinə gətirərək cəmiyyətdə anti-Azərbaycan və antisülh əhvali-ruhiyyəsini alovlandırmağa cəhd göstərirlər. Azərbaycan üçün əsas strateji hədəf isə odur ki, Ermənistandakı bu daxili siyasi turbulentlik və kənar maliyyə rıçaqları 2025-ci ildə əldə olunmuş kövrək sülh ruhunun zədələməsinə imkan verməsin. Regionun yenidən böyük güclərin “soyuq müharibə” poliqonuna çevrilməsi təhlükəsi realdır və bu, maliyyə axınlarının düzgün tənzimlənməməsindən birbaşa asılıdır.

Mövzu ilə bağlı **BMTM-nin şöbə müdiri, politoloq Mətin Məmmədli** XQ-yə bildirdi ki, əgər Aİ-nin yardımları hərbi ritorikanın gücləndirilməsinə deyil, regional kommunikasiyaların açılmasına, nəqliyyat-logistika marşrutlarının inteqrasiyasına yönələrsə, bu, uzunmüddətli sabitliyə xidmət edər. Dayanıqlı iqtisadiyyat və şəffaf idarəetmə Ermənistanın qonşu ölkələrlə normal iqtisadi əlaqələr qurmasına kömək edən amillərdir. Bunun üçün Qərb donorları yardım paketlərini “yalnız Ermənistan üçün” deyil, “regional inteqrasiya üçün” fəlsəfəsi ilə hazırlamalıdırlar.

M.Məmmədli qeyd etdi ki, sülh prosesinə təsir edən risklərdən biri də Ermənistan daxilindəki siyasi dinamika ilə bağlıdır: “Xüsusilə revanşist siyasi qüvvələrin aktivliyi regiondakı nisbi sabitlik üçün potensial təhlükə kimi qiymətləndirilir. Ermənistanda bu ilin iyununda keçiriləcək parlament seçkiləri bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Əgər revanşist və radikal siyasi qüvvələr hakimiyyətə gələrsə, bu, Ermənistan–Azərbaycan sülh prosesinin pozulması riskini artıraraq regionda yeni gərginlik dalğasına səbəb ola bilər.



Buna görə də qlobal və regional aktorların sülh prosesini dəstəkləməsi və tərəflər arasında dialoqun davam etdirilməsi xüsusi əhəmiyyət daşıyır”.

Beləliklə, maliyyə yardımları və institusional dəstək ətrafında yaranan informasiya dalğası daha böyük və qlobal bir mübarizənin indikatorudur. Bu, geosiyasi təsir dairələrinin yenidən bölüşdürülməsi prosesinin iqtisadi təzahürüdür. Azərbaycan üçün strateji məqsəd kənar müdaxilələrin sülh ruhunu, sərhədlərin delimitasiyası sahəsindəki irəliləyişləri zədələməsinə imkan verməməkdir. Cənubi Qafqazın suverenliyi, xarici maliyyə asılılığının yaratdığı siyasi şantajlardan azad olmalı və yardımlar hərbi gərginlik deyil, tərəfdaşlıq üçün körpü rolunu oynamalıdır.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Leyla Əliyeva və Arzu Əliyeva Şəki şəhərində olublar

## Uşaq evi sosial xidmət müəssisəsində görüş





**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Arzu Əliyeva Şəkidə Sosial Xidmətlər Agentliyinin 6 saylı uşaq evi sosial xidmət müəssisəsini ziyarət ediblər.**

Səfər zamanı Leyla Əliyeva və Arzu Əliyeva müəssisənin fəaliyyəti, valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün yaradılan şərait, onların təlim-tərbiyəsi və sosial müdafiəsi istiqamətində görülən işlərlə yaxından tanış olublar. Bildirilib ki, 1936-cı ildən fəaliyyət göstərən uşaq evi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın təşəbbüsü ilə 2018-ci ildə yeni bina ilə təmin edilib.

Sonra Leyla Əliyeva və Arzu Əliyeva uşaqların xüsusi hazırladıqları mədəni proqramı izləyiblər. Proqram çərçivəsində uşaqlar tərəfindən rəqs və musiqi nömrələri təqdim olunub, teatr məşğələsində hazırlanmış səhnəciklər nümayiş etdirilib. Uşaqların yaradıcılıq bacarıqlarını, istedadını və səhnə mədəniyyətini əks etdirən çıxışlar maraqla qarşılanıb.

Sonda müəssisənin kollektivi və uşaqlar ilə xatirə şəkilləri çəkdirilib, hədiyyələr təqdim edilib.

## “ABAD” Keramika və Tətbiqi Sənət Mərkəzi ilə tanışlıq





**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Arzu Əliyeva Şəkidə “Yuxarı Baş” Milli Tarix-Memarlıq Qoruğunun ərazisində fəaliyyət göstərən “ABAD” Keramika və Tətbiqi Sənət Mərkəzi ilə tanış olublar.**



Mərkəzin yaradılmasında əsas məqsəd Azərbaycanın, xüsusilə Şəki bölgəsinin qədim keramika irsinin qorunması, bu sənət ənənələrinin gələcək nəsillərə ötürülməsi və ölkəmizin mədəni irsinin tərkib hissəsi kimi beynəlxalq səviyyədə tanıdılmasına töhfə verməkdir.

Qeyd olunub ki, mərkəzdə yerli sənətkarlar üçün əlverişli istehsal şəraiti yaradılıb, onların məhsullarının bazara çıxışı və yaradıcılıq fəaliyyətinin inkişafı dəstəklənir.

Daha sonra Leyla Əliyeva və Arzu Əliyeva “ABAD”çı rəssam keramistlərin fəaliyyəti ilə yaxından tanış olub, keramika məhsullarının hazırlanması prosesində sənətkarlarla birlikdə iştirak ediblər. Sənətkarlar tərəfindən müxtəlif keramika nümunələrinin hazırlanmasında Leyla Əliyevanın rəsm əsərlərindən ilham alındığı diqqətə çatdırılıb. Leyla Əliyeva əsərlərinə göstərilən diqqətə görə keramistlərə təşəkkür edib, milli sənət ənənələrinin qorunması və inkişafı istiqamətində fəaliyyətlərini yüksək qiymətləndirib, onlara yeni yaradıcılıq uğurları arzulayıb.

## Xan məscidini ziyarət



**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Arzu Əliyeva Şəki şəhərinə səfər çərçivəsində Xan məscidini ziyarət ediblər.**

Ziyarət zamanı məscidin imamı Vüqar Məmmədov Leyla Əliyevaya və Arzu Əliyevaya Xan məscidi kompleksi barədə ətraflı məlumat verib. Bildirilib ki, XVIII əsrə aid olan Şəki Xan məscidi şəhərin mühüm dini-mədəni və tarixi-memarlıq abidələrindən biridir. Tarixi mənbələrə və abidə üzərindəki kitabələrə əsasən, məscid Hacı Məhəmmədhüseyn Xan tərəfindən inşa etdirilib.

Qeyd olunub ki, tarixi Şəki Xan məscidində bərpa işləri Heydər Əliyev Fondu tərəfindən həyata keçirilib. Eləcə də məscid kompleksinin ərazisində muzey yaradılıb. Muzeydə Şəki xanlığı dövrünə aid eksponatlar, müxtəlif mənbələrdən toplanmış maddi-mədəniyyət nümunələri nümayiş olunur.

Muzey Şəki xanlığının yaranması və formalaşması tarixini, eləcə də onun milli dövlətçilik tariximizdə xüsusi yerini əyani şəkildə nümayiş etdirir.

Sonda Leyla Əliyevaya və Arzu Əliyevaya “Qurani-Kərim” hədiyyə olunub.

## Tarixi-memarlıq abidələrinin bərpadan sonra açılışı










**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva Şəkidə “Yuxarı Baş” Milli Tarix-Memarlıq Qoruğunun ərazisində yerləşən bir sıra tarixi-memarlıq abidələrinin bərpadan sonra açılışında iştirak ediblər.**

Leyla Əliyeva və Arzu Əliyeva Şəki Tarix-Diyarşünaslıq Muzeyi, Şəbəkə Emalatxanası və Təlim Mərkəzində yaradılmış şəraitlə tanış olublar. Bildirilib ki, həyata keçirilən bərpa və konservasiya işləri tarixi irsin qorunmasına, Şəkinin qədim sənətkarlıq ənənələrinin yaşadılmasına, həmçinin şəhərin turizm potensialının daha da artırılmasına xidmət edir.

Şəki Tarix-Diyarşünaslıq Muzeyində bölgənin tarixini, mədəniyyətini, etnoqrafiyasını, ənənəvi sənətkarlığını və kulinariya irsini əks etdirən eksponatla baxış keçirilib. Muzeydə, ümumilikdə, 3 mindən çox maddi-mədəni dəyərə malik eksponat qorunur, onlardan 1826-sı sərgi zallarında təqdim edilir.

Qeyd olunub ki, “Yuxarı Baş” Milli Tarix-Memarlıq Qoruğunun ərazisində digər tarixi-memarlıq abidələrinin bərpa və konservasiya işləri mərhələli şəkildə davam etdiriləcək.

Səfər zamanı Şəbəkə Emalatxanası və Təlim Mərkəzinə də baxış keçirilib. Qeyd olunub ki, burada şəbəkə sənətinə həsr olunmuş sərgi salonu, emalatxana və təlim otaqları yaradılıb.

Leyla Əliyeva və Arzu Əliyeva məşhur şəbəkə ustası Tofiq Rəsulov və onun şagirdləri ilə görüşüb, şəbəkə nümunələrinin hazırlanması prosesində iştirak ediblər. Onlar Azərbaycanın bu qədim sənət növünün yaşadılması və gələcək nəsillərə ötürülməsi istiqamətində gördüyü işlərə görə Tofiq Rəsulova minnətdarlıqlarını bildirib, ustaya və şagirdlərinə uğurlar arzulayıblar.

Sonra şirniyyat hazırlanmasında iştirak edən Leyla Əliyeva və Arzu Əliyeva, həmçinin ABAD Keramika Mərkəzi ilə tanış olublar.

*XQ*

# Siyasət və süni intellekt



## IV MƏQALƏ

### "Posthibrid" anlayışı

Hibrid müharibə artıq müəyyən təcrübəyə çevrilmişdir. Öncəki məqalədə vurğuladığımız kimi, "hibrid müharibə" adi silahlarla informasiya təxribatları, kiber, süni intellekt, iqtisadi sabotaj, təbliğat, təşviqat və dezinformasiya vasitələrinin bir-birini tamamlaması anlamında sinkretik uzlaşdırılmasını ifadə edir. Bu zaman adi silahlar vasitəsilə hərbi əməliyyatlar zəruri "sərt təsir" vasitəsi kimi nəzərə alınır. Eyni zamanda, informasiya texnologiyalarının və süni intellektin çox müxtəlif növləri güclü rol oynayırlar. Hətta adi silahlarla şərti olaraq alternativ adlandırılan "yumşaq vasitələr" müharibənin taleyini qan tökülmədən həll edə bilərlər. ABŞ/İsrail-İran müharibəsinin nümunəsində bu özəlliyi görə bilərik.

Hər şeydən öncə, bu müharibə "posthibrid" anlamına daxil deyildir. Çünki xeyli dərəcədə adi silahların (konvensional) tətbiqi vardır. Lakin hər iki tərəf (əslində üç tərəf) müharibəyə ciddi informasiya savaşı ilə hazırlıq etmişdi. ABŞ, İsrail və İran informasiya texnologiyaları və xüsusi süni intellekt simulyasiyaları ilə haqlı olduqlarını sübut etməyə, həm də qarşı tərəfdən güclü olduğunu "faktlar"la təsdiqləməyə çalışdılar.

İnformasiya mühitinin mənzərəsinə baxdıqda belə təəssürat yaranırdı ki, iştirakçı olacaq bütün tərəflər hər kəsdən hərbi, texnoloji, silah gücü və informasiya manevrləri aspektlərində daha qüvvətli olduqları obrazlarını yaratmağa çalışmışlar. Bu təəssüratı tərəflər öz texnoloji imkanları daxilində yaratdılar, lakin adi silahların tətbiqi nəticəsində kimin hansı hərbi gücə sahib olduğu real olaraq aydınlaşdı.

Məlum oldu ki, ABŞ digər iki iştirakçıdan xeyli güclüdür. Bütün aspektlərdə! Lakin İranın da özünəməxsus "yumşaq gedişləri" meydana çıxdı. Hətta süni intellekt vasitəsilə Tehranın müharibənin gedişatını necə izlədiyini və kontrolda saxlamağa çalışdığını ifadə edən süni intellekt silumyasiyasını media dövrüyyəsinə buraxdılar.

ABŞ və İsrail tərəfinin informasiya və süni intellekt sferalarındakı daha geniş, dərin və güclü imkanları haqqında xeyli danışmaq olar. Lakin bir həqiqəti vurğulamaq lazımdır: ABŞ hərbi əməliyyatları dayandırdıqdan sonra təşəbbüs konvensional silahlardan informasiya texnologiyaları, diplomatiya və süni intellekt vasitələrinə keçmişdir.

Rəsmi Vaşinqton xüsusi siyasətlə prosesi uğurla aparmaqdadır. Yəni indiki mərhələdə hərbi güc tətbiq etmədən qarşısına qoyduğu məqsədlərə çatmağa çox yaxındır. Ancaq İran tərəfi də öz simasını saxlamaqla mümkün qazanclar əldə etməkdədir.

Deməli, ABŞ/İsrail-İran müharibəsi nümunəsində hibrid savaşın bir çox xüsusiyyətlərini araşdırmaq imkanı vardır. Bu, başqa yeni informasiya müharibəsi ilə siyasətin qarşılıqlı əlaqəsini ifadə edən faktorların dərk edilməsi üçün zəruridir. Biz ilk olaraq "poshibrid" adlandırdığımız istiqaməti nəzərdə tuturuq.

### Mahiyyət

İnformasiya savaşı hadisəsi kimi "hibriddən sonrakı mərhələ"nin prinsipial fərqləri vardır. Bu, müharibəni aparmağın vasitələri, mexanizmləri, üsulları, əhatə dairəsi və məqsədlərini əhatə edir. Vurğulanan xüsusiyyətlər kontekstində "posthibrid informasiya müharibəsi" nədir?

Birincisi, bu müharibə yalnız "yumşaq təsirlər" - informasiya, süni intellekt, kiber, rəqəmsal, hərbi dağıntı yaratmayan "yumşaq sabotajlar" (informasion, iqtisadi, energetik, sosial-psixoloji, mənəvi-əxlaqi, mədəni, geosiyasi, siyasi, ekoloji və s.), təbliğatla təşviqatın təxribatçı və dağıdıcı sintezi, ayrıca xüsusi hədəflərə yönəldilmiş dezinformasiya vasitələri ilə aparılır.

İkincisi, "sərt güc"ün - adi silahlar+nüvə silahının tətbiqi istisnadır! Bu, "posthibridlik" üçün prinsipial məqamdır. Əslində həmin informasiya müharibəsi növünün əsl gücü, potensialı və təhlükə dərəcəsi bu məqamla əlaqəlidir. Çünki kənardan fəzilət nümunəsi kimi görünür – hansı ölkədəsə insanların qayğısına qalındığı, ədalətin bərqərar olmasına çalışıldığı, hədəf seçilən cəmiyyət və dövlətin əsl sivillik nümunəsinə çevrildiyi niyyətinin mövcud olduğu təəssüratı yaradırlar.

Və bütün bunlar ən yeni informasiya texnologiyaları, süni intellekt nümunələri, güclü kibertəsir vasitələri ilə həyata keçirilir. Bir güllə belə atılmır, bombalanan yer yoxdur, uşaqlar və qadınlar silah vasitəsilə həlak edilmir, cəmiyyətin ən sadə kəsiminin müdafiə edildiyi ilğımı yaradılır və s.

Yəni hiyləgər olduğu qədər də, sivillik, demokratiya, insan haqları kimi ibarələrlə mükəmməl maskalanmış, cəmiyyətin və dövlətin bütün "sinir sistemi"nə nüfuz edən dağıdıcı fəaliyyət növüdür!

### Hədəf necə seçilir?

Bu, əslində, "posthibrid informasiya müharbəsi"nin üçüncü, lakin çox əhəmiyyətli xüsusiyyətidir. Onun mahiyyəti "posthibrid müharibə" hədəfinin hansı kriteriyalar üzrə seçilməsi ilə bağlıdır. Çünki təcrübə göstərir ki, bu informasiya savaşı növü xüsusi seçilmiş ölkələrə qarşı aparılır - o hələ total tətbiq edilən vasitə deyildir.

Düşünürük ki, burada hədəf ölkə əsas iki kriteriya üzrə seçilir.

Birincisi, "posthibridliyin" hədəfi artıq adi və ya nüvə silahı ilə vurulmalı olan ölkə ranqından yüksəkdə olmalıdır. Yəni qəbul edilməlidir ki, elə ölkələr vardır ki, onlara qarşı "sərt güc" tətbiqi səmərəsizdir və yolverilməzdir. Ancaq elə dairələr həmişə tapılır ki, konkret ölkənin bu uğurunu götürmür və ona dağıdıcı zərbə vurmaq niyyətindən çəkinmir.

İkincisi, hədəf seçilən ölkəyə "yumşaq vasitələr"in bütün növlərinin kompleks tətbiqi ilə təsir edilir. Bu, avtomatik olaraq, dövlətlə yanaşı cəmiyyətin əsas dəyərlərini hədəfə gətirir. Xüsusi olaraq mənəvi, əxlaqi, mədəni kodlar, cəmiyyətyaradıcı rol oynayan sosial, siyasi, ruhani, intellektual kəsimlər hədəf alınır.

Üçüncüsü, posthibrid informasiya müharibəsində dövlətin və cəmiyyətin aparıcı qüvvələri başlıca zərbə hədəfi olaraq seçilir. Bu zaman dövlətin başçısı, ölkənin və cəmiyyətin real lideri xüsusi təsirlər hədəfi olaraq müəyyən edilir. Həmin bağlılıqda dövlətin başçısının siyasi məharəti, mənəvi-əxlaqi keyfiyyətləri, şəxsiyyəti, fəaliyyətinin müxtəlif istiqamətləri, ailəsi və ən yaxın silahdaşları, sadiq davamçıları, ona dəstək verən müttəfiq və dost ölkə başçıları informasiya təxribatı, dezinformasiya dalğası və süni intellektin müxtəlif simulyasiyalarının "nişanına" alınır.

### Lider – cəmiyyət

Bu prosesin iki mühüm aspektini diqqətə almaq lazımdır.

Birincisi, "posthibrid müharibə"də lider-cəmiyyət münasibətlərinin inklüzivliyi və legitimliyi ciddi surətdə hədəfə qoyulur. Cəmiyyətin öz liderinə inam və etibarını yox etmək üçün çox müxtəlif informasiya texnologiyalarından, təbliğat və təşviqat vasitələrindən və ayrıca, süni intellektin imkanlarından yararlanırlar. Bunlar kompleks halında lider-cəmiyyət münasibətlərində ciddi böhran və uçurum yarada biləcək situasiya formalaşdırırlar.

Adətən lideri cəmiyyət fonunda mənəvi-əxlaqi dəyərlərə əməl etməyən kimi göstərmək cəhdləri edilir. Bu zaman konkret cəmiyyətin kollektivləşməsində əsas rolu oynayan dəyərləri hədəf alırlar.

Məsələn, bir cəmiyyətdə ailə dəyərləri həmişə aparıcı rol oynayırsa (həm cəmiyyətin formalaşması, həm də mənəvi-əxlaqi kodların əsas "yuvası" kimi), onu toplumun gözündən salmağa çalışırlar. Liderin şəxsini, ailə üzvlərini, ən yaxın dairəsini, siyasi dəstək verən əhatəni, cəmiyyətdəki etibarlı davamçılarını ləkələmək üçün informasiya texnologiyaları, media vasitələri, süni intellektin süni mənzərə yarada bilmək imkanlarını səfərbər edirlər.

Bu cür təsirin qaynağı ölkədaxili mühit olmaya bilər. Adətən yaratmaq istədikləri süni, qeyri-real mənzərəni inandırıcı göstərmək üçün ölkədən xaricdə məskunlaşmış və hər hansı səbəbdən ölkəsindən incik düşmüş insanlardan istifadə edirlər. Bu istiqamətin araşdırılması çox vacibdir.

### Cəmiyyətdaxili mühit

İkinci aspekt də çox önəmlidir. Bu istiqamətdə cəmiyyətin özünü öz gözündən salmaq üçün, onu bədbin və perspektivsiz sosial-psixoloji məcraya yönəltmək istiqamətində çox hiyləgər və toplumun mənəvi-əxlaqi dünyasının "ana sütunları"na yönəlmiş "yumşaq güc"dən istifadə olunur. Yəni burada başlıca hiylə cəmiyyətin özünü içəridən laxlatmaqla kənar hərbi güc tətbiq etmədən daxili cəbhələşmə yaratmaq xüsusi yer tutur. Sonrakı mərhələlərdə bu cür cəmiyyət birləşdirici, yaradıcı və milli deyil, özü üçün süni radikal müxalif kəsim formalaşdırır. Cəmiyyət mahiyyətcə özünütəşkilə yox, xaosa istiqamətlənir – xilas yolunu xaosa uğramaqda görür.

Bunun əsas səbəbi xüsusi informasiya-ünsiyyət texnologiyaları əsasında cəmiyyətin ənənəsi ilə bugünü arasında dəyər uçurumu yaratmaqla bağlıdır. İstənilən cəmiyyətin müasir insanları öz keçmişləri və kollektivləşmənin tarixi üsulları haqqında neqativ rəyə malik olurlarsa, toplum öz tarixinin düşməninə çevrilir.

Cəmiyyətin özünüinkar müstəvisinə gətirilməsi çox təhlükəli gedişatdır. H.Kissincer liderlərdən bəhs edərkən məhz bu məqamı ayrıca vurğulamışdır. Onun üzərində qısaca dayanaq.

H.Kissincer XX əsrdə dünya miqyasında uğur gətirən liderlik strategiyalarını müqayisə edərkən üç önəmli saydığı məqama diqqət etmişdir.

***Birincisi,*** *liderlər dövləti idarəetmədə bacarıqlı olmalıdırlar.*

***İkincisi,*** *liderlər cəmiyyətdə aparıcı rol oynamalıdırlar.*

***Üçüncüsü,*** *liderlər dövlət və cəmiyyət üçün ən böhranlı və kəskin mürəkkəb dönəmlərdə toplumun perspektivli istiqamətdə toparlanmasını motivə etməli və onu istiqamətləndirməlidir.*

Yəni müasir dövr üçün lider üç funksiyanı bir-biri ilə vəhdətdə yerinə yetirir. Bu mənada, cəmiyyət və dövlətin mövcudluq və fəaliyyət enerjisi liderin şəxsində və fəaliyyətində kollektiv sinerjinin "akkumulyasiya ünvanı", onun real təzahürü və perspktivlilik göstəricisidir. Lider həm də dövlətin idarəedilməsi ilə cəmiyyətin özünütəşkili, toplumun hər kritik situasiyada "xaosun astanasından dönməyi" bacarmağı harmoniya halına gətirməyi fəaliyyətində ehtiva edən əvəzedilməz şəxsiyyətdir.

Deməli, müəyyən anlamda müasir cəmiyyətin özünüinkar halına salınması toplumun şüurunda və duyğusunda lideri inkar etməkdən başlayır. Bu təəssüratı yaratmaq üçün siyasi-ideoloji kontekstdə kütləyə xüsusi məqsədli informasiya təsirlərindən geniş yararlanmağa çalışırlar.

Bununla toplumun sosial-psixoloji və əhval-ruhiyyəvi bütövlüyündə ilk mənəvi-əxlaqi çatı yaradıb, sonrakı daha total mərhələ üçün zəmin hazırlayırlar.

Burada bəsit, lakin tarixin sınaqlarından çıxmış bir həqiqət işləyir: əgər bir cəmiyyətin və dövlətin "başında duran" qüsurludursa, onda toplumun özünün dəyəri yoxdur.

Belə bir hiss, duyğu ideoloji və intellektual fakta çevrilirsə, istənilən cəmiyyət natamamlıq kompleksi içində "corab kimi sökülür". Yəni cəmiyyətdaxili mühit özü mövcudluğunun qatı düşməni halına gəlir!

Bu, "posthibrid informasiya müharibəsi"nin başlıca strateji hədəfidir! Bir güllə atmadan cəmiyyəti içindən "sökmək" ki, özü özünün yararsız olduğu düşüncəsinə gəlsin.

Əlbəttə, belə bir cəmiyyət daim kənardan asılı olacaq və öz taleyinin subyekti deyil, başqalarının oyuncaq obyektinə çevriləcək və XXI əsrin "humanizmi", "psevdodemokratiyası" və "yalançı liberalizmi" üçün əsl "yem" halına gələcək! Bu cür cəmiyyətin insanlarına güllə atmağa ehtiyac qalmır.

Bütün bunların Azərbaycanla bağlı hər hansı təzahürü mövcuddurmu?

***(ardı var)***

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Müdafiə sənayemizdə innovasiya modeli

*Milli Məclisin komitə sədri ilə Azərbaycanın təhlükəsizlik gündəliyi barədə söhbət*

**Regional və qlobal geosiyasi proseslərin sürətləndiyi bir dövrdə Azərbaycan Cənubi Qafqazın əsas təhlükəsizlik qütbü kimi öz mövqeyini daha da möhkəmləndirir. Müdafiə sənayesinin modernləşdirilməsi və sülh quruculuğu istiqamətində atılan addımlar ölkəmizin strateji hədəflərini yeni müstəviyə daşıyır. Bu, eləcə də Ukrayna ilə bağlı gündəmə gələn "Bakı formatı" və hərbi sahədə şəffaflıq mövzularını Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyevlə müzakirə etdik.**

**– Arzu müəllim, bu gün Yaxın Şərqdə, xüsusən də İran–İsrail/ABŞ müstəvisində yaşanan hərbi-siyasi gərginliklər və müvəqqəti atəşkəs fonunda proseslər Azərbaycanın milli təhlükəsizlik strategiyasına necə təsir göstərir? Münaqişənin regiondakı enerji və nəqliyyat dəhlizlərinin təhlükəsizliyinə yarada biləcəyi risklərə qarşı Bakının hansı preventiv addımlar atması zəruridir?**

– Bu gün Azərbaycan Cənubi Qafqazda və daha geniş miqyasda Avrasiya məkanında mühüm strateji mərkəzə çevrilir. Regionda həm çox həssas, həm də böyük imkanlar vəd edən geosiyasi proseslər cərəyan edir ki, burada əsas çağırış ümumi balansın qorunmasıdır. Təhlükəsizlik, diplomatiya, regional liderlik, qlobal oyunçularla münasibətlər, hərbi güc və iqtisadi məsələlər kimi bütün mühüm amillər bu proseslərdə öz əksini tapır. Məlumdur ki, sərhədlərimizdən çox da uzaq olmayan ərazilərdə İran-İsrail və ABŞ-İran gərginliyi davam edir. Yaxın Şərqdə, xüsusilə İranda baş verən hadisələr Azərbaycanın təhlükəsizlik mühitinə artıq birbaşa təsir göstərmək imkanına malikdir. Bunun əsas səbəbləri sırasında Zəngəzur dəhlizi (TRIPP) və Orta dəhliz kimi nəqliyyat layihələrinin geosiyasi rəqabət obyektinə çevrilməsi, həmçinin enerji infrastrukturunun qorunması dayanır. Azərbaycan bu gün dünyanın bir çox istiqamətlərində enerji təhlükəsizliyini təmin edən, qaz və neft ixracı ilə məşğul olan mühüm tranzit ölkədir. Xəzər-Qafqaz regionunun risk altına düşməməsi üçün mövcud münaqişələrin sülhlə nəticələnməsi mütləqdir. Regionda sərhəd təhlükəsizliyi və hibrid risklər diqqət mərkəzindədir. Xüsusilə cənub istiqamətində həssaslığın artması informasiya, kəşfiyyat və müxtəlif dini təsir alətlərinin aktivləşməsi riskini yüksəldir. Eyni zamanda, böyük köç dalğası və qaçqın kütləsinin yaranması ehtimalı vaxtilə sərhədlərimizdə baş verən hadisələrin təkrarlanması təhlükəsini yaradır. Buna görə də Azərbaycan həm sərhədlərində öz müdafiə sistemini möhkəmləndirir, həm də qonşuluq siyasəti çərçivəsində humanist missiyasını həyata keçirir.

**– Azərbaycanın bölgədəki təhlükəsizlik arxitekturasının formalaşmasında oynadığı aparıcı rol "Qafqaz Evi" ideyasının gələcək inkişafı üçün həlledici xarakter daşıyır. Cənubi Qafqazda davamlı sülhün təmin olunması üçün Bakının təqdim etdiyi bu modelin reallaşması və kənar müdaxilələrin qarşısının alınması mexanizmləri haqqında nə deyə bilərsiniz?**

– Heydər Əliyevin vaxtında formalaşan "Qafqaz evi" ideyası bu gün də mühüm əhəmiyyət kəsb edir. Bakı iqtisadi və hərbi baxımdan regionun ən güclü oyunçusu kimi bu məsələdə açar rolunu oynayır. Postmünaqişə dövrünün çətinliklərinə baxmayaraq, əsas təşəbbüs sahibi məhz Azərbaycandır. Ermənistanla sülh müqaviləsinin imzalanması istiqamətində addımlar atılır və Qərb, İran, Rusiya kimi müxtəlif güclərin rəqabətinə rəğmən, rəsmi Bakı balanslaşdırılmış siyasəti ilə bu problemin həllini bacardığını nümayiş etdirir. Elə bu günlərdə Prezident İlham Əliyevin "Sülh və Barışıq üçün Gernika mükafatı" ilə təltif edilməsi də Azərbaycanın postmünaqişə dövründə həyata keçirdiyi sülh quruculuğu siyasətinin beynəlxalq səviyyədə qəbulu hesab olunur. Ölkə başçısının rəhbərliyi altında xüsusilə son dövrlərdə respublikamız hərbi sənaye sahəsində də mühüm yeniliklərə imza atır. Çexiya ilə müdafiə sənayesi sahəsində qurulan əməkdaşlıq – artilleriya sistemləri, hava müdafiəsi, optik və radar texnologiyalarının transferi – yerli istehsalın dərinləşməsinə xidmət edir. Azərbaycan müdafiə sənayesini təmir və yığma modelindən tam istehsal və innovasiya modelinə keçirir. NATO üzvü olan bir ölkə ilə bu cür addımların atılması ordunun NATO standartlarına uyğunlaşdırılması və silah təchizatının diversifikasiyası baxımından strateji əhəmiyyət daşıyır. Biz tək Türkiyə, İsrail və Rusiya ilə deyil, həm də Avropa dövlətləri ilə əlaqələri genişləndiririk. Regional iqtisadi inteqrasiyanın təşviqi təhlükəsizliyin təmin olunduğu yerlərə sərmayə qoyuluşu üçün zəruridir. Bakı artıq çoxtərəfli diplomatiya mərkəzinə çevrilib. Həm Qərb, həm Şərq, həm də Türk dövlətləri Azərbaycanla sıx əməkdaşlığa can atır. Ölkəmiz vasitəçi dövlət statusu qazanaraq böyük güclərin rəqabəti fonunda problemləri həll etmək iqtidarında olduğunu göstərir.

**– Qəbələdə Azərbaycan və Ukrayna prezidentlərinin görüşü də kifayət qədər məhsuldar oldu...**

– Bəli, aprelin 25-də Ukrayna lideri Volodimir Zelenskinin Prezident İlham Əliyevlə görüşü zamanı səsləndirdiyi fikirlərdən yola çıxaraq deyə bilərəm ki, Bakı və Kiyev arasında həmin gün imzalanan 6 mühüm sənəd konkret sahələr üzrə strateji iş birliyinə çevrilir. Hazırda təhlükəsizlik məsələləri gündəmin mərkəzindədir və Ukrayna müharibə meydanında qazandığı real təcrübəni, ekspert biliklərini artıq Azərbaycandakı həmkarları ilə bölüşür. Bu tərəfdaşlıq yaxın gələcəkdə hərbi təyinatlı məhsulların birgə istehsalına başlamaq məqsədi daşıyır. Digər tərəfdən, Azərbaycanın ən çətin məqamlarda, xüsusən sərt qış aylarında göstərdiyi dəstək Ukrayna tərəfindən yüksək qiymətləndirilir. Kiyevin indiyə qədər ölkəmizdən 11 müxtəlif yardım paketi alması bu dostluğun əməli müstəvidəki ən böyük göstəricisidir. Bu əlaqələr onu deməyə əsas verir ki, Azərbaycan regionda həm hərbi-strateji güc, həm də etibarlı humanitar mərkəz statusunu uğurla qoruyub saxlayır.



Ukrayna prezidenti onu da dedi ki, Rusiya ilə danışıqların növbəti raundlarından biri qarşı tərəf də razı olsa, Bakıda keçirilə bilər. Rusiya tərəfinin də üçüncü kanallar vasitəsilə məsələyə müsbət yanaşması ilə gündəmə gələn "Bakı formatı" ideyası Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki yerini regional oyunçudan qlobal vasitəçiyə doğru sürətlə daşıyır. Bu təşəbbüs Bakını həm Rusiya, həm də Ukrayna ilə birbaşa və etibarlı ünsiyyət qura bilən unikal diplomatik qovşağa çevirə bilər. Digər vasitəçilik platformalarından fərqli olaraq, Bakı hər iki tərəf üçün "neytral zona" statusunu əməli addımlarla qoruyacaq mühüm məkandır. Rəsmi Bakı bir tərəfdən Ukraynanın ərazi bütövlüyünə birmənalı dəstək verir, digər tərəfdən isə Rusiya ilə strateji tərəfdaşlıq balansını pozmur. Bu balanslaşdırılmış mövqe "Bakı formatı"nı gərginliyin azaldılması və gələcək sülh danışıqları üçün ən real və təhlükəsiz platforma kimi ön plana çıxarır.

**– Müdafiə sənayesinin modernləşdirilməsi və beynəlxalq tərəfdaşlarla birgə istehsal layihələrinin həyata keçirilməsi prosesində şəffaflığın qorunması dövlətin hərbi qüdrətinin əsas şərtlərindəndir. Rəhbərlik etdiyiniz komitə bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi, hərbi büdcənin səmərəli xərclənməsinə nəzarət və korrupsiya risklərinin minimuma endirilməsi istiqamətində hansı islahatları prioritet hesab edir?**

– Müdafiə sənayesində şəffaflığın təmin edilməsi və idarəetmə keyfiyyətinin artırılması sadəcə texniki məsələ sayılmır, bilavasitə strateji hədəf kimi qəbul olunur. Bu sahədə ən böyük diqqət müasir texnologiyaları mənimsəyən və idarə edə bilən yeni nəsil milli kadrların yetişdirilməsinə yönəldilir. Çünki xaricdən alınan və ya daxildə istehsal edilən sistemlərin arxasında peşəkar yerli mütəxəssislər dayanmalıdır. Silahlanma və təchizat proseslərinin daha dəqiq aparılması üçün parlamentin nəzarət imkanları xeyli gücləndirilir. Bununla bərabər, hərbi satınalmalarda beynəlxalq audit mexanizmlərinin işə salınması və rəqəmsal izləmə sistemlərinin tətbiqi vəsaitlərin tam şəffaf xərclənməsinə şərait yaradır. Bu addımlar korrupsiya risklərini sıfıra endirir və müdafiə sektorunun real effektivliyini artırır.

Azərbaycanın apardığı xarici və daxili siyasət bir-birini tamamlayır. Bütün bu hərbi-iqtisadi hazırlıqların təməlində dövlətin ərazi bütövlüyünün, suverenliyinin qorunması və vətəndaşların rifah halının yaxşılaşdırılması dayanır. İndi rəsmi Bakı beynəlxalq arenada heç bir dövlətin diktəsini qəbul etmir. Azərbaycan hər kəslə, o cümlədən qlobal güclərlə bərabərhüquqlu, qarşılıqlı hörmətə əsaslanan və milli maraqlara cavab verən yüksək səviyyəli dialoq qurur. Keçirilən mühüm beynəlxalq görüşlər və qazanılan diplomatik uğurlar təsdiqləyir ki, ölkəmiz ən mürəkkəb geosiyasi şəraitdə belə öz müstəqil iradəsini və gücünü ortaya qoya bilir.

***Söhbəti qələmə aldı:***
***Tacir SADIQOV***
***XQ***

*Yazdığımıza bir də qayıdırıq*

# Kərə yağı bazarında "piylənmə"

## *Qiymətlər artdıqca "marqarinləşmə" də çoxalır*

**Son dövrlərdə ölkənin ərzaq bazarında müşahidə olunan dəyişikliklər fonunda kərə yağı mövzusu xüsusi diqqət çəkir. Rəsmi statistika, ekspert rəyləri və bazar iştirakçılarının qiymətləndirmələri göstərir ki, daxili amillər və qlobal ticarətdə baş verən proseslər, eləcə də beynəlxalq qiymət dalğalanmaları və aparıcı istehsalçı ölkələrin təsiri də nəzərə alınmaqla, bu sahədə həm struktur, həm də kəmiyyət baxımından ciddi dəyişikliyin yaranması zəruridir.**

### Statistika indi nə deyir?

Son illərdək milli statistika ölkədə heyvandarlığın sürətli inkişafını əks etdirən rəqəmləri gen-bol yayırdı. Gözlənilirdi ki, tezliklə ət, yağ bollaşacaq, qiymətlər aşağı düşəcək. Lakin əksinə oldu: bu məhsullar qıtlaşdı, bahalaşma baş alıb-getdi. Nə oldu mal-qara artımı? Deməli, mal-qaraya nəsə olubmuş...

Bu yerdə bir sovet dönəmi söhbəti yada düşür. Ötən əsrin 70-ci illərinin ət-yağ qıtlığı vaxtı 1-ci kursda oxuyan jurnalist tələbə siyasi tarix professorundan bunun səbəbini soruşub. Müəllim qısaca cavab verib: "Ukraynada mal-qara kütləvi qırılıb. 1-2 ilə vəziyyət düzələcək". 5-ci kursda tələbə həmin müəllimi küçədə görüb köhnə söhbəti yada salır və vəziyyətin niyə düzəlmədiyini soruşur. Müəllim əsəbiləşib deyir: "Get bu sualı ukraynalılara ver".

İndi biz ət-yağ qıtlığının aradan qaldırılmasının cavabını kimdən soruşaq?!. Ekspertlər isə bildirirlər ki, respublikada kərə yağı istehsalının azalmasının əsas səbəblərindən biri heyvandarlıqda nəzərə çarpan müəyyən çətinliklərlə bağlıdır. Məsələn, yem bazasının qıt olması, örüş sahələrinin getdikcə azalması vəziyyətə mənfi təsir göstərir. Fermer belə halda heyvan saxlamaqdan imtina edir, onun yerinə kənd təsərrüfatının digər sahələri ilə məşğul olmağa üstünlük verir. Bu da heyvandarlıqda müəyyən tənəzzülə, kərə yağı istehsalının kəskin azalmasına gətirib çıxarır.

**İqtisadçı-ekspert Gülmalı Qədimovun** sözlərinə görə, bu problemi həm də kənd təsərrüfatında düzgün planlaşdırmanın həyata keçirilməməsi, aqrar sektorun inkişafı ilə bağlı qanunvericilikdə müəyyən boşluqların aradan qaldırılmaması, müəyyən təhlillərin düzgün aparılmaması və çoxsaxəli məhsul əkininə diqqət yetirilməməsi kimi amillər şərtləndirir. Məhz bütün bunların nəticəsidir ki, yerli istehsal getdikcə azalır, idxaldan asılılıq isə güclənir. Hətta idxal məhsulları yerli istehsaldan daha münasib qiymətə başa gəlir. Yerli istehsalın azalması isə rəqabət mühitinin yaranmasının qarşısını alır. Bu, özünü rəsmi göstəricilərdə də aydın göstərir.

Dövlət Statistika Komitəsinin hesabatına görə, cari il yanvarın 1-nə respublikada iribuynuzlu heyvanların sayı 2 milyon 436 min baş, xırdabuynuzlu heyvanların sayı isə 6 milyon 758 min baş olub. 2025-ci il yanvar ayının 1-i ilə müqayisədə isə iribuynuzlu heyvanların sayı 1,2 faiz və ya 30 min baş, xırdabuynuzlu heyvanların sayı isə 2 faiz və ya 139 min baş azalıb. Yeri gəlmişkən, iribuynuzlu heyvanların sayı rayonlar üzrə ən çox Sabirabad (124 min baş), Bərdə (107 min baş) və İmişli (96 min baş), xırdabuynuzlu heyvanların sayı isə ən çox Beyləqan (280 min baş), İmişli (256 baş) və Qubada (242 min baş) olub. Onu da bildirək ki, ötən il ölkəyə 33 milyon 52 min ABŞ dolları dəyərində 308 baş diri qoyun, 91 milyon 458 min ABŞ dolları dəyərində 115 min baş diri iribuynuzlu heyvanlar idxal edilib.



Cari ilin ilk 3 ayında isə ölkədə 5 min 920 ton kərə yağı istehsal edilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 8 faiz azalma deməkdir. İlk baxışda bu rəqəm daxili istehsal potensialının müəyyən səviyyədə qorunduğunu göstərsə də, sahə üzrə mütəxəssislərin fikirləri bu göstəricilərin mahiyyətinə yenidən baxmağı zəruri edir. Onların qeyd etdiyi kimi, "yerli istehsal" adı ilə təqdim olunan məhsulların əhəmiyyətli hissəsi, əslində, idxal olunan xammalın, əsasən də qaymağın ölkə daxilində emalı və ya hazır məhsulun sadəcə qablaşdırılması nəticəsində formalaşır. Bu isə statistik göstəricilərlə real istehsal arasında ciddi fərqin olduğunu göstərir. Nəticə etibarilə, ölkədə kərə yağı üzrə real istehsal potensialı son dərəcə məhdud olaraq qalır.

### Bəs idxal niyə azalır?

**Kənd təsərrüfatı elmləri üzrə fəlsəfə doktoru Vəli Abbasovun** fikrincə, keçən ilin birinci yarısında kərə yağı idxalının 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 25,6 faiz azalması bazarda baş verən dəyişikliklərin əsas göstəricilərindən biridir. Bu azalma bir neçə mühüm amillə izah olunur. Əvvəla, regionda, xüsusilə İranda baş verən geosiyasi proseslər nəqliyyat-logistika zəncirlərində müəyyən çətinliklər yaradaraq idxal kanallarını məhdudlaşdırıb. Bu, həm idxalın həcminə, həm də strukturuna birbaşa təsir edib.

Digər tərəfdən, bu məsələdə qiymət amili də əsaslı rol oynayıb. Başqa sözlə, orta idxal qiymətinin müəyyən dövrlərdə dəyişməsi pərakəndə bazarda bahalaşma meyillərinin güclənməsi ilə nəticələnib. Maraqlıdır ki, bəzi dövrlərdə idxal qiymətinin nisbətən ucuzlaşmasına baxmayaraq, bu, son istehlak qiymətlərində tələbata uyğun şəkildə əks olunmayıb. Belə bir hal isə bazarda qiymət formalaşması mexanizmlərinin qeyri-şəffaflığından xəbər verir.

Kərə yağı bazarında müşahidə olunan tendensiyalardan biri də istehlak strukturunun dəyişməsidir. Son illərdə sağlam qidalanma meyillərinin güclənməsi fonunda əhalinin bir hissəsi heyvan mənşəli yağlardan imtina edərək bitki yağlarına üstünlük verməyə başlayıb. Statistik məlumatlara əsasən, bitki yağlarının idxalında 5,4 faiz artım qeydə alınması bu tendensiyanın real bazar göstəricilərində də əksini tapdığını göstərir. Bu dəyişikliklər kərə yağına olan tələbin azalmasına, nəticə etibarilə idxal həcmlərinin aşağı düşməsinə gətirib çıxarır.

Alim bildirir ki, Azərbaycanın kərə yağı bazarında diqqətçəkən digər mühüm məqam ixrac həcmlərində baş verən ciddi azalmadır. Belə ki, əvvəlki dövrlərdə əsas ixrac istiqamətlərindən biri olan Rusiya bazarına göndərilən məhsulun həcmi 12 min tondan 2 min 300 tona qədər geriləyib. Bu azalma, eyni zamanda, təkrar emal həcmlərinin azalması, statistik istehsal göstəricilərinin aşağı düşməsi və daxili bazarda artıq ehtiyatların formalaşma görüntüsünün yaranmasına təsir göstərib. Yeri gəlmişkən, sıralamada vurğulanan "artıq ehtiyatlar" amili, əslində, real istehsal artımı ilə bağlı deyil, bu məsələ ixrac kanallarının daralmasından qaynaqlanıb.

Rəsmi məlumatlara görə, bu gün ticarət müəssisələrinin anbarlarında 62 ton kərə yağı ehtiyatı mövcuddur. Bu göstərici ilk baxışda təhlükəli görünməsə də, bazarın struktur xüsusiyyətləri nəzərə alındıqda ciddi narahatlıqlar yaradır. Belə ki, məhsulun uzun müddət anbarda saxlanılması keyfiyyətin aşağı düşməsinə, istifadə müddətinin azalmasına, eləcə də dövriyyə və dəyər problemlərə səbəb olur. Bu isə nəticə etibarilə istehsalçıların maliyyə dayanıqlığını zəiflədir və qiymətlərin artımına təkan verir.

Mövcud vəziyyətin ən mühüm xüsusiyyətlərindən biri kərə yağı bazarının idxaldan yüksək asılılığıdır. Ekspertlərin qiymətləndirmələrinə görə, hazırda bu göstərici 90 faiz səviyyəsindədir. Bu isə o deməkdir ki, bazarda baş verən hər hansı xarici şok – istər geosiyasi, istər logistika, istərsə də qiymət dəyişiklikləri birbaşa daxili bazara ötürülür. Bu asılılıq həm də ərzaq təhlükəsizliyi baxımından ciddi narahatlıq yaradır və yerli istehsalın inkişaf etdirilməsini strateji zərurətə çevirir.

Azərbaycanın kərə yağı bazarı bu gün bir neçə paralel problemin təsiri altındadır. Bu, ilk növbədə, yerli istehsalın zəifliyi, idxaldan yüksək asılılıq, ixrac bazarlarının daralması, qiymət formalaşmasında qeyri-sabitlik, istehlak strukturunda dəyişiklik kimi çətinliklərdə özünü göstərir. Belə bir vəziyyətdən çıxış yolu kimi südçülük sektorunun inkişafı və xammal bazasının genişləndirilməsi, yerli istehsalın stimullaşdırılması, idxalın şaxələndirilməsi, ixrac bazarlarının diversifikasiyası, bazarda şəffaf qiymət mexanizmlərinin formalaşdırılması məsələləri zəruri prioritetlər olaraq daim diqqətdə saxlanılmalıdır.

Beləliklə, kərə yağı bazarında müşahidə olunan dəyişikliklər təkcə bir məhsul seqmenti ilə məhdudlaşmır, bütövlükdə, ölkənin ərzaq təhlükəsizliyi və aqrar siyasətin səmərəliyi ilə sıx bağlıdır. Bu baxımdan mövcud tendensiyaların düzgün qiymətləndirilməsi və vaxtında uyğun tədbirlərin görülməsi xüsusi önəm daşıyır.

### Qlobal bazar nə diktə edir?

Ölkənin kərə yağı bazarında müşahidə olunan mənfi dəyişikliklərin yaranmasına daxili amillərlə yanaşı, həm də qlobal ərzaq ticarətində baş verən proseslər, beynəlxalq qiymət dalğalanmaları və aparıcı istehsalçı ölkələrin diktəsi də birbaşa təsir göstərir. Son illərdə beynəlxalq bazarlarda süd məhsullarının qiymətində bahalaşmanın nəzərə çarpması, xüsusilə 2022-2024-cü illərdə enerji qiymətlərinin yüksəlməsi, yem xərclərinin artması və logistika problemlərinin kərə yağı istehsalına maya dəyərini artırması da vurğulanan fikrin bariz ifadəsidir.

Beynəlxalq statistikaya görə, son 3 ildə dünya bazarında kərə yağının topdansatış qiyməti orta hesabla 15-25 faiz artıb, bəzi dövrlərdə bu göstərici daha yüksək olub. Bu isə Azərbaycanın idxaldan asılı bazarı üçün əlavə təzyiq yaradıb. Çünki ölkədə daxili istehsal zəif olduğu üçün qiymət formalaşması əsasən xarici bazarlardan asılıdır. Azərbaycanın vəziyyətini daha yaxşı anlamaq üçün region ölkələrinin təcrübəsinə də nəzər salmaq vacibdir. Belə ki, Türkiyə son illərdə südçülük sektoruna ciddi dövlət dəstəyi göstərərək daxili istehsalı artırmağa nail olub. Subsidiyalar, fermerlərə verilən güzəştlər və kooperativ sisteminin inkişafı nəticəsində hazırda qardaş ölkə həm daxili tələbatı ödəyir, həm də müəyyən həcmdə ixrac həyata keçirir.

Rusiya 2014-cü ildən sonra tətbiq etdiyi idxal məhdudiyyətləri fonunda daxili istehsalı stimullaşdırmağa çalışıb. Nəticədə süd məhsulları üzrə özünütəminetmə səviyyəsi artıb. Lakin buna baxmayaraq, keyfiyyət və rəqabətlilik məsələləri hələ də gündəmdədir. Gürcüstan və Mərkəzi Asiya ölkələrində isə Azərbaycan kimi idxaldan asılılıq yüksəkdir. Lakin bəzi hallarda kiçik fermer təsərrüfatlarının inkişafı hesabına kiçik bazarların müəyyən hissəsi yerli istehsal hesabına təmin olunur.

Müqayisələr göstərir ki, Azərbaycanın əsas problemi istehsalın həcmində deyil, strukturudur. Yəni xammal bazası zəifdir, südçülük sektorunda məhsuldarlıq aşağıdır, emal sənayesi daha çox idxal xammalına əsaslanır. Halbuki ölkənin təbii iqlim şəraiti südçülüyün inkişafı üçün kifayət qədər əlverişlidir. Regionlarda otlaq sahələrinin mövcudluğu, kənd təsərrüfatı ənənələri və daxili bazarın həcmi bu sahədə böyük potensialın olduğunu göstərir.

***Vaqif BAYRAMOV***
***XQ***

### *Ekspert rəyi*

***Eyyub KƏRİMLİ,***
***iqtisadçı-ekspert***



Dövlət Gömrük Komitəsinin hesabatına görə, 2026-cı ilin ilk 3 ayında respublikaya 36 milyon 169 min dollar dəyərində 5717 ton kərə yağı və süddən hazırlanmış digər yağlar idxal edilib. Ötən ilin uyğun dövründə isə bu göstəricilər müvafiq olaraq 53 milyon 721 min dollar və 7 min 686 ton olub. Beləliklə, Azərbaycana adıçəkilən yağların idxalı 2026-cı ilin birinci rübündə ötən ilin eyni dövrü ilə müqayisədə dəyər ifadəsilə 17 milyon 552 min dollar və ya 32,7 faiz, miqdar ifadəsilə 1968 ton və ya 25,6 faiz azalıb. Yeri gəlmişkən, cari ilin yanvar-mart aylarında ticarət müəssisələrinin anbarlarında 62,1 ton kərə yağı ehtiyatı olub.

İranda baş verən geosiyasi proseslər region ölkələrinin, o cümlədən Azərbaycanın ərzaq, xüsusilə də yağ bazarına birbaşa təsir göstərib. Nəqliyyat və ticarət zəncirində yaranan məhdudiyyətlər, eləcə də regional qeyri-sabitlik idxal strukturlarında dəyişikliklərə gətirib çıxarıb və bu, özünü daha çox qiymət və həcm göstəricilərində büruzə verib. Kərə yağı bazarında isə həm idxal mənbələrinin dəyişməsi, həm də qiymətlərin formalaşması prosesi daha çox diqqət çəkib.

Azərbaycana kərə yağının idxalı ötən ilin müvafiq dövrü ilə müqayisədə cari ilin birinci rübündə 25,6 faiz, yerli istehsal isə 8 faiz azalsa da, bitki yağlarının idxalı 5,4 faiz artıb. 1 kiloqram kərə yağının idxal qiyməti, təxminən, 11 manat (ötən ilin müvafiq dövrü ilə müqayisədə 6,2 faiz ucuz) təşkil edib. Bu isə deməyə əsas verir ki, kərə yağının mövcud qiyməti istehlak tələbinin kəskin azalmasına əsaslı təsir göstərib. Digər tərəfdən İranda gedən müharibə də kərə yağı idxalının aşağı düşməsini müəyyən dərəcədə şərtləndirib. Bu məsələdə təbii ki, insanların sağlam həyat tərzinə üstünlük verərək rasionlarını bitki yağları ilə əvəz etmələri də mühüm rol oynayıb.

Sözsüz ki, İrandakı indiki vəziyyət bu ölkədən ucuz yağın idxalında müəyyən məhdudiyyətlər yaradır. Lakin buna baxmayaraq, mövcud qiymətlər pərakəndə bazarda bahalaşmanı stimullaşdırmır və bu da istehlak göstəricisinin aşağı düşməsinə, nəticə etibarilə yağ idxalının kəskin azalmasına təsir göstərir. Əlbəttə, məlumdur ki, digər ölkələrdən – Uruqvay, Yeni Zelandiya, Səudiyyə Ərəbistanı və Ukraynadan da Azərbaycana yağ idxal olunur. Lakin buna baxmayaraq, ümumi idxalda azalma müşahidə edilir.

Statistik göstəricilərə əsasən, ölkəmizə ən ucuz yağ İrandan gətirilirdi. Yəni məhsulun 1 kiloqramının idxal qiyməti 9 manat 24 qəpik idi və son 3 ayda 1782 ton yağ idxal olunub. Digər ölkələr üzrə isə əsasən Belarus və Yeni Zelandiyadan respublikaya yağ gətirilib ki, bunların da idxal qiyməti, təxminən, 13 manat 50 qəpik təşkil edib.

# Kür yenidən kükrəyib...

## *Baş verə biləcək fəsadların qarşısı alınıb*

**Son zamanlar yağan aramsız yağışlar nəticəsində Kür çayında suyun səviyyəsinin qalxması bir sıra ərazilərdə olduğu kimi, İmişli rayonunun bir neçə kəndində də pay və bələdiyyə torpaq sahələri su altında qalıb. Yaranmış vəziyyətlə yerindəcə tanış olmaq məqsədilə hadisə yerində olduq.**



Məlum oldu ki, rayonun Əlyetməzli kəndinə aid 35 hektar, Məmmədli kəndinə məxsus 5,62 hektar pay torpaq sahəsi, həmçinin kənd bələdiyyəsinin mülkiyyətində olan 11 hektar əkin sahəsi subasmanın təsirinə məruz qalıb. Yaranmış vəziyyətlə əlaqədar olaraq İmişli Rayon İcra Hakimiyyətinin başçısı Elçin Rzayev aidiyyəti idarə və təşkilatların məsul əməkdaşları ilə birlikdə su basmış ərazilərə baxış keçirib, operativ tədbirlər görülüb. Belə ki, su altında qalan nəqliyyat yolunda hərəkətin bərpası məqsədilə əraziyə borular çəkilib, suyun axını tənzimlənib və vətəndaşların torpaq sahələrinə təhlükəsiz keçidi təmin olunub. Hazırda rayon icra hakimiyyətinin məsul şəxsləri hadisəni nəzarət altında saxlayırlar.

Azərbaycan Dövlət Su Ehtiyatları Dövlət Agentliyindən bildirilib ki, martın sonundan başlayaraq ölkənin bütün bölgələrində yağan intensiv yağışlar nəticəsində transsərhəd çaylarında, eləcə də daxili çaylarda gursululuq müşahidə olunub. Mövcud vəziyyət nəzərə alınaraq baş verə biləcək fəsadların qarşısının vaxtında alınması, aidiyyəti qurumlar və yerli istismar idarələri ilə koordinasiyalı fəaliyyətin təmin edilməsi məqsədilə agentliyin tabeliyində Regional Su Meliorasiya Xidmətinin rəhbərliyi və aidiyyəti şöbələrinin mütəxəssisləri yerlərə ezam olunub, yarana biləcək fəsadların qarşısının alınması üçün qabaqlayıcı tədbirlər həyata keçirilib.

Ölkədə su ehtiyatından səmərəli istifadənin təmin edilməsi, su təsərrüfatının idarə olunmasının təkmilləşdirilməsi, bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə ölkə Prezidentinin sərəncamı ilə yaradılmış komissiyanın aprelin 23-də keçirilmiş iclasında aidiyyəti qurumların təklifləri nəzərə alınaraq Mingəçevir su anbarının iş rejiminə gündəlik nəzarət olunması və həftəlik rejimlər təsdiq olunmaqla Kür çayının aşağı axınına suyun buraxılması qərara alınıb.

Aprelin 24-dən Kür çayında suyun səviyyəsinin tədricən enməsi müşahidə olunub və ayrı-ayrı rayonların ərazisində 30-105 santimetr arasında dəyişdiyi müəyyən edilib. Hazırda Kür çayının məcrası ilə suyun Xəzər dənizinə maneəsiz axıdılması təmin edilib, subasma təhlükəsi səbəbindən yerli istismar idarələri tərəfindən təhlükəsiz əraziyə təxliyə edilmiş nasos aqreqatları, nasos və elektrik avadanlıqları yerinə quraşdırılır, su basmış ərazilərdən su tədricən kənarlaşdırılır, əhali gündəlik normal təsərrüfat fəaliyyətini davam etdirir.

***Mikayıl NƏRİMANOĞLU,***
***XQ-nin bölgə müxbiri***

# Sosial şəbəkələrdə "reklam tələsi"




**Sosial şəbəkələrdə və müxtəlif onlayn platformalarda tez-tez "brend məhsullar çox ucuz qiymətə satılır" kimi cəlbedici reklamlarla rastlaşmaq mümkündür. İlk baxışda bu təkliflər son dərəcə sərfəli və cazibədar görünür.**

Daxili İşlər Nazirliyi vətəndaşlara xəbərdarlıq edir ki, bu cür reklamlar əksər hallarda məşhur brendlərin adından istifadə etməklə etibar qazanmağa yönəlir.

Məhsullar real bazar qiymətindən xeyli aşağı təqdim olunur, "son fürsət", "məhdud sayda" kimi ifadələrlə insanlarda tələskənlik hissi yaradılır və düşünülməmiş qərar verməyə sövq edilir.

Bu tip halların əsas məqsədi isə vətəndaşların şəxsi məlumatlarını, xüsusilə bank kartı məlumatlarını ələ keçirməkdir.

**DİN vətəndaşlara aşağıdakı təhlükəsizlik qaydalarına əməl etməyi tövsiyə edir:**

*– Şübhəli linklərə daxil olmayın;*

*– Saytın ünvanını və etibarlığını diqqətlə yoxlayın;*

*– Alış-verişi yalnız etibarlı və tanınmış platformalarda edin;*

*– Emosional təzyiq yaradan reklam və kampaniyalara aldanmayın.*

DİN bildirib: "Belə hallarla qarşılaşdıqda həmin reklamlara reaksiya verməmək vacibdir. Əgər artıq hər hansı məlumat daxil edilibsə və ya şübhəli əməliyyat baş veribsə, vaxt itirmədən müştərisi olduğunuz banka və hüquq-mühafizə orqanlarına məlumat verin. Unutmayın, onlayn platformalarda diqqətli davranmaq hesabınızdakı vəsaiti qorumağın ən etibarlı yoludur".

***XQ***

# Azərbaycan–Çexiya enerji tərəfdaşlığı çoxtərəfli əməkdaşlıqla möhkəmlənir

**Qəbələdə Prezident İlham Əliyevin və Çex Respublikasının Baş naziri Andrey Babişin iştirakı ilə Azərbaycan–Çexiya biznes-forumunun keçirilməsi iki ölkə arasındakı əməkdaşlıq perspektivlərinin, bir növ, elanı oldu. Çexiya rəsmisinin 50 şirkət rəhbəri ilə ölkəmizə səfəri iqtisadi baxımdan qarşılıqlı dividendlərin əldə olunmasına xidmət etdi.**



Maraqlıdır, görəsən, Avropanın beşiyindən Cənubi Qafqaz liderinə olan marağın kökündə başqa hansı səbəblər dayanır? Aydındır ki, Azərbaycan "sabitlik adası"dır, ölkəmiz Çexiyanın da daxil olduğu Avropa İttifaqının bir çox üzvünü enerji ilə təmin edir, ölkə başçısının dediyi kimi, 2017-ci ildən etibarən bir dollar 1,7 manat təşkil edir... Bütün bunlar Çexiyanın ölkəmizə marağının səbəblərindən, sadəcə, bir neçəsidir.

Ümumiyyətlə, geniş vizyona sahib olan ölkələr "qazan-qazan" prinsipi ilə öz iqtisadi şaxələndirilmələrini reallaşdırırlar. Yəni hər hansı bir ölkəyə qoyulan yatırımın geri dönüşü ilə bərabər, həmin ölkənin qlobal nizamdakı nüfuzu və əldə etdiyi uğurlar da qərarvermədə mühüm rol oynayır. Bu məqamda ölkə başçısının sadaladığı digər üstünlüklərimizi xatırlatmaq yerinə düşər. Belə ki, hazırda Azərbaycanın xarici borcu ÜDM-in cəmi 6,1 faizini təşkil edir. Hansı ki, inkişaf etmiş dövlətlərdə bu rəqəm olduqca yuxarıdır. Yəni ölkə borc baxımından potensial təhlükələrdən olduqca uzaqdır. Həmçinin, ölkəmizin investisiya qoyuluşu sahəsində olduqca müsbət portfeli mövcuddur. Azərbaycana sərmayə kimi 350 milyard ABŞ dolları yatırılmışdır və onun, demək olar ki, yarısı xarici tərəfdaşlardan daxil olmuşdur.

Prezident İlham Əliyev biznes-forumda çıxışı zamanı maraqlı bir məqamı da xatırlatdı. Söhbət ötən il iyulun 3-də "Moody's Ratings" beynəlxalq reytinq agentliyinin ölkəmizin suveren kredit reytinqini "Ba1" səviyyəsindən "Baa3" səviyyəsinə (investisiya səviyyəsi) yüksəldərək reytinq üzrə proqnozunu "müsbət" saxlamasından gedir. Reytinq üzrə proqnozun "müsbət" saxlanılması o deməkdir ki, beynəlxalq maliyyə dünyası Azərbaycanın iqtisadi islahatlarının davamlılığına və gələcək potensialına tam etibar edir.

Moody's-in bu qərarı Azərbaycanın xarici şoklara qarşı nümayiş etdirdiyi möhkəm dayanıqlığa əsaslanır. Məlumdur ki, ölkənin aşağı borc yükü, toplanmış nəhəng valyuta ehtiyatları Azərbaycanı regionun ən sabit maliyyə sisteminə malik dövlətlərindən birinə çevirib. Hesabat dövründə Mərkəzi Bankın və ARDNF-nin cəmi valyuta ehtiyatlarının 85 milyard dollara çatması iqtisadi təhlükəsizliyin ən böyük zəmanətidir.

Digər tərəfdən, pul-kredit siyasətinin təkmilləşdirilməsi, dövlət maliyyə idarəçiliyində şəffaflığın artırılması və rəqəmsallaşma sahəsindəki irəliləyişlər də beynəlxalq ekspertlər tərəfindən yüksək qiymətləndirilib. Bununla yanaşı, Azərbaycanın coğrafi mövqeyi bu gün iqtisadi dividendlər gətirir. Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) boyunca yükdaşımaların illik 36 faiz artması ölkəmizin regionda əsas nəqliyyat mərkəzi statusunu möhkəmləndirir. Bakı Beynəlxalq Dəniz Ticarət Limanının gücünün 25 milyon tona çatdırılması hədəfi və sənədləşmə müddətinin 9 saatdan 40 dəqiqəyə endirilməsi logistika sektorunun cəlbediciliyini artırır.

İnvestorlar üçün ən cəlbedici nöqtələrdən biri olan Ələt Azad İqtisadi Zonası fəaliyyətini genişləndirir. Bu çərçivədə işlər daha da genişlənir. Belə ki, Prezident İlham Əliyevin müvafiq fərmanı ilə zonanın ərazisinə əlavə 1453 hektar torpaq sahəsinin ayrılması bu layihəyə olan dövlət dəstəyinin bariz nümunəsidir. Burada fəaliyyət göstərən sahibkarlar korporativ vergilərdən, gömrük rüsumlarından və ƏDV-dən tam azaddırlar ki, bu da yüksək texnologiyalı istehsal sahələrinin yaradılması üçün unikal imkanlar təqdim edir.

Azərbaycanın yeni "Viza Kartı" kimi dəyərləndirilən, iqtisadiyyatın şaxələndirilməsi strategiyasında "yaşıl enerji" xüsusi yer tutur. Ölkəmiz 2030-cu ilə qədər bərpa olunan enerji mənbələrinin payını 30 faizə çatdırmağı hədəfləyir. "Masdar" və "ACWA Power" kimi dünya nəhəngləri ilə əməkdaşlıq çərçivəsində reallaşdırılan 230 MVt-lıq Qaradağ Günəş Elektrik Stansiyası və 240 MVt-lıq Xızı-Abşeron Külək Elektrik Stansiyası Azərbaycanı bərpaolunan enerji ixracatçısına çevirilməsində müstəsna rol oynayır.

Xəzər dənizindən Avropaya "yaşıl enerji" daşıyacaq "Qara dəniz sualtı kabeli" layihəsi artıq Avropa İttifaqı tərəfindən "Qarşılıqlı Maraq Doğuran Layihə" (PMI) statusu alıb. 1195 kilometr uzunluğundakı bu kabel Azərbaycanın "yaşıl enerji"sini birbaşa Rumıniya və Macarıstana çatdıracaq ki, bu da ölkəmizin Avropanın enerji təhlükəsizliyindəki rolunu daha da artıracaq. Məhz bu kimi amillər ölkəmizin beynəlxalq reytinq agentlikləri tərəfindən müsbət rəy almasına səbəb olur.

İşğaldan azad edilmiş ərazilərin yenidən qurulması da Azərbaycan iqtisadiyyatı üçün yeni və nəhəng bir daxili investisiya dalğası yaradıb. 2021-2024-cü illərdə bu bölgələrin bərpasına 12 milyard manatdan çox vəsait ayrılıb. Digər tərəfdən, Ağdam Sənaye Parkında, "Araz Vadisi İqtisadi Zonası"nda aktivliyin müşayiət olunması da sözügedən prosesə ciddi təkan verib. İnvestorlar üçün Qarabağda tətbiq edilən güzəştlər misilsizdir. Təsadüfi deyil ki, işğaldan azad edilən ərazilərimizə investisiya yatırmaq istəyən sahibkarlar üçün müxtəlif vergi güzəştləri, avadanlıq və xammal idxalında tam azadlıq, istehsal sahələri üçün istifadə olunan elektrik enerjisi, qaz və su xərclərinin 20 faizinin dövlət tərəfindən ödənilməsi kimi yardımlar da edilir.

Yəni Moody's-in investisiya səviyyəli "Baa3" reytinqi məhz sadalanan keyfiyyətlərdən ötrü Azərbaycana layiq görülüb. Bu reytinq dünyanın ən böyük pensiya və sığorta fondlarının Azərbaycan bazarına yolunu açır. Şaxələndirilmiş iqtisadiyyat, güclü valyuta ehtiyatları, şəffaf idarəetmə və "yaşıl enerji" mərkəzi statusu Azərbaycanı 2030-cu ilin hədəflərinə doğru inamla aparır.

Çexiyaya gəldikdə isə iki ölkə arasındakı iqtisadi aktivliyin pilləli artımı üçün qarşılıqlı fəaliyyət daha da güclənəcək. Ümumiyyətlə, Baş nazirin bildirdiyi kimi, 2025-ci ildən indiyədək ticarət dövriyyəsi 1,75 milyard avro təşkil etmişdir və bu, əsasən xam neftin təchizinə görə olmuşdur. Lakin gələcəkdə şaxələndirmə üçün böyük potensial mövcuddur.

Cari ilin yanvar-mart aylarında isə Azərbaycanla Çexiya arasında ticarət əməliyyatlarının həcmi 195,7 milyon ABŞ dolları təşkil edib. Çexiya ilə ticarət dövriyyəsinin Azərbaycanın ümumi ticarət dövriyyəsindəki payı 2,08 faiz təşkil edib. Beləliklə, Rumıniya Azərbaycanın həmin dövr ərzində ən çox ticarət əməliyyatları apardığı ölkələr arasında 9-cu yeri tutub. Həmiçinin, sözügedən müddətdə Azərbaycandan Çexiyaya 185,6 milyon dollar dəyərində məhsul ixrac olunub.

Hazırkı göstəricilər ötən ilin eyni dövrü ilə müqayisədə daha az təşkil etsə də, Çexiya Baş nazirinin ölkəmizə səfərindən sonra bu dinamikanın daha da artacağına olduqca böyük inam var. Nəzərə alsaq ki, 42 faiz göstəricisi ilə Azərbaycan Çex Respublikasına xam neftin ən böyük təchizatçısıdır. Gələcəkdə qazın da alışı ilə bu rəqəmlər daha da arta bilər.

***Nurlan ABDALOV***
***XQ***

# Bakıda qlobal aqrosənaye təqdimatlarına hazırlıq

**Gələn həftə Bakıda "Caspian Agro Week"–19-cu Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgi və Forumu, "InterFood Azerbaijan"–31-ci Azərbaycan Beynəlxalq Qida Sənayesi Sərgisi, eləcə də "Horeca Caspian"–14-cü Xəzər Beynəlxalq Mehmanxana, Restoran və Supermarketlər üçün Avadanlıq və Ləvazimatlar Sərgisi keçiriləcək.**

Regionun kənd təsərrüfatı və qida sənayesi üzrə sərgiləri olan "Caspian Agro Week" və "InterFood Azerbaijan" müvafiq sahələrdə fəaliyyət göstərən bütün oyunçuları bir araya toplayan ilin mühüm hadisəsidir. Mayın 5-dən 8-dək davam edəcək sərgilərə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi təşkilati dəstək göstərəcək. Qurum, həmçinin sərgilərdə öz stendi ilə iştirak edərək aqrar sektorun inkişafına yönəlmiş layihələr, innovativ yanaşmalar və dövlət dəstəyi mexanizmləri barədə ziyarətçilərə geniş məlumat təqdim edəcək.

Eyni zamanda, "Caspian Agro Week" və "InterFood Azerbaijan" sərgiləri Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi, Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası, Azərbaycan Qida və İçki Sənayeçiləri Assosiasiyası, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı və Azərbaycan Sərgi Təşkilatçıları Assosiasiyası da sərgiyə lazımi dəstək göstərəcəklər.

Artıq dünyanın 45 ölkəsindən 447 şirkət sərgilərdə iştirakını təsdiq edib. Sərgilərin coğrafiyası Azərbaycanla yanaşı, Almaniya, Amerika Birləşmiş Ştatları, Belarus, Benin, Böyük Britaniya, Braziliya, Cənubi Koreya, Cənubi Sudan, Çexiya, Çin, Gürcüstan, Efiopiya, Fil dişi sahili, Finlandiya, Fransa, Hindistan, İndoneziya, İspaniya, İsveç, İtaliya, Kamerun, Latviya, Meksika, Misir, Niderland, Nigeriya, Polşa, Qana, Qazaxstan, Rusiya Federasiyası, Seneqal, Somali, Şri-Lanka, Tanzaniya, Tayland, Türkiyə, Türkmənistan, Yunanıstan, Yaponiya, Vyetnam, Zambiya və digər ölkələri əhatə edir. Eyni zamanda, sərgilər çərçivəsində Almaniya, Belarus, Braziliya, Gürcüstan, İtaliya, Koreya, Niderland və İndoneziya milli qruplar formatında öz kənd təsərrüfatı və qida sənayesi məhsullarını təqdim edəcəklər.

2026-cı ildə "InterFood Azerbaijan" sərgisi vahid məkanda – Bakı Ekspo Mərkəzinin 4-cü pavilyonunda cəmləşəcək ki, bu da əsas yeniliklərdən biri kimi diqqət çəkir. Beləliklə, qida sənayesini təmsil edən bütün yerli və xarici şirkətlər öz məhsullarını məhz bu pavilyonda ziyarətçilərə təqdim edəcəklər. Bu yanaşma ziyarətçilərin sərgi daxilində vaxtına qənaət etməsinə və qida sektoruna aid bütün yenilikləri vahid bir məkanda, daha rahat şəkildə izləməsinə imkan yaradacaq.

Məlum olduğu kimi, sərgilər Bakı Ekspo Mərkəzinin həm qapalı pavilyonlarında, həm də açıq hava sahəsində təşkil olunur. Açıq sahədə kənd təsərrüfatı üçün nəzərdə tutulan irihəcmli texnika və ən müasir aqrar məhsulların geniş ekspozisiyası nümayiş olunacaq. Burada ziyarətçilər aqrar sektorun ən son texnoloji nailiyyətləri və avadanlıqları ilə yaxından tanış ola biləcəklər.



Builki sərgidə xarici ölkə nümayəndələri və yerli şirkətlərlə yanaşı, Azərbaycanın bölgələri də fəal şəkildə təmsil olunacaq. Bu da ziyarətçilərə sərgilər çərçivəsində bölgələrin aqrar və qida sahəsindəki imkanları ilə yaxından tanış olmaq imkanı qazandıracaq.

Regionun ən böyük aqrar sərgisi olan "Caspian Agro Week" kənd təsərrüfatı texnikası, obyektləri və avadanlıqları, suvarma sistemi, qablaşdırma, kənd təsərrüfatında innovasiya texnologiyaları, heyvandarlıq və quşçuluq, baytarlıq, bitkiçilik, meyvə və tərəvəzlərin yetişdirilməsi, gülçülük, tullantıların emalı, logistika, elektron kənd təsərrüfatı kimi sahələri əhatə edir. Sərgi yenidən kənd təsərrüfatı sənayesinin aparıcı iştirakçılarını, yerli və xarici ekspertləri, o cümlədən idxalçılar, ixracatçılar, kənd təsərrüfatı məhsullarının distribütorları, topdan və pərakəndə ticarət nümayəndələri, həmçinin fermerlər də daxil olmaqla minlərlə peşəkar auditoriyanı bir araya toplayaraq təcrübə, bilik və innovasiyalar mübadiləsi üçün unikal imkanlar yaradır.

"InterFood Azerbaijan" sərgisində isə qida sənayesi, içkilər, şirniyyat, süd məhsulları, qənnadı və un məmulatları, meyvə-tərəvəz, qablaşdırma, qida texnologiyaları, eləcə də halal qida və digər bölmələr üzrə məhsul və xidmətlər təqdim olunacaq.

Sərgilər "Made in Azerbaijan" brendinin təşviqi üçün əlverişli platforma rolunu oynayır. Ötən il olduğu kimi, bu il də "Caspian Agro Week" və "InterFood Azerbaijan" sərgiləri çərçivəsində iştirakçılar bu brend altında məhsullarını nümayiş etdirəcəklər. Bu, qlobal kənd təsərrüfatı və qida sənayesində yerli istehsalın inkişafının və rəqabət qabiliyyətinin parlaq nümunəsidir.

Sərgilərin təqdimat zonasında Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin təşkilatçılığı ilə bir sıra forumlar keçiriləcək. Bununla yanaşı, sərgi günlərində Bakı Ekspo Mərkəzinin təqdimat zonasında "Food & Agro Talks" adlı sahə üzrə təqdimatlar və master-klasslar təşkil ediləcək. Burada aqrar və qida sənayesinin aparıcı mütəxəssisləri, istehsalçılar və sahə nümayəndələri aktual mövzular ətrafında çıxışlar edəcək, real təcrübə və biliklərini bölüşəcəklər.

***M.YAQUBZADƏ***
***XQ***

# "Zərifə Əliyeva" gəmi-bərəsi 681-ci səfərə çıxıb



**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-yə (ASCO) məxsus "Zərifə Əliyeva" gəmi-bərəsinin istismara verilməsindən 4 il ötür. Görkəmli oftolmoloqun adını daşıyan gəmi alimin doğum günündə 681-ci səfərə çıxıb.**

Bu barədə XQ-yə ASCO-nun məlumatında bildirilib ki, səfərlər çərçivəsində gəmi-bərə ilə 427 vaqon, 2 min 439 minik avtomobili, 25 min 226 yük avtomobili (TIR) və 23 min 330 sərnişin daşınıb. Səfərlər Aktau–Ələt, Ələt–Aktau, Türkmənbaşı–Ələt, Ələt–Türkmənbaşı, Kurık–Ələt və Ələt–Kurık istiqamətləri üzrə həyata keçirilib.

Qeyd edək ki, "RoPax" tipli "Zərifə Əliyeva" gəmi-bərəsi Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin sifarişi ilə Bakı Gəmiqayırma Zavodunda inşa olunub. Gəminin tikilib istismara verilməsinə 3 il vaxt sərf olunub. 30 nəfərlik heyət üzvünün idarə etdiyi gəmi-bərə ilə eyni vaxtda 100 sərnişin, sistern tipli 56 vaqon və ya 50 yük avtomobili/TIR daşımaq mümkündür. Gəminin uzunluğu 154,5 metr, eni 17,7 metr, bortunun hündürlüyü 7,5 metr, sürəti isə 14 uzeldir. Gəmi-bərə 100 sərnişin, 56 sistern tipli vaqon və ya 50 yük avtomobili daşımaq imkanına malikdir.

"Zərifə Əliyeva" gəmi-bərəsi Xəzər hövzəsində istismar olunan digər gəmi-bərələrdən daha öndədir. Belə ki, gəmidə yük lifti, helikopter meydançası, dalğalı havada gəminin sabitləşdirilməsi sistemi, dartıcı lokomotivlər var.

Azərbaycan Prezidenti İlham Əliyev iştirakı ilə suya buraxılmış gəmi-bərə ilk səfərini 2022-ci il mayın 5-də də Qazaxıstanın Kurık limanına edib. Ümumilikdə, gəmi Aktau – Ələt, Ələt – Aktau, Türkmənbaşı – Ələt, Ələt – Türkmənbaşı, Kurık – Ələt, Ələt – Kurık istiqamətləri üzrə çoxsaylı səfərlər həyata keçirib.

"Zərifə Əliyeva" gəmi-bərəsi Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə yükdaşıma zəncirinin mühüm həlqəsi olan ASCO-nun digər bərələri ilə birgə yükdaşımalara, eləcə də əlverişli coğrafi mövqeyə malik ölkəmizin tranzit potensialının reallaşdırılmasına mühüm töhfə verir. ASCO-nun bu gəmi-bərəsinin "Zərifə Əliyeva" adlandırılması Azərbaycan dənizçilərinin görkəmli alim və həkim, tibb elmləri doktoru, professor, Əməkdar elm xadimi, akademik Zərifə Əliyevanın xatirəsinə sonsuz ehtiramının ifadəsidir", – deyə məlumatda qeyd olunub.

***XQ***

# Dünya Bankı ilə maliyyə dəstəyi müzakirəsi

**Aprelin 28-də maliyyə nazirinin müavini Himalay Məmişov ölkəmizdə səfərdə olan Dünya Bankının "Rəqabətli, Dayanıqlı Kənd Təsərrüfatı və Suvarma Xidmətləri" (CRAIS) və "Yaşana bilən Bakı" layihələri üzrə identifikasiya missiyaları ilə görüşüb.**

Maliyyə Nazirliyindən bildirilib ki, görüş zamanı Dünya Bankının Azərbaycanın kənd təsərrüfatı və ərzaq sektorunun inkişafına göstərdiyi dəstək, CRAIS layihəsinin hazırlanması və icrası, eləcə də "Yaşana bilən Bakı" layihəsi üzrə növbəti mərhələlərə hazırlıq məsələləri müzakirə olunub.



Eyni zamanda, "Yaşana bilən Bakı" layihəsi çərçivəsində şəhər infrastrukturunun təkmilləşdirilməsi, ekoloji tarazlığın yaxşılaşdırılması və ictimai xidmətlərin keyfiyyətinin artırılması istiqamətində tədbirlərin kompleks yanaşma əsasında mərhələli şəkildə həyata keçiriləcəyi qeyd edilib.

Öz növbəsində, Avropa və Mərkəzi Asiya Regionunun Kənd Təsərrüfatı və Ərzaq üzrə regional meneceri Holger Kray Dünya Bankı ilə Azərbaycan arasında tərəfdaşlığın yüksək səviyyədə olduğunu bildirib. O, qeyd edilən layihələrin Azərbaycanın kənd təsərrüfatı və şəhərsalma sahələrində dayanıqlı inkişafın dəstəklənməsində mühüm rol oynadığını vurğulayıb.

Görüş zamanı, həmçinin, qarşılıqlı əməkdaşlığın genişləndirilməsi, cari layihələrin icra mexanizmlərinin təkmilləşdirilməsi və növbəti mərhələlər üzrə prioritet istiqamətlər ətrafında fikir mübadiləsi aparılıb.

***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 114** **24 aprel 2026-cı il, Bakı şəhəri**

**Müəllimlərin işə qəbulu ilə bağlı müsabiqədə iştirak etmək üçün ödənişin məbləğinin təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 23 dekabr tarixli 321-VIIQD nömrəli Qanununun tətbiqi və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1532-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 may tarixli 711 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 15 yanvar tarixli 583 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Ümumi təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 27.4-cü maddəsinin üçüncü cümləsinə uyğun olaraq, müəllimlərin işə qəbulu ilə bağlı müsabiqədə iştirak etmək üçün ödənişin məbləği 60 (altmış) manat təsdiq edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 115** **24 aprel 2026-cı il, Bakı şəhəri**

**"Çoxmənzilli yaşayış binaları layihələndirilərkən hər bir mənzil üzrə fərdi istilik sistemlərinin quraşdırılmasına icazə verilən hallar"ın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "İstilik təchizatı haqqında" Azərbaycan Respublikasının 2025-ci il 24 iyun tarixli 222-VIIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 14 iyul tarixli 442 nömrəli Fərmanının 2.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Çoxmənzilli yaşayış binaları layihələndirilərkən hər bir mənzil üzrə fərdi istilik sistemlərinin quraşdırılmasına icazə verilən hallar" təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 117** **24 aprel 2026-cı il, Bakı şəhəri**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 28 yanvar tarixli 18 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əlilliyi olan şəxslərin reyestrinin aparılması Qaydası"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 24 oktyabr tarixli 275-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 7 noyabr tarixli 524 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 28 yanvar tarixli 18 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 1, maddə 101 (Cild I); 2024, № 9, maddə 1090; 2025, № 5, maddə 507) ilə təsdiq edilmiş "Əlilliyi olan şəxslərin reyestrinin aparılması Qaydası"nın 5-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** 5.1.8-ci yarımbənddə "faizi" sözü "dərəcəsi" sözü ilə əvəz edilsin.

**2.** 5.1.9-cu yarımbənd ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 118** **27 aprel 2026-cı il, Bakı şəhəri**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 19 yanvar tarixli 20 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisinə gətirilən aksizli malların aksiz dərəcələri"ndə dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 19 yanvar tarixli 20 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 69 (Cild I); 2024, № 1, maddə 126, № 2, maddə 245, № 7, maddə 914; 2025, № 3, maddə 265, № 5, maddə 512; 2026, № 12 (II kitab), maddə 1260) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisinə gətirilən aksizli malların aksiz dərəcələri"ndə "2710 12 413 0","2710 12 510 1" və "2710 19 421 0-2710 19 480 0" alt yarımmövqelərinə aid sətirlər aşağıdakı redaksiyada verilsin:

| | | |
|---|---|---|
| 2710 12 413 0 | mühərrik benzinləri, aviasiya benzinləri istisna olmaqla, tərkibində qurğuşunun miqdarı 0,013 q/l-dən çox olmayan, 95-dən az oktan ədədi ilə | 1 ton üçün 200 manat (2026-cı il 1 may tarixindən 2027-ci il 31 mart tarixinədək – 1,0 manat) |
| 2710 12 510 1 | mühərrik benzinləri, aviasiya benzinləri istisna olmaqla, tərkibində qurğuşunun miqdarı 0,013 q/l-dən çox, 95-dən az oktan ədədi ilə | 1 ton üçün 200 manat (2026-cı il 1 may tarixindən 2027-ci il 31 mart tarixinədək – 1,0 manat) |
| 2710 19 421 1 – 2710 19 480 9 | digər qazoyllar, o cümlədən dizel yanacağı | 1 ton üçün 80 manat (2026-cı il 1 may tarixindən 2027-ci il 31 mart tarixinədək – 1,0 manat) |

**2.** Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin 2026-cı il 1 may – 2027-ci il 31 mart tarixlərində idxal etdiyi Aİ-92 benzini və dizel yanacağı üçün müvafiq olaraq 205 min ton və 201 min ton yuxarı hədd müəyyən edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 121** **28 aprel 2026-cı il, Bakı şəhəri**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 1 avqust tarixli 372 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təbii inhisar subyektlərinin Siyahısı"nda dəyişiklik edilməsi haqqında"**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasına əsasən, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 1 avqust tarixli 372 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 8, maddə 988; 2025, № 4 (I kitab), maddə 398, № 12 (II kitab), maddə 1209) ilə təsdiq edilmiş "Təbii inhisar subyektlərinin Siyahısı"nın 14-cü və 15-ci hissələri ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 116** **24 aprel 2026-cı il, Bakı şəhəri**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 sentyabr tarixli 350 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər və komissiyalar üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətinin Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilməsi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi, "Məişət tullantıları ilə bağlı idarəetmənin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 avqust tarixli 2983 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" 2021-ci il 22 sentyabr tarixli 2908 nömrəli Sərəncamının 3.2-ci bəndinin və "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin ləğv edilməsi və bundan irəli gələn məsələlərin tənzimlənməsi haqqında" 2024-cü il 27 dekabr tarixli 431 nömrəli Sərəncamının 3.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 sentyabr tarixli 350 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1084 (Cild I); 2024, № 2, maddə 229, № 4, maddələr 448, 469, № 7, maddələr 895, 915, № 8, maddə 996, № 12 (I kitab), maddə 1326 (II kitab), maddə 1428; 2025, № 3, maddələr 273, 294, № 7, maddə 707, № 9, maddə 854, № 12 (II kitab), maddə 1257) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər və komissiyalar üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı"nın 13-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** Adı aşağıdakı redaksiyada verilsin:

"13. Səhmdar cəmiyyətləri, məhdud məsuliyyətli cəmiyyətlər və istehsalat birlikləri".

**2.** Aşağıdakı məzmunda iyirmi üçüncü-iyirmi beşinci abzaslar əlavə edilsin:

"13-22/ "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyəti

13-23/ "Azəralüminium" Məhdud Məsuliyyətli Cəmiyyəti

13-24/ "Azərpambıq Aqrar Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyəti".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 119** **27 aprel 2026-cı il, Bakı şəhəri**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164 (Cild I); 2024, № 1, maddə 127, № 2, maddə 244, № 4, maddə 465, № 7, maddələr 891, 903, № 9, maddələr 1045, 1106, № 10, maddələr 1165, 1178, № 11, maddə 1257, № 12 (I kitab), maddələr 1319, 1324; 2025, № 2, maddə 187, № 3, maddələr 266, 268, №5, maddə 512, № 9, maddələr 845, 868, № 10, maddə 971, № 12 (II kitab), maddə 1261; 2026, №1, maddə 80; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 6 fevral tarixli 39 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə "2710 12 413 0", "2710 12 510 1", "2710 19 426 0", "2710 19 429 0" alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə faizlə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "15 (2025-ci il 1 iyun tarixinədək – 0%)" sözləri "15 (2026-cı il 1 may tarixindən 2027-ci il 31 mart tarixinədək idxal olunan 205 min ton Aİ-92 benzini və 201 min ton dizel yanacağı üçün – 0%)" sözləri ilə, "2710 19 421 1", "2710 19 421 9", "2710 19 422 1", "2710 19 422 9", "2710 19 423 1", "2710 19 423 9", "2710 19 424 1", "2710 19 424 9", "2710 19 425 1", "2710 19 425 9", "2710 19 460 1", "2710 19 460 9", "2710 19 480 1" və "2710 19 480 9" alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə faizlə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "15" rəqəmləri "15 (2026-cı il 1 may tarixindən 2027-ci il 31 mart tarixinədək idxal olunan 205 min ton Aİ-92 benzini və 201 min ton dizel yanacağı üçün – 0%)" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 120** **27 aprel 2026-cı il, Bakı şəhəri**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 3 iyun tarixli 211 nömrəli Qərarı ilə təsdiq edilmiş "Qeyri-rezidentlərin Azərbaycan Respublikası ərazisində həyata keçirdikləri maliyyə əməliyyatları barədə məlumatların bu dövlətlərin səlahiyyətli orqanlarına verilməsi Hədləri və Qaydası"nda dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 3 iyun tarixli 211 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 6, maddə 784 (Cild I) ilə təsdiq edilmiş "Qeyri-rezidentlərin Azərbaycan Respublikası ərazisində həyata keçirdikləri maliyyə əməliyyatları barədə məlumatların bu dövlətlərin səlahiyyətli orqanlarına verilməsi Hədləri və Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** Aşağıdakı məzmunda 1.2-2-ci və 1.3-1-ci bəndlər əlavə edilsin:

"1.2-2. Maliyyə institutları tərəfindən fiziki və hüquqi şəxslərə hesab açıldıqda və ya maliyyə xidmətləri göstərildikdə vergi və maliyyə məlumatlarının mübadiləsini nəzərdə tutan Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin icrası məqsədilə şəxsin rezidentliyinin müəyyən edilməsi üçün dürüst olmayan və (və ya) təhrif olunmuş məlumatların və sənədlərin təqdim edilməsinə və ya təqdim edilmiş məlumatlarda və sənədlərdə şəxsin rezidentlik statusunun dəyişdirilməsinə səbəb olan dəyişiklik baş verdiyi halda, bu barədə məlumatların və sənədlərin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş müddətdə təqdim edilməməsi halları müəyyən edildikdə maliyyə institutu tərəfindən şəxs və aşkar olunmuş pozuntu barədə yazılı məlumat dərhal Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə (bundan sonra – Dövlət Vergi Xidməti) verilməlidir.";

"1.3-1. Xarici ölkənin qanunvericiliyinə uyğun olaraq hüquqi təsisat formasında yaradılmış hesabatverən maliyyə institutu adından çıxış etməklə onun maliyyə hesablarının saxlanılmasını və bu Qaydalarla müəyyən edilmiş hesabatvermə və hərtərəfli yoxlama öhdəliklərinin yerinə yetirilməsini təmin edən şəxs (trasta münasibətdə trastın idarəçisi) hesabatverən maliyyə institutunun Qanunla müəyyən edilən məsuliyyəti həddində məsuliyyət daşıyır.".

**2.** 2.2.1-ci yarımbənddə "şəxsdir" sözü "şəxs, o cümlədən xarici hüquqi təsisatdır" sözləri ilə əvəz edilsin.

**3.** 2.2.4.1-ci abzasda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin, həmin abzasın mətni birinci cümləsi hesab edilsin və aşağıdakı məzmunda ikinci, üçüncü cümlələr, 2.2.4.1.1-ci və 2.2.4.1.2-ci abzaslar əlavə edilsin:

"Depozitar fəaliyyəti dedikdə, fəaliyyətinin əhəmiyyətli hissəsi digər şəxslər üçün maliyyə aktivlərinin saxlanılmasından ibarət olan fəaliyyət nəzərdə tutulur. Hüquqi şəxsin aşağıdakı müddətlərdən daha az olan müddət ərzində digər şəxslər üçün maliyyə aktivlərinin saxlanılması və əlaqədar maliyyə xidmətlərinin göstərilməsi fəaliyyətindən əldə etdiyi mənfəət onun ümumi fəaliyyəti üzrə əldə etdiyi mənfəətin ən azı 20%-ni təşkil edirsə, maliyyə aktivlərinin saxlanılması hüquqi şəxsin fəaliyyətinin əhəmiyyətli hissəsini təşkil etmiş hesab olunur:

2.2.4.1.1. hüquqi şəxsin depozitar kimi təsbit edildiyi ildən əvvəlki ilin 31 dekabrında (və ya təqvim ili olmayan hesabat dövrünün son günündə) başa çatan üçillik müddət;

2.2.4.1.2. hüquqi şəxsin fəaliyyət göstərdiyi müddət;".

**4.** 2.2.18-ci yarımbənddə "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti (bundan sonra – Dövlət Vergi Xidməti)" sözləri "Dövlət Vergi Xidməti" sözləri ilə əvəz edilsin.

**5.** 2.2.21-ci yarımbənddə (ikinci halda) "olmayan" sözü "olan" sözü ilə, "2.2.4.2-ci" sözləri "2.2.4.4.2-ci" sözləri ilə əvəz edilsin və "iştirakçı" sözündən sonra "olmayan" sözü əlavə edilsin.

**6.** 4.8.5.1-ci və 4.9.5.1-ci abzaslarda "2.2.4.4-cü" sözləri "2.2.4.4.2-ci" sözləri ilə əvəz edilsin.

**7.** 6.2-ci bənddə "iyul" sözü "iyun" sözü ilə əvəz edilsin.

**8.** Həmin Qaydaya 2 nömrəli əlavəyə aşağıdakı məzmunda 7-ci hissə əlavə edilsin:

"Bu Qaydaların 4.5.6.1-4.5.6.3-cü abzaslarında göstərilən bütün tələblərə cavab verən və hesab qalığı 1000 ABŞ dolları məbləğini keçməyən əvvəlcədən mövcud olan qeyri-aktiv hesablar (annuitet sığortası müqaviləsi istisna olmaqla).".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 122** **28 aprel 2026-cı il, Bakı şəhəri**

**"Vahid elektron arxiv" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi və "Milli arxiv fonduna məxsus elektron sənədlərin daimi dövlət mühafizəsinə qəbulu, mühafizəsi, istifadəsi və arxiv sənədlərinin rəqəmsallaşdırılması Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 9 fevral tarixli 80 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasında arxiv işinin inkişafına dair 2020–2025-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 fevral tarixli 1815 nömrəli Sərəncamının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Vahid elektron arxiv" informasiya sistemi haqqında Əsasnamə" təsdiq edilsin *(əlavə olunur)*.

**2.** Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi:

2.1. "Vahid elektron arxiv" informasiya sisteminin (bundan sonra – Sistem) aparılması, fəaliyyətinin təşkili, saxlanılması, ondan səmərəli istifadənin təmin edilməsi və inkişaf etdirilməsi üçün zəruri tədbirlər görsün;

2.2. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə Sistemin "Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri"nə və fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrinə daxil edilməsi üçün tədbirlər görsün.

**3.** Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi bu Qərarın 1-ci hissəsi nəzərə alınmaqla, "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanının tələblərindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

**4.** "Milli arxiv fonduna məxsus elektron sənədlərin daimi dövlət mühafizəsinə qəbulu, mühafizəsi, istifadəsi və arxiv sənədlərinin rəqəmsallaşdırılması Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 9 fevral tarixli 80 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 2, maddə 212) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2-ci hissədə "Vahid Elektron Arxiv Məlumat Sisteminin (bundan sonra – Sistem) Əsasnaməsinin" sözləri "Vahid elektron arxiv" informasiya sistemi (bundan sonra – Sistem) haqqında Əsasnamənin" sözləri ilə əvəz edilsin;

4.2. 4-cü hissə ləğv edilsin;

4.3. həmin Qərarla təsdiq edilmiş "Milli arxiv fonduna məxsus elektron sənədlərin daimi dövlət mühafizəsinə qəbulu, mühafizəsi, istifadəsi və arxiv sənədlərinin rəqəmsallaşdırılması Qaydaları" üzrə:

4.3.1. 4.5-ci bənddə "Milli Arxiv İdarəsinin Vahid Elektron Arxiv Məlumat Sistemində (bundan sonra – VEAMS)" sözləri "Vahid elektron arxiv" informasiya sistemində" sözləri ilə əvəz edilsin;

4.3.2. 5.3-cü bənddə "VEAMS-nin" sözü "Vahid elektron arxiv" informasiya sisteminin" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.az saytlarında tanış ola bilərsiniz.***

# Azərbaycan oftalmologiyasının dünya şöhrətli alimi




**Aprelin 28-də Səhiyyə Nazirliyi, akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi və Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin birgə təşəbbüsü ilə akademik Zərifə Əliyevanın anadan olmasının 103 illiyinə və mərkəzin 80 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi-praktik konfrans keçirilib.**



Mərasim iştirakçıları Fəxri xiyabanda xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarı önünə gül dəstələri qoyublar. Akademik Zərifə Əliyevanın əziz xatirəsi ehtiramla yad edilib, məzarı önünə əklil qoyulub və tər çiçəklər düzülüb.

Konfransın açılışında səhiyyə naziri Teymur Musayev bildirib ki, akademik Zərifə Əliyevanın çoxistiqamətli elmi yaradıcılığı 12 monoqrafiyada, 160-dan çox elmi işdə öz əksini tapıb. Bununla yanaşı, böyük alim 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifidir. Akademikin uğurlu elmi fəaliyyətinin əsas mahiyyəti yalnız göz xəstəliklərinin müxtəlif bölmələrini əhatə edən elmi işlərdən deyil, problemin həllinə xüsusi yanaşma bacarığının olmasından ibarətdir. Akademik Zərifə Əliyevanın elmi fəaliyyəti yalnız ölkəmizdə deyil, beynəlxalq miqyasda da yüksək qiymətləndirilib.

Azərbaycan səhiyyəsinin Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın diqqət və qayğısı sayəsində inkişaf etdiyini bildirən T.Musayev söyləyib: "Milli Oftalmologiya Mərkəzinin fəaliyyəti sübut edir ki, müasir səhiyyə yalnız texnologiya və biliklə deyil, həm də insanlara yaxın olmaq, onların ehtiyaclarını hiss etmək və vaxtında dəstək göstərmək bacarığı ilə ölçülür. Zərifə xanım Əliyevanın adını daşıyan bu müqəddəs ocaq, əslində, təkcə bir tibb müəssisəsi deyil, bir missiyadır. Bu missiya insanlara işıq bəxş etmək və sağlam gələcəyin təmin olunmasına xidmət etməkdir".

Sonra akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi haqqında videoçarx nümayiş etdirilib.

Mərkəzin direktoru, professor Elmar Qasımov qeyd edib ki, akademik Zərifə Əliyevanın elmi əsərləri müasir həkimlərin masaüstü kitabı kimi istifadə olunur və bir çox xarici dillərə tərcümə edilib. Mərkəzin fəaliyyətindən bəhs edən Elmar Qasımov 23 şöbədən ibarət tibb ocağında dövlət tərəfindən lazım olan bütün tədbirlərin göründüyünü və hər il avadanlığın yeniləndiyini deyib: "Mərkəzdə peşəkar və yüksək potensiallı tibb heyəti var. Milli Oftalmologiya Mərkəzinin Gəncə, Şəki və Masallı filialları fəaliyyətdədir. Artıq xəstələr Bakıya gəlmədən yaşadıqları yerlərdə müalicə ala bilirlər".

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli isə bildirib ki, akademik Zərifə Əliyevanın elmi fəaliyyəti Azərbaycan tibb elminin beynəlxalq nüfuzunun artmasına böyük töhfə verib və bu irs gələcək nəsillər üçün mühüm elmi məktəb rolunu oynayır. Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanov çıxışında səhiyyə sahəsində aparılan islahatların və beynəlxalq əməkdaşlığın əhəmiyyətini vurğulayıb.

Türk Cümhuriyyətləri Oftalmologiya Dərnəyinin sədri professor Öner Gelişken akademik Zərifə Əliyevanın elmi məhsuldarlığı ilə yanaşı, insanyönümlü yanaşmasının, etik dəyərlərin bu gün də həkimlər üçün nümunə olduğunu diqqətə çatdırıb.

Konfrans çərçivəsində akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzində Göz Bankının rəsmi açılışı da olub.

Beynəlxalq konfransda oftalmologiyanın aktual məsələləri geniş şəkildə müzakirə edilib. Konfrans çərçivəsində aparılan müzakirələr həm nəzəri biliklərin, həm də praktiki təcrübənin paylaşılmasına şərait yaradır və aparılan elmi diskussiyalar oftalmologiya sahəsində yeni yanaşmaların formalaşmasına töhfə verəcək.

Konfransda Milli Onkologiya Mərkəzinin Baş direktoru akademik Cəmil Əliyev, Milli Onkologiya Mərkəzinin baş-boyun şişləri şöbəsinin onkoloq-cərrahı, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının rektoru professor Əziz Əliyev, yerli mütəxəssislər, Rusiya, Türkiyə, İtaliya, Özbəkistan və digər ölkələrdən gələn tanınmış oftalmoloqlar iştirak ediblər.

*XQ*

# Zərifə Əliyevanın xatirəsi yad edilib



**Aprelin 28-də AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, AMEA Rəyasət Heyətinin üzvləri və Rəyasət Heyəti aparatının məsul şəxsləri ümummilli lider Heydər Əliyevin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, Azərbaycan Respublikasının Əməkdar elm xadimi, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 103-cü ildönümü münasibətilə Fəxri xiyabanda məzarını ziyarət ediblər.**

AMEA nümayəndələri ulu öndər Heydər Əliyevin və akademik Zərifə xanım Əliyevanın məzarları önünə gül dəstələri düzüb, əziz xatirələrini ehtiramla yad ediblər.



*

**Həmin gün Səhiyyə Nazirliyinin rəhbərliyi də Azərbaycan oftalmologiya elminin görkəmli nümayəndəsi, Milli Elmlər Akademiyasının bu sahədə ilk akademiki, tibb tarixində adı əbədiləşmiş fədakar alim, qayğıkeş insan Zərifə Əliyevanın anadan olmasının 103 illiyi münasibətilə onun əziz xatirəsini böyük ehtiramla yad edib.**

Səhiyyə naziri Teymur Musayev və nazirliyin rəhbərliyi əvvəlcə Fəxri xiyabanda xalqımızın ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin məzarı önünə gül dəstələri qoyublar.

Daha sonra akademik Zərifə Əliyevanın əziz xatirəsi ehtiramla yad edilib, məzarı önünə əklil qoyulub və tər çiçəklər düzülüb.

Həmçinin görkəmli dövlət və ictimai xadim Əziz Əliyevin, istedadlı həkim Tamerlan Əliyevin məzarları üzərinə də çiçəklər qoyulub.

*XQ*

# İdeallaşmış Azərbaycan qadını

**Dünən Prezident Kitabxanasında Əməkdar elm xadimi, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 103-cü ildönümünə həsr olunmuş tədbirdə tanınmış elm və mədəniyyət xadimləri, dövlət rəsmiləri və akademikin ailə üzvləri iştirak ediblər.**



Mərasimi giriş sözü ilə açan Prezident Kitabxanasının direktoru, professor Afət Abbasova akademik Zərifə Əliyevanın Azərbaycan tibb elminin inkişafındakı müstəsna xidmətlərindən bəhs edib. Direktor çıxışında Zərifə xanımı minlərlə insanın qaranlıq dünyasına nur bəxş edən şəxsiyyət kimi səciyyələndirib.

Daha sonra Zərifə xanım Əliyevanın zəngin ömür yolunu və elmi fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

Prezident Kitabxanasında akademikə həsr olunmuş elektron layihə, virtual sərgi və ənənəvi kitab sərgisi də hazırlanıb.

Məclisdə Zərifə xanım Əliyevanın ailə üzvü Lalə Cəfərova, yazıçı-publisist Şərəf Cəlilli, tarix üzrə fəlsəfə doktoru, AMEA Tarix və Etnologiya İnstitutunun şöbə müdiri Cəbi Bəhramov, tarix üzrə fəlsəfə doktoru, Nigar Axundova, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivinin direktoru Elmira Ələkbərova, Əməkdar jurnalistlər Tahir Talıblı və İttifaq Mirzəbəyli çıxış edərək akademikin elmi irsi və ictimai fəaliyyəti haqqında öz fikirlərini bölüşüblər. Tədbirdə alimin zəngin fəaliyyətinin və nəcib şəxsiyyətinin unudulmaz bir nümunə olduğu diqqətə çatdırılıb.

*XQ*

# Akademikin adını daşıyan məktəbdə anım mərasimi

**Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın adını daşıyan Kəngərli rayon Şahtaxtı kənd tam orta məktəbində onun anadan olmasının 103-cü ildönümü ilə bağlı tədbir keçirilib.**



İştirakçılar görkəmli akademikin məktəbin foyesindəki büstü önünə gül dəstələri düzüb, alimin həyat və fəaliyyətini əks etdirən muzeylə tanış olublar.

Mərasimdə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Elxan Nəcəfov və Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov dünyaşöhrətli alimin Azərbaycan tibb elminin inkişafındakı fəaliyyətindən və oftalmologiya sahəsində qazandığı nailiyyətlərdən bəhs ediblər. Qeyd olunub ki, alimin elmi-pedaqoji və ictimai fəaliyyəti həkimlərin yeni nəslinin yetişməsinə və Azərbaycanda oftalmologiya elminin inkişafına güclü təsir göstərib.

Sonra məktəbin müəllimi Vüsalə Kazımovanın akademik Zərifə Əliyevanın əziz xatirəsinə həsr etdiyi "İşığlı irs" adlı interaktiv layihə və görkəmli oftalmoloq-alimin həyat və fəaliyyətindən bəhs edən film nümayiş olunub.

*XQ*

# Nurlu xatirələrdə yaşayan insan





**Dünən Nəsimi Rayon İcra Hakimiyyəti, Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatı və Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının birgə təşkilatçılığı ilə Azərbaycanın görkəmli təbabət alimi, Əməkdar elm xadimi, akademik Zərifə Əziz qızı Əliyevanın anadan olmasının 103-cü ildönümünə həsr olunmuş "Bir ömrün işığında: insanlığa xidmətin ali nümunəsi" mövzusunda xatirə mərasimi keçirilib.**

Məclisdə YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri, Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Tahir Budaqov bildirib ki, Zərifə xanım Əliyevanın həyat yoluna nəzər saldıqda yalnız fədakar bir alimin deyil, eyni zamanda, zəngin mənəviyyata malik nümunəvi bir şəxsiyyətin obrazı canlanır: "Onun həyat fəlsəfəsi elmə sədaqət, insanlığa xidmət və milli-mənəvi dəyərlərə bağlılıq prinsiplərini özündə təcəssüm etdirir. Zərifə xanım Əliyevanın elmi nailiyyətləri günümüzdə də aktuallığını qorumaqla, müasir tibbin inkişafına dəyərli töhfələr verməkdə davam edir. Nümunəvi pedaqoq olan Zərifə xanım Əliyevanın yetişdirdiyi kadrlar bu gün Azərbaycanda və ölkə hüdudlarından kənarda uğurla fəaliyyət göstərirlər".

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti, professor Fərhad Bədəlbəyli çıxışında bildirib ki, fədakarlığına, xeyirxahlığına və yüksək intellektinə görə insanların dərin hörmət və məhəbbətini qazanmış Zərifə xanım Əliyeva böyük ziyalı, işıqlı, nurlu şəxsiyyət idi.

Bakı Musiqi Akademiyasının professoru, Xalq artisti, general-mayor Yusif Axundzadə bildirib ki, Zərifə xanım Əliyeva bənzərsiz, işıqlı bir ömür yaşayıb. Bu işıqdan hamıya - ailəsinə, əhatəsində olan hər kəsə, gözünün nurunu itirmiş insanlara pay çatırdı. Onun ömür yolu parlaq səhifələrlə zəngindir.

Bakı Musiqi Akademiyasının dosenti, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Zərifə Əliyevanın bacısı qızı Ayəndə Adilova qeyd edib ki, Zərifə xanım Əliyeva yüksək insani keyfiyyətləri ilə Azərbaycan qadınının ideal obrazını yaradıb. Oftalmologiya elminə verdiyi töhfələrlə yanaşı, insanpərvərliyi ilə də seçilən Zərifə xanımın həyat yolu bizim üçün parlaq nümunədir.

Mərasim bədii hissə ilə davam edib.

*T.RÜSTƏMLİ*
*XQ*

*Dövlət mükafatına təqdim edilib*

# İraq türkmanlarının bədii söz xəzinəsi

**Görkəmli ədəbiyyatşünas, İraq–Türkman ədəbiyyatının fədakar araşdırıcısı, Əməkdar elm xadimi Qəzənfər Paşayev 1962-ci ildə diplomatik xətlə İraq Respublikasına işə göndəriləndə, böyük şairimiz Məhəmməd Füzulinin mənəvi varisləri ilə canlı təmaslar quranda cəmi 25 yaşı var idi. Gənc olmasına baxmayaraq, İraq-Türkman folklorunun – ulu babaların ruhundan süzülüb gələn mənəvi incilərin sevdalısına çevrilib, bu zəngin xəzinəni dərindən öyrənib geniş tanıtmaqla Türk dünyasında məşhurlaşıb.**




Sonrakı illərdə Qəzənfər Paşayev "Kərkük dialektinin fonetikası", "İraq – Türkman folklorunun janrlar sistemi" adlı dissertasiyalar müdafiə edərək fəlsəfə doktoru və elmlər doktoru dərəcələrinə layiq görülüb. Onun topladığı, tərtib etdiyi və çapa hazırladığı "Kərkük bayatıları", "Kərkük mahnıları", "Kərkük tapmacaları", "İraq – Kərkük atalar sözləri", Kərkük folkloru antologiyası", "Arzu – Qənbər dastanı" və digər kitabları professorun Kərkük folklorşünaslığına ləyaqətli, sevgi dolu xidmətinin gerçək göstəricilərdir.

Professor Qəzənfər Paşayevin leksikonunda Kərkük məfhumu yalnız bir şəhərin adı, məkanı, ünvanı olmaqdan daha böyük tarixi-mənəvi rəmzi əks etdirən anlayışdır. Kərkük – Yaxın Şərq sivilizasiyasının Qala-dövlət abidəsi olmaqla yanaşı, böyük türk millətinin İraqda yaşayan bəlli bir kəsiminin etnik mənsubiyyətinin, milli kimliyinin sinonimi statusunda mühüm tarixi önəm daşıyır. "Kərkük folkloru" dedikdə İraq miqyasında, Kərkük arealında min illərdən bəri yaşayıb-yaradan türkmanların mənəvi sərvətləri nəzərdə tutulur.

Məhz bu qədim və zəngin mənəvi sərvətlərin təməli üzərində ilk dəfə filologiya elmləri doktoru, professor Qəzənfər Paşayevin və onun gənc, istedadlı yetirməsi, mənəvi varisi, filologiya üzrə fəlsəfə doktoru Orxan İsayevin yazdıqları "İraq–Türkman ədəbiyyatı tarixi" (2025, 352 s.) adlı monumental əsər yaranmışdır. Zəngin və nadir mənbələr, az məlum olan materiallar, arxiv sənədləri əsasında yazılmış bu ədəbiyyat tarixinin redaktorları, kərküklü elm adamları, tanınmış ziyalılardan doktor Mustafa Ziya və doktor Şəmsəddin Kuzəçidir.

Akademik İsa Həbibbəylinin elmi qənaətlərinə əsasən, "Azərbaycan dünya kərkükşünaslığının əsas mərkəzidir. Bu qədim türk yurdu haqqında Türkmanelidən də çox Azərbaycanda tədqiqatlar aparılmış, kitablar və məqalələr çap olunmuşdur... Hələ keçmiş sovet hakimiyyəti illərində və müstəqilliyin başlanğıc mərhələsində Azərbaycanda kərkükşünaslığın möhkəm təməlləri atılmışdır". Ədəbi-tarixi sanbalına, əhatə miqyasına görə, kərkükşünaslıq sahəsində ən uğurlu elmi iş, irəliyə doğru atılmış mühüm addım, şübhəsiz ki, respublika Dövlət mükafatına təqdim edilmiş "İraq–Türkman ədəbiyyatı tarixi" kitabıdır.

Fundamental tədqiqat işi olan "İraq–Türkman ədəbiyyatı tarixi" "Şifahi xalq ədəbiyyatı" və "Yazılı ədəbiyyat" adlı 2 bölümdən ibarətdir. Müəlliflər bu araşdırma əsərinə "Azərbaycan ədəbiyyatı tarixi"nə aid dövrləşmə mərhələlərini və metodologiyasını tətbiq etmiş, ədəbi-mədəni mühitə tam aydınlıq gətirməyi, icmal və təhlillərdə dəqiqliyə, mənbə və məxəzlərə üstünlük verməyi, ədəbi portret cizgilərində şair və ədibləri ictimai-tarixi mühit kontekstində doğru-dürüst dəyərləndirməyi bacarmışlar.

"İraq–Türkman ədəbiyyatı tarixi"nin birinci bölümünün ilk fəsli "Mərasim folkloru" ilə başlayır. Müəlliflər fəsli 2 qola ayırmışlar: ilkin və ya arxaik janrlar; xalq mərasim və nəğmələri. Kitabda ilkin janrlardan sayılan inanclar geniş təhlil olunmuş, İraq-Türkman folklorunda məişət, təbiət hadisələri, bitki və heyvanat aləmi, astral təsəvvürlər, əsatiri görüşlərlə bağlı inanclar yazılı nümunələr əsasında incələnmişdir. Kərkük folklorunun xalq mərasim və nəğmələri müəlliflər üç qismə ayırırlar: mövsüm, dini və məişət mərasim nəğmələri.

Ədəbiyyat tarixinin lirik növ adlanan 2-ci fəsli "Xoryatlar və manilər"lə başlayır. Xoryatlar Kərkükdə geniş yayılmış, milli özünəməxsusluğa malik lirik şeir janrıdır. Necə deyərlər, bizim bayatılara qan qohumluğu çatır.

*Necə dağlar,*
*Qarşıda necə dağlar...*
*Yetim yanağı bilir,*
*Göz yaşı necə dağlar.*

Müəlliflərin qənaətinə əsasən, Kərkük dolaylarında 20-dən çox xoryat üsulları mövcuddur: Bəşiri, yetimi, müxalif, qarabağlı, bayat, miskini və s. Bu adlar Azərbaycan türkünün də yaddaşını oyadan məfhumlardır. Kitabın "Xalq havaları", "Beşik nəğmələri", "Oxşamalar", "Bayatı-tapmacalar" paraqraflarında Kərkük mahnılarının xalqın bədii təfəkküründən, müdrikliyindən su içdiyi, müqəddəs inanclarından bəhrələndiyi vurğulanmışdır.

"İraq–Türkman ədəbiyyatı tarixi"nin 3-cü fəsli "Epik növ"dən başlanır. Əsərin tədqiqatçıları xalqın sevdiyi və ən çox oxunan İraq–Türkman nağıllarını mövzuya uyğun olaraq sehirli, tarixi, heyvanlar haqqında və ailə-məişət nağıllarına ayırmışlar. Xalq müdrikliyinin, təfəkkürünün nadir inciləri sayılan nağılları müəlliflər ətraflı təhlil edərək onu Kərkük folklorunun ayrılmaz tərkib hissəsi, milli-mənəvi özünəməxsusluqların yaddaş saxlancı, mədəniyyət örnəyi olaraq dəyərləndirmişlər.

Fəslin atalar sözü və məsəllər, tapmacalar, lətifələr və dastanlar paraqrafında İraq-Türkman folkloru ilə çağdaş Azərbaycan folkloru arasındakı cüzi fərqlər istisna olunmaqla dərin bağlılıq, incə ruhlu bənzəyiş, səmimi səsləşmə, süjet oxşarlığı müşahidə edilir. Kökdən, ilkinlikdən gələn mənəvi bağlılıqlar hər iki xalqın eyni soya, dilə, dinə, mədəniyyətə, ruha malik olduğunu təsdiqləyən qədim və zəngin folklor sərvətimizdir.

Monoqrafiyada aşıq yaradıcılığı və dastanlar xüsusi paraqrafda təqdim edilmişdir. XVIII yüzillikdə yaşayıb-yaratmış Aşıq Bağdadi və onun qoşmaları haqqında, eləcə də Aşıq Saqi, Kor Abıs, Aşıq Abbas, Aşıq Məhəmməd və digərləri barədə qiymətli məlumatlar, şeir nümunələri böyük maraq kəsb edir. "Koroğlu", "Arzu-Qənbər" dastanlarının Azərbaycandakı eyniadlı folklor abidələri ilə məzmun və süjet yaxınlığı monoqrafik tədqiqat işində xüsusi qabardılmış və önə çıxarılmışdır.

"İraq–Türkman ədəbiyyatı tarixi"nin "Yazılı ədəbiyyat" bölümü bir neçə fəsildən ibarətdir: "İraq–Türkman ədəbiyyatının başlanğıc mərhələsi", "XVI əsr İraq-Türkman ədəbiyyatı", "XVIII-XIX əsrlər İraq–Türkman ədəbiyyatı" və "XX-XXI əsrlər İraq-Türkman ədəbiyyatı". Ədəbiyyat tarixinin V fəsli İraq-Türkman ədəbiyyatının XVI yüzilliyini əhatə edir. Məhəmməd Füzuli öndə gəlməklə Əhdi Bağdadi, Hüşyar Dədə, Ruhi Bağdadi, Şəmsi Bağdadi, Zöhdi Bağdadi, Didar Dədə və b. həyat və yaradıcılığı icmal şəklində çox qiymətli məlumatlarla zəngindir. Müəlliflər Əhdi Bağdadinin "Gülşəni-Şüəra" təzkirəsindən də yerli-yerində faydalanmışlar.

Tədqiqat işinin VI fəslində İraq-Türkman ədəbiyyatının XVIII-XIX yüzillikləri işıqlandırılmışdır. Dövrün tanınmış şairlərindən Məhəmməd Novruzi, İsmayıl Məkki, Hüseyn Kami, Məhəmməd Nari və digərləri Osmanlı ədəbiyyatının təsiri altında divan poeziya nümunələri yaratmışlar. Klassik şeirlə xalq şeirinin qoşa qanad kimi yüksəlişində, tərəqqisində Kərkük poeziyasının yeri və rolu müstəsnadır. Heydəroğlu, Eyvazoğlu, Şeyxoğlu və b. dövrün tanınan və sevilən şairlərindən idi.

XIX yüzillikdə yazıb-yaradan şairlərdən Hacı Abdullah Safi, Mehmet Mehri (1849-1918), Şeyx Əbdürrəhman Halis, Nevres-i Salis, Əbdülqədir Faiz (1834-1897), Şeyx Rza Təlabani (1835-1910), Şeyx Məhəmməd Xalisi (1875-1923), İbrahim Haqqı Xəzani və digərləri Osmanlı ədəbi mühitinin təsiri ilə klassik və xalq şeir janrlarını inkişaf edirmiş, İraq-Türkman ədəbiyyatını zənginləşdirmişlər.

"İraq–Türkman ədəbiyyatı tarixi"nin sonuncu fəsli XX əsr və XXI yüzilliyin əvvəllərinə qədər olan böyük bir dövrü əhatə edir. Bu dövrü İraq-Türkman ədəbiyyatının çiçəklənmə dövrü də adlandırmaq mümkündür. Sərbəst şeirin ilk nümunələri yaranır, heca vəzni əruz üzərində dominantlıq edir, mətbuat orqanları yerli əhalinin maarifləndirilməsində, məktəblərin açılmasında təsiredici üstünlüklər qazanır, azad söz bədii ədəbiyyatı məfkurə və struktur baxımından polifonik platformaya daşıyır.

Ümummilli lider Heydər Əliyev dünya azərbaycanlılarınının mənəvi bütövlüyündən söz açarkən demişdir: "Tarixi araşdıranda gördüm ki, Güney Azərbaycan, Quzey Azərbaycan və İraq türkmanları bir bütövün parçalarıdır". Doğrudan da, Quzey-Güney Azərbaycan və İraq türkmanları vahid milli-mənəvi bütövlük təşkil edir. Bu zəngin xəzinədə ilk dəfə "İraq–Türkman ədəbiyyatı tarixi"ni yazmaq professor Qəzənfər Paşayevin və fəlsəfə doktoru Orxan İsayevin təbii haqqı olaraq qismətinə düşmüşdür.

Nəhayət, "İraq–Türkman ədəbiyyatı tarixi" yeni düşüncə müstəvisində yazılmış, elmi yeniliklərlə zəngin, dövrü və mühiti ədəbi proses məcrasında əhatəli, dəqiq təqdim edən elmi-tədqiqat yönümlü monoqrafiyadır. Bu əsəri elmi məziyyətlərinə görə Azərbaycan Respublikasının Dövlət mükafatına layiq hesab edirəm.

***Asif RÜSTƏMLİ,***
***filologiya elmləri doktoru, professor***

# "İRS"in milli yaddaşa töhfəsi




**Azərbaycan Mətbuat Şurasında tarix üzrə fəlsəfə doktoru, Əməkdar jurnalist, "İRS" jurnalının baş redaktoru Musa Mərcanlının rəhbərliyi ilə nəşr olunan və Azərbaycan mədəniyyətinin təbliğinə həsr edilən əsərlərin 2026-cı il Dövlət mükafatına təqdim olunması ilə bağlı müzakirə keçirilib.**



Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid bildirib ki, həmkarımızın respublika Dövlət mükafatına təqdim olunan "Azərbaycan. Yeni era", "Tükənməz xəzinə", "Şirvanşahların minilliyi", "Dirçəliş. Başlanğıc", "Daşları toplamaq vaxtıdır", "Qarabağ: yeni sətirdən" və "Şuşa. Zirvədən uca" kitabları milli-mədəni irsin, tarixi yaddaşın və müasir inkişaf mərhələsinin müxtəlif aspektlərini əhatə edir.

Bu silsilə nəşrlər publisistik baxımdan deyil, həm də milli yaddaşın qorunması və gələcək nəsillərə ötürülməsi baxımından böyük əhəmiyyət daşıyır.

Milli Məclisin deputatı Rizvan Nəbiyev bildirib ki, müzakirə edilən nəşrlər Azərbaycanın dövlətçilik tarixini, xüsusilə də müharibədən sonrakı dövrün reallıqlarını əks etdirən mühüm sənədlər kimi qiymətləndirilməlidir. Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti, Mətbuat Şurası İdarə Heyətinin üzvü Umud Mirzəyev bildirib ki, təqdim olunan kitablar bir-birini tamamlayan vahid konsepsiyanın tərkib hissəsidir. Bu nəşrlər çağdaş Azərbaycan gerçəkliyi barədə, ümumilikdə, dolğun mənzərə yaradır.

BDU jurnalistika fakültəsinin dekanı Vüqar Zifəroğlu vurğulayıb ki, bu əsərlər müasir jurnalistikanın tələblərinə uyğun olaraq hazırlanıb və fakt zənginliyi ilə seçilir və publisistik baxımdan da dəyərli mənbədir.

BDU milli mətbuat tarixi kafedrasının müdiri, professor Cahangir Məmmədli qeyd edib ki, təqdim olunan kitablar milli mətbuat tarixinin davamlılığını və inkişafını göstərən mühüm nümunələrdir. Mətbuat Şurasının üzvü, professor Qulu Məhərrəmli deyib ki, bu əsərlər dil, üslub və məzmun baxımından yüksək səviyyədə hazırlanıb və oxucuda milli kimlik hissini gücləndirir.

Mətbuat Şurası İdarə Heyətinin üzvləri Yadigar Məmmədli və Azər Həsrət, "Baku Network" analitik mərkəzinin rəhbəri Elçin Ağacanov və digər çıxış edənlər də təqdim olunan nəşrlərin Azərbaycan həqiqətlərinin təbliği, milli-mədəni irsin qorunması və beynəlxalq ictimaiyyətə çatdırılması baxımından mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıblar.

"İRS" jurnalının baş redaktoru Musa Mərcanlı diqqətə çatdırıb ki, 2026-cı il Dövlət mükafatına təqdim olunan bu nəşrlər geniş tədqiqatlara, etibarlı mənbələrə və sistemli yanaşmaya əsaslanır. Məqsəd Azərbaycanın tarixi, mədəni irsi və müasir inkişaf mərhələsinin vahid konsepsiya çərçivəsində təqdim etməkdir.

***T.AYDINOĞLU***
***XQ***

# Kitab rəfi




## "Beşmərtəbəli evin altıncı mərtəbəsi"

**Xalq yazıçısı Anarın Təhminə və Zaurun taleyindən bəhs edən kitabı yenidən nəşr olunub.**

Bu, romanın yeni variantıdır, müəllifin əlavə qeydləri var. Əsər xoşbəxtliyin yeni mərtəbələrini fəth etmək, qalxdığı uca mərtəbələri qorumaq istəyənlər üçün təsirli bir sevgi hekayəsidir. Kitabda "Beşmərtəbəli evin altıncı mərtəbəsi" romanı ilə yanaşı, müəllifin digər əsərləri, həmçinin "Təhminənin son sirri" hekayəsi yer alıb.

Baş qəhrəman Təhminə aparıcıdır, Zaur isə ziyalı ailəsindən olan və özünü hələ də təsdiq etməmiş bir gəncdir. Təhminənin yeganə qorxusu Zaurun qalxdığı o mərtəbə ilə geri dönməsi idi. Çünki onların sevgisi imkansız görünürdü. Lakin imkansız olan sevgi hekayəsi yox, cəmiyyətin dəyişməyən maneələri, "olmaz"larıdır. "Beşmərtəbəli evin altıncı mərtəbəsi" təsdiq olunmadığı kimi, Zaur özünü təsdiq edə, cəmiyyət də onların sevgisini öz qoynuna ala bilmir.

Roman rus, özbək, qazax dillərinə tərcümə olunub, Polşa, Macarıstan və Bolqarıstanda ayrıca kitab kimi nəşr edilib. 90-cı illərdə əsərin motivləri əsasında 2 dramatik film də çəkilib.

## "Dil, kimlik, vətən"

**Türkiyədəki Qazi Universitetindəki Azərbaycan Türkcəsi Tədris Ocağının rəhbəri, tədqiqatçı Şəhla Aslanın "Dil, kimlik, vətən" adlı yeni elmi-tədqiqat əsəri nəşr edilib.**




Müəllifin sayca 4-cü olan bu kitabında görkəmli ictimai-siyasi xadim, Xalq şairi Sabir Rüstəmxanlının yaradıcılığındakı milli varlıq konsepsiyası elmi-nəzəri müstəvidə araşdırılıb.

Sabir Rüstəmxanlının poeziyası, publisistikası və ictimai düşüncələri əsasında ana dilinin milli kimlik, tarixi yaddaş və dövlətçilik şüuru ilə bağlılığı sistemli şəkildə təhlil olunan kitabda dilin yalnız ünsiyyət vasitəsi deyil, həm də millətin mənəvi bütövlüyünü qoruyan, milli özündərkin əsas sütunlarından biri olduğu vurğulanıb.

"Dil, kimlik, vətən" kitabının ön sözünün müəllifi akademik Nizami Cəfərovdur. O, əsəri son illərdə Azərbaycan türkcəsi və milli düşüncə ilə bağlı qələmə alınmış ən sanballı tədqiqatlardan biri kimi dəyərləndirərək bu nəşrin geniş maraq doğuracağına əminliyini ifadə edib.

Yeni nəşr Xalq şairi Sabir Rüstəmxanlının 80 illik yubileyinə həsr olunub.

## "Kəndə gün çıxanda qayıdacağıq"




**Müasir müharibə hekayələrini bir araya gətirən xüsusi antologiya belə adlanır. Bu kitab müharibənin yalnız cəbhədə deyil, insan talelərində, xatirələrdə və ümidlərdə necə iz buraxdığını hekayələr vasitəsilə oxucuya çatdırır.**

Müəlliflər arasında Rafiq Tağı, Orxan Fikrətoğlu, Elçin Hüseynbəyli, Seymur Baycan, Nərmin Kamal kimi tanınmış yazıçılardan tutmuş ən gənc qələm sahiblərinə qədər 20-dən artıq imza yer alıb.

Kitabın tərtibçisi və baş redaktoru Şərif Ağayardır. Hekayələr itirilən yurdların ağrısını, qayıdış arzusunu və insan ruhunun gücünü əks etdirir. Hər bir hekayədə müharibənin ilk baxışda görünməyən tərəflərindən – gözləntilər, ayrılıqlar və ümidlərdən bəhs olunur.

***Hazırladı:***
***Əli NƏCƏFXANLI***
***XQ***

# Azərbaycan – BƏƏ iqtisadi əməkdaşlığı genişlənir



**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Qəbələ şəhərində Birləşmiş Ərəb Əmirliklərinin Xarici İşlər Nazirliyinin Dövlət naziri Səid bin Mübarək Əl-Hacirinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Görüş zamanı Azərbaycan ilə BƏƏ arasında mövcud dostluq və strateji tərəfdaşlıq münasibətlərinin inkişaf perspektivləri geniş müzakirə olunub.

Tərəflər siyasi dialoqun yüksək səviyyəsini məmnunluqla qeyd edərək iqtisadiyyat, ticarət, investisiyalar, enerji (o cümlədən bərpaolunan enerji), nəqliyyat və logistika, yüksək texnologiyalar, təhsil və s. sahələrdə əməkdaşlığın genişləndirilməsi imkanlarını nəzərdən keçiriblər.

C.Bayramov Azərbaycanın əlverişli investisiya mühiti və regionda həyata keçirilən iri infrastruktur layihələri barədə ətraflı məlumat verib, BƏƏ şirkətlərinin ölkəmizdə həyata keçirilən layihələrdə iştirakının əhəmiyyətini vurğulayıb.

***XQ***

*29 Aprel Beynəlxalq Rəqs Günüdür*

# Milli ruhumuzun minilliklərdən gələn ritmləri

*Rəqslərimiz gözəlliyi, çevikliyi və təntənəsi ilə ömrümüzə nur saçır*

**Bəzən musiqi, söz, rəqs insanın ifadə edə bilmədiyi duyğuların dilinə çevrilir, bir araya gəldikdə isə daha təsirli, dərin məna daşıyır. Rəqs hisslərin bədən dili ilə ifadəsidir, zərif rəqs kompozisiyalarında göz önündə canlanan obraz insanın daxili dünyasının poetik təcəssümüdür. Bəstəkarın notlara köçürdüyü duyğular xüsusi bir ahəng yaradır. Şairin lirik misraları musiqiyə əlavə məna qatır, ifaçının yanıqlı səsi isə bu hissləri rəqqas vasitəsilə tamaşaçıya ötürür. Bu zaman səhnədə bir hekayə yaranır, rəqs, musiqi və poeziyanın sintezi insan ruhunun ən incə qatlarına toxunan sənət nümunəsinə çevrilir.**



Tarix boyu insan hiss, düşüncə, sevinc və kədərini sözlə ifadə etməzdən əvvəl hərəkətlə, ritmlə anlatmağa çalışıb. Rəqs xalqın yaddaşı, yaşam tərzi və mənəvi dünyasının aynasıdır. Xalqımızın mədəni irsində də rəqs sənəti xüsusi yer tutur və tarixi minilliklərə söykənir. İnsanların kollektiv şəkildə bir araya gələrək bir-biri ilə ünsiyyət qurması, müəyyən mesajlar ötürməsi, ov və mərasimlərdə ritmik hərəkətlərdən istifadə etməsi rəqsin ilkin formaları hesab olunur. Xüsusilə eramızdan əvvəl II–III minilliklərdə, Tunc dövründə Azərbaycan ərazisində rəqs insanların gündəlik həyatında və mərasimlərində mühüm yer tutub. Bunun ən bariz nümunələrindən biri Qobustan qayaüstü rəsmlərində kollektiv rəqs səhnələridir.

Mütəxəssislər bildirirlər ki, musiqi alətləri meydana gəlməzdən əvvəl insan hiss və duyğularını müxtəlif hərəkətlərlə - əl çalmaları, ayaq zərbələri, müxtəlif səslərlə bildirib. Zaman keçdikcə ilkin rəqs formaları təkmilləşərək xalq rəqslərinə və milli folklorumuzun ayrılmaz hissəsinə çevrilib. Məsələn, "Yallı" rəqsi birlik və həmrəyliyi, "Cəngi"döyüş ruhunu, qəhrəmanlığı və gücü simvolizə edir. "Uzundərə" zəriflik və incəliyi, "Tərəkəmə" isə köçəri həyat tərzini özündə yaşadır. "Vağzalı" toy, "Naznazı" isə incə qadın zərifliyini əks etdirir, "Qaytağı" çevikliyi və dinamikanı ön plana çıxarır, "Turacı" poetik və emosional çalarlarla zəngindir.

Azərbaycan rəqs sənətinin inkişafında dahi Üzeyir Hacıbəylinin xidmətləri danılmazdır. Onun təşəbbüsü ilə yaradılan Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı milli musiqi və rəqs mədəniyyətinin dünyaya təqdimatında mühüm missiya daşıdı və bu gün də həmin ənənəni davam etdirir. Azərbaycan rəqs məktəbinin inkişafında böyük xidmətləri olan sənətkarlar bu irsi daha da zənginləşdiriblər. Əminə Dilbazi milli rəqsin klassik məktəbinin əsas simalarından biri kimi xalq rəqslərinin səhnə estetikasını formalaşdırıb, Afaq Məlikova milli rəqsin peşəkar səhnə interpretasiyasına yeni nəfəs gətirib, Roza Cəlilova, Təranə Muradova, Tamilla Məmmədova, Böyükağa Məmmədov və Kamil Dadaşov kimi sənətkarlar öz ifaları ilə milli rəqsin texniki imkanlarını genişləndirib, emosional ifadə gücünü artırıblar. Bu gün beynəlxalq festivallarda nümayiş olunan milli rəqslərimiz xalqımızın mədəni kimliyini dünyaya tanıdır.

**Bakı Xoreoqrafiya Akademiyasının milli rəqs tədrisi müəllimi, xoreoqraf, Əməkdar artist Elçin Allahverdiyev bildirdi ki, rəqs bizim üçün xalqımızın tarixini, yaşam tərzini, birlik ruhunu və milli kimliyini özündə yaşadan qədim irsdir:**

– Musiqimiz necə keçmişimizin yaddaşıdırsa, rəqslərimiz də həmin yaddaşın hərəkətə çevrilmiş formasıdır. Azərbaycan rəqslərinin tarixi çox qədim dövrlərə gedib çıxır. Bu sənətin köklərini araşdırarkən ilk dayanacaq məhz Qobustan Dövlət Tarix-Bədii Qoruğu olur. Qobustan qayaüstü rəsmlərində təsvir olunan kollektiv hərəkətlər sübut edir ki, qədim insanlar hələ minilliklər əvvəl ritmik hərəkətlərdən istifadə ediblər.

Tarixi mənbələr göstərir ki, qədim dövrlərdə yallının müxtəlif formaları olub. Bayram münasibətilə ifa edilən yallılar sevincin, məhsul yallıları bolluq və bərəkətin qeyd olunması üçün icra edilirdi. Döyüş yallıları isə qəbilələrin gücünü, döyüş əzmini və həmrəyliyini göstərirdi. İnsanlar məhsul yığımı zamanı, qələbə qazandıqda və ya mühüm mərasimlərdə od ətrafında əl-ələ tutaraq ritmik hərəkətlərlə öz hisslərini ifadə edirdilər. Zaman keçdikcə, bu sadə kollektiv hərəkətlər Azərbaycanın musiqi mədəniyyətinin inkişafı ilə paralel olaraq püxtələşdi, hər bölgənin özünəməxsus ritmi, hərəkət sistemi və estetikası formalaşdı.

Milli rəqslərimizin peşəkar səhnə forması XX əsrin əvvəllərində daha sistemli şəkildə inkişaf etməyə başlayıb. Bu sahədə görkəmli xoreoqraf Əlibaba Abdullayev xüsusi rol oynayıb, Azərbaycan milli rəqslərinin səhnələşdirilməsi, qorunması və gələcək nəsillərə ötürülməsi istiqamətində mühüm işlər görüb.



Azərbaycanın rəqs folklorunun zənginliyi onun regional müxtəlifliyində də özünü göstərir. Naxçıvan Muxtar Respublikası xüsusilə yallı mədəniyyəti ilə seçilir. Şərur bölgəsində yüzdən artıq yallı növünün mövcudluğu bu ənənənin nə qədər zəngin olduğunu göstərir. "Köçəri", "Tənzərə", "Üçayaq", "Dördayaq" və "El yallısı" kimi rəqslər bu bölgənin qədim kollektiv rəqs mədəniyyətinin daşıyıcılarıdır. Lənkəran və ətraf bölgələrdə yayılan "Halay", "Tello", "Laqqutu" və "Şalaxo" kimi rəqslər burada formalaşan ritmik və kollektiv rəqs nümunələridir. Xüsusilə çubuqlarla ifa olunan "Laqqutu" rəqsi öz fərqliliyi ilə seçilir.

**Müsahibimiz qeyd etdi ki, Azərbaycanın şimal bölgələrində yayılmış avar rəqsləri isə daha çevik, dinamik və ritmik xarakter daşıyır:**

– Qarabağ bölgəsinin rəqsləri isə emosional dərinliyi və musiqi zənginliyi ilə seçilir. Qazax bölgəsinə məxsus "Qazağı" rəqsi öz temperamentli və enerjili quruluşu ilə tanınır. Şəki bölgəsində isə "Zorxana" və digər yerli rəqs nümunələri xalqın fiziki gücünü və çevikliyini nümayiş etdirir.

Azərbaycan milli rəqslərində kişi və qadın obrazları fərqli xarakterik xüsusiyyətlərlə seçilir. Bu fərqlər təkcə hərəkət texnikasında deyil, həm də obrazın fəlsəfəsində, səhnədə təqdimat formasında özünü göstərir. Kişi rəqslərində əsas xətt güc, mərdlik, cəsarət və qürurun nümayişidir.

Milli kişi rəqslərinin ən bariz nümunələrindən biri "Cəngavərlər" oyunudur. Bu rəqs qədim döyüş mədəniyyətimizin səhnədəki bədii təcəssümüdür. "Qazağı" rəqsi də kişi xarakterinin parlaq nümunələrindəndir. "Zorxana" isə fiziki gücü və pəhləvanlığı nümayiş etdirir. "Qaytağı" və "Bəy" rəqsləri isə daha çox kişinin qamətini, vüqarını və bəy duruşunu nümayiş etdirir. "Uzundərə" xüsusi rəqslərdən biridir. Bu rəqs həm kişi, həm də qadın tərəfindən ifa oluna bilir.

**Qadın rəqslərində isə tamamilə fərqli estetik xəttin müşahidə olunduğunu vurğulayan rəqqas söylədi ki, burada əsas məqam incəlik, zəriflik, həssaslıq və daxili emosiyaların plastik hərəkətlərlə ifadəsidir:**

– Azərbaycan qadın rəqslərində hər bir əl hərəkəti, barmaq oyunu, baxış və bədən plastikasının öz adı və mənası var. Qadın rəqslərinin əsas texniki elementləri "süzmə", "sürmə" və "sındırma" hərəkətləridir. Bu hərəkətlər qadının zərifliyini, hiss dünyasını və estetik gözəlliyini ifadə edir.

"Bahar" rəqsi yenilənmənin, təravətin və təbiətin oyanışının simvolu, "Nəlbəki" rəqsi isə xüsusi ustalıq tələb edən incə rəqs növlərindəndir. "Şalaxo" və digər qadın rəqslərində də qadının incə xarakteri, emosional zənginliyi və estetik duruşu özünü göstərir.

Azərbaycan milli rəqslərinin fəlsəfəsi çox dərindir, burada xalqın tarixi, qəhrəmanlığı, sevgisi, kədəri və qüruru yaşayır. Rəqqas səhnəyə çıxanda yalnız özünü yox, bütöv bir xalqı təmsil edir.

Hər il 29 aprel dünyada Beynəlxalq Rəqs Günü kimi qeyd olunur. Bu tarix rəqs sənətinin bəşəriyyətin mədəni həyatında tutduğu mühüm yeri xatırlatmaq, bu sahədə çalışan sənət adamlarının əməyini qiymətləndirmək və rəqsin cəmiyyətə təsirini vurğulamaq məqsədi daşıyır. Azərbaycanda da bu gün xüsusi qeyd edilir və həm peşəkar, həm də həvəskar rəqqaslar üçün əlamətdar bir bayrama çevrilir.

Azərbaycan xalqı tarixən şadyanalığı, birliyi və kollektiv sevinci sevən xalq olub. Xalq toyları, el şənlikləri və bayram mərasimləri bunun ən bariz nümunəsidir. Elə bir toy məclisi yoxdur ki, orada insanlar rəqs etməsin, hətta peşəkar olmayanlar belə öz daxili ritmləri ilə rəqsə qoşulurlar. Rəqsə yalnız sənət kimi baxmaq onun mahiyyətini tam ifadə etmir, bu həm də elmdir.

Riyaziyyat rəqsin əsas strukturunu təşkil edir, çünki burada hər bir hərəkətin müəyyən sayı, ritmi və ardıcıllığı var. Rəqsdə hərəkətlərin müəyyən sistem üzrə qurulması onu sanki bir hesablama mexanizminə çevirir. Hesab ilə yanaşı, həndəsə də rəqsdə mühüm rol oynayır. Səhnə kompozisiyalarında düz xətlər, dairələr, üçbucaqlar və müxtəlif bucaqlar rəqsin vizual harmoniyasını yaradır.

Bu sənətlə uzun illər məşğul olan müəllimlər üçün rəqs həyat tərzidir. İllərlə yetişdirilən gənc rəqqaslar, öyrədilən hərəkətlər və formalaşdırılan səhnə mədəniyyəti gələcək nəsillərə ötürülən böyük bir irsdir. Müəllim üçün hər bir qrupla işləmək yeni enerji deməkdir. Tələbələrin inkişafını görmək, onların hərəkətləri mənimsəməsi və səhnəyə hazırlanması böyük mənəvi məmnunluq yaradır.

**Elçin müəllim sonda bildirdi:**

– Bəzən məşq prosesi o qədər maraqlı və yaradıcı keçir ki, zaman anlayışı itib gedir. Bir saatlıq planlaşdırılan məşq bir neçə saat davam edə bilir. Çünki rəqs insanı öz içinə çəkən və ona xüsusi enerji verən dünyadır. Bu sənət insanı gümrah saxlayır, musiqi, hərəkət və fiziki aktivliyin vəhdəti insan sağlamlığına müsbət təsir edir, onu daha canlı və enerjili edir.

Bu gün gənclərin milli rəqslərimizə maraq göstərməsi olduqca vacibdir. Valideynlərin övladlarını peşəkar rəqs müəllimlərinin dərnəklərinə yönləndirməsi onların həm fiziki inkişafına, həm də milli mədəniyyətimizi daha dərindən mənimsəməsinə kömək edir. Gənclər musiqimizin, rəqslərimizin və hərəkətlərin fəlsəfəsini öyrəndikcə milli kimliklərini daha yaxşı anlayırlar.

29 Aprel Beynəlxalq Rəqs Günü bu sənətin dəyərini bir daha xatırladan əlamətdar gündür. Bu gün münasibətilə rəqs sənətinə könül verən hər kəsi təbrik etmək, onların əməyinə dəyər vermək və milli irsimizə sahib çıxmaq hər birimizin borcudur. Çünki rəqs yaşayan tarixdir və bu tarixin ritmi heç vaxt dayanmayacaq.

**Gənc rəqqasə, Bakı Xoreoqrafiya Akademiyasının 3-cü kurs tələbəsi Fatimə Şaxtaxtinskaya dedi ki, 8 ildir sənət təhsili alır:**

– Kiçik yaşlarımdan rəqsə maraq göstərmişəm. Rəqsdə hisslərin, ritmin və estetik plastikanın bir araya gəlməsi məni tamamilə fərqli bir dünyaya apardı.

İlk dəfə səhnəyə çıxanda yaşadığım hissləri sözlə ifadə etmək çətindir. Məhz o an anladım ki, səhnə özümü ən rahat və ən doğru ifadə edə bildiyim məkandır. Davamlı məşqlər, səhnə təcrübəsi və qazandığım uğurlar göstərdi ki, rəqs mənim üçün, sadəcə, maraq və ya hobbi deyil, həyatımın ayrılmaz hissəsidir. Bu yol ciddi intizam, səbir və davamlı zəhmət tələb edir. Bəzən çətin olsa da, əldə etdiyim nəticələr və inkişafımı görmək bütün zəhmətin qarşılığını verir.



Müsahibimizin məqsədi milli rəqslərimizi beynəlxalq səhnələrdə təqdim etmək, mədəniyyətimizi və rəqs sənətimizi dünyaya tanıtmaqdır. Uğur olsun.

Azərbaycan mədəniyyətinin dünyaya çıxışı ildən-ilə genişlənir. Milli rəqslərimiz də xalqımızı dünyada layiqincə tanıdır.

***Ləman TƏHMƏZ***
***XQ***

# Qərbi Balkanlar geosiyasi gerçəklik müstəvisində



**Nizami Gəncəvi Beynəlxalq Mərkəzi "Friends of Western Balkans" İnstitutu ilə əməkdaşlıq çərçivəsində aprelin 27-28-də Sloveniyanın Lyublyana şəhərində 36-cı Ali Səviyyəli Toplantısını təşkil edib.**

"Qərbi Balkanlar yeni təhlükəsizlik geosiyasətinin burulğanında" mövzusuna həsr edilən tədbirdə sabiq dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların nümayəndələri, xüsusi elçilər, siyasətçilər və nüfuzlu ekspertlər iştirak ediblər.

Toplantıda Sloveniyanın Prezidenti Nataşa Pirts Musar da iştirak edərək Qərbi Balkanlarda mövcud vəziyyət və regionun gələcəyi ilə bağlı fikirlərini bölüşüb.

Tədbirin açılış mərasimində Sloveniyanın sabiq Prezidenti, "Friends of Western Balkans" İnstitutunun təsisçisi və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü Borut Pahor, eləcə də mərkəzin digər üzvləri – Xorvatiyanın sabiq Prezidenti Kolinda Qrabar-Kitaroviç və Serbiyanın sabiq Prezidenti Boris Tadiç çıxış edərək Qərbi Balkanlar üçün siyasi sabitlik, təhlükəsizlik və Avropa perspektivinin əhəmiyyətini vurğulayıblar.

Tədbirdə, həmçinin Avstriya, Fransa, İtaliya, Böyük Britaniya və Almaniyanın Qərbi Balkanlar üzrə nümayəndələri iştirak ediblər. Bununla yanaşı, Albaniya parlamentinin spikeri də toplantıya qatılıb.

Toplantı çərçivəsində keçirilən sessiyalarda yeni təhlükəsizlik geosiyasətinin Avropa İttifaqının gələcəyinə və genişlənmə prosesinə təsiri, region ölkələrinin siyasi, iqtisadi və təhlükəsizlik vəziyyəti geniş şəkildə müzakirə olunub. Bununla yanaşı, NATO və Avropa İttifaqının genişlənməsinin regionun sabitliyi üçün rolu, eləcə də ABŞ, Rusiya, Çin və Türkiyə kimi xarici aktorların Qərbi Balkanlardakı təsiri ətrafında fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, tədbir çərçivəsində ilk dəfə olaraq Qərbi Balkan ölkələrinin hər biri üzrə ayrıca müzakirələr təşkil olunaraq onların Avropa İttifaqına üzvlük prosesində əldə etdikləri irəliləyişlər və mövcud çətinliklər daha dərindən təhlil edilib.

Tədbir çərçivəsində mərkəzin baş katibi Sloveniya Respublikasının Prezidenti, Albaniya parlamentinin spikeri, Slovakiya Prezidentinin xarici məsələlər üzrə müşaviri və Borut Pahor ilə ikitərəfli görüşlər keçirib.

***XQ***

*Yaşar Rzayev – 85*

**Dünən Azərbaycan Yazıçılar Birliyinin (AYB) Natəvan zalında tanınmış yazıçı-publisist, ədəbiyyatşünas alim, keçmiş dövlət qulluqçusu Yaşar Rzayevin 85 illik yubileyinə həsr olunmuş toplantı keçirildi. Tədbirdə çox sayda yazıçı və şairlər, tənqidçi və ədəbiyyatşünaslar, yubilyarın doğmaları, yaxın dostları və media mənsubları iştirak edirdilər.**

# Lənkəran ədəbi mühitinin istedadlı yetirməsi



AYB-nin katibi Səlim Babullaoğlu Yaşar Rzayevi qurumun rəhbərliyi adından təbrik etdi, ona yeni yaradıcılıq uğurları və möhkəm cansağlığı arzuladı.

Tənqidçi Əsəd Cahangir bildirdi ki, Azərbaycan ictimaiyyəti Yaşar Rzayevi uzun illər Lənkəranda rəhbər vəzifələrdə çalışmış yaradıcı ziyalı kimi tanıyır. Onun bir ayağı idarəçilikdə, o biri daim ədəbiyyatda olub. Yazıçı-daramaturq Hüseynbala Mirələmov, nasir Seyran Səxavət, şair Ağacəfər Həsənlli Yaşar Rzayevin nəcib insani keyfiyyətlərindən ürək dolusu söz açdılar, onunla uzun illər davam edən şəxsi dostluq münasibətlərindən qürur duyduqlarını söylədilər.

Türk Ağsaqqalları Birliyinin sədri, AMEA-nın müxbir üzvü, tibb elmləri doktoru Sudeyf İmamverdiyev isə çıxışında qeyd etdi ki, Yaşar Rzayev milli dövlətçiyimizə qəlbən bağlı olan, olduqca dəyərli vətənpərvər ziyalıdır. O, respublika parlamentində 1991-ci il avqustun 30-da Azərbaycanın müstəqilliyi haqqında Bəyanata, həmin il oktyabrın 18-də Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktına imzasını qoyan deputatlardandır. 1995-2000-ci illər ərzində Azərbaycan Respublikası Milli Məclisinin deputatı kimi fəaliyyət göstərib.

Bildirdi ki, 1993-cü ilin Lənkəran hadisələri zamanı Yaşar Rzayev yüksək siyasi səbat və vətənpərvərlik nümunəsi göstərmişdir. O, bütün həyatı boyu milli dövlətçiliyimizin möhkəmlənməsinə, ulu öndər Heydər Əliyev ideyalarına sədaqətlə xidmət etmişdir.

AYB-nin Lənkəran filialının rəhbəri, şair Qafar Cəfərli qeyd etdi ki, Yaşar Rzayev yüksək mənəviyyat adamı, çox ləqayətli və vicdanlı şəxsiyyətdir. Professor Vaqif Yusifli isə dedi ki, ötən əsrin 60-cı illərində ədəbiyyata yeni nəfəs gətirən yazarlardan söz düşəndə Yaşar Rzayevin də adı ilk sıralarda çəkilir: "Təəssüf ki, o, çox yazmayıb, amma nə yazıbsa, yaxşı yazıb, ürəkdən yazıb. Onun orijinal, təsirli, yaddaqalan yazı üslubu var. Onun qələmindən çıxan bədii və publisistik əsərləri unutmaq çətindir".

Lənkəran Dövlət Universitetinin professoru Yadulla Ağazadə Yaşar Rzayevi həm də ədəbiyyatşünas kimi dəyərləndirdi. Qeyd etdi ki, yubilyar "Milli azadlıq şüurunun formalaşmasında Azərbaycan ədəbiyyatının rolu" (1960-1980-ci illərdə) mövzusunda namizədlik və "Azərbaycan romanı siyasi-ideoloji proseslər və milli-mənəvi ideallar kontekstində (1930-1950-ci illər)" adlı doktorluq dissertasiyaları da müdafiə edib. Yaşar Rzayev 5 bədii kitabın, 45-dən çox elmi əsərin 200-ə qədər məqalə, oçerk, resenziya və tərcümənin müəllifidir.

***Əlisəfa HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

# İnnovativ mühitdə yeni nəslin texnoloji tərbiyəsi

**Qloballaşan dünyada ölkələrin inkişafı, ilk növbədə, texnoloji imkanlarla müəyyən olunur. Rəqəmsallaşmanın həyatın bütün sahələrinə nüfuz etdiyi, peşə bacarıqlarının sürətlə yeniləndiyi müasir dövrdə orta məktəblərdə texnologiya fənninin yüksək səviyyədə tədrisi şagirdlərdə funksional düşüncə, problem həlletmə bacarıqları, yaradıcılıq və innovativ yanaşma formalaşdıran əsas istiqamətlərdəndir. Xüsusilə, STEM və STEAM yanaşmasının geniş tətbiqi texnologiya dərslərinin məzmununu daha da zənginləşdirərək onu real həyatla birbaşa əlaqələndirir.**

**Bu gün "Texnologiya" fənnini tədris edən müəllim yalnız nəzəri bilik verməklə kifayətlənməməli, eyni zamanda, şagirdləri araşdırmaya, layihə əsaslı fəaliyyətə yönəltməli, rəqəmsal alətlərdən səmərəli istifadə etməyi öyrətməlidir. Çünki layihə əsaslı təlim, diferensial yanaşma şagirdin potensialını, fərdi qabiliyyətini üzə çıxarmağa yardımçı olur. Məhz bu baxımdan fənnin tədrisi ilə bağlı yanaşmaların yenilənməsi, kurikulumun müasir çağırışlara uyğunlaşdırılması və məktəblərdə innovativ mühitin formalaşdırılması mühüm əhəmiyyət kəsb edir.**

**Mövzunun aktuallığını nəzərə alaraq pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Əməkdar müəllim, ümumtəhsil məktəblərinin I-IX sinifləri üçün "Texnologiya" dərsliklər komplektinin həmmüəllifi, Təhsil İnstitutunun aparıcı elmi işçisi Natiq Axundovla həmsöhbət olduq. Müsahibim "Texnologiya" fənninin tədrisində ortaya çıxan problemlər və onların həlli yolları, müasir çağırışlar və gələcək perspektivləri peşəkar baxış prizmasından təhlil etdi.**

***– Natiq müəllim, "Texnologiya" fənninin tədrisi şagirdlərə hansı bacarıqları qazandırır?***

– "Texnologiya" fənni şagirdləri müasir həyat və əmək fəaliyyətinə hazırlamaqla yanaşı, onlarda praktik bacarıqlar və yaradıcılıq qabiliyyətini də inkişaf etdirir, müxtəlif material və alətlərlə işləməyi, resurslardan səmərəli istifadə etməyi və texniki prosesləri anlamağı öyrədir. Layihə və praktik tapşırıqlar yaradıcı və analitik düşünmə, problemi həlletmə bacarıqlarını gücləndirir. Qrup işləri isə şagirdlərdə əməkdaşlıq, ünsiyyət və məsuliyyət hissini formalaşdırır.

"Texnologiya" fənnində nəzəri biliklərlə praktik fəaliyyətin uzlaşdırılması şagirdlərin həm düşünmə, həm də tətbiq bacarıqlarını inkişaf etdirmək üçün vacibdir. Nəzəri hissə mövzunun əsasını izah etməli, lakin qısa, aydın və vizual şəkildə təqdim olunmalıdır. Bu biliklər praktik tapşırıqlarla möhkəmləndirildikdə şagirdlər mövzunu daha yaxşı mənimsəyirlər.

Müasir dövrdə "Texnologiya" fənni təhsilin əsas istiqamətlərindən birinə çevrilmişdir və məqsəd texniki savadlı, yaradıcı və praktik bacarıqlara malik şagirdlər yetişdirməkdir. Finlandiyada bu sahə inteqrasiya olunmuş şəkildə tədris olunur və şagirdlər erkən yaşdan praktik fəaliyyətlərə cəlb edilirlər. ABŞ-da STEM yanaşması çərçivəsində robot texnikası və proqramlaşdırma kimi sahələrə üstünlük verilir, Böyük Britaniyada isə "Design and Technology" fənni layihə əsaslı modeldə keçirilir. Almaniyada texnologiya təhsili peşəyönümlü sistemlə əlaqələndirilir, Yaponiya, Sinqapur və Cənubi Koreyada isə texniki və rəqəmsal bacarıqların inkişafına xüsusi diqqət yetirilir. Ümumilikdə, inkişaf etmiş ölkələrdə bu fənn gələcəyin tələblərinə uyğun bilikli və bacarıqlı nəslin formalaşdırılmasında mühüm rol oynayır.

"Texnologiya" fənni şagirdlərin gələcək peşə seçiminə kömək edərək onlarda müxtəlif sahələrə maraq və ilkin təsəvvür yaradır, real iş mühitinə hazırlığını artırır. Praktik fəaliyyətlər vasitəsilə onlar mühəndislik, dizayn və informasiya texnologiyaları sahəsində çalışmaq imkanı qazanırlar.

***– "Texnologiya" fənninin müasir təhsil sistemində rolu necə dəyişib və bu dəyişikliklərin əsas səbəbləri nələrdir?***

– Bu fənnin rolu müasir təhsil sistemində genişlənərək sadə əmək bacarıqlarının öyrədilməsindən rəqəmsal və innovativ biliklərin inkişafına doğru yönəlmişdir. Yəni fənn artıq proqramlaşdırma, robototexnika və informasiya texnologiyaları sahələrini əhatə edərək şagirdlərin həm intellektual, həm də yaradıcı qabiliyyətini inkişaf etdirir. Tədris prosesində şagirdlərin aktiv iştirakına əsaslanan layihə və tədqiqatyönümlü üsullar daha geniş tətbiq olunur. Bu dəyişikliklərin əsas səbəbləri qloballaşma, rəqəmsallaşma və əmək bazarının yeni tələbləri ilə bağlıdır.

***– Bəs fənnin tədrisində əsas problemlər hansılardır və onların həlli yollarını necə görürsünüz?***

– Əsas çətinliklərdən biri məktəblərdə maddi-texniki imkanların və praktik dərslər üçün şəraitin yetərli olmamasıdır. Bəzən müəllimlərin müasir texnologiyalar və yeni təlim metodları üzrə hazırlıq səviyyəsinin kifayət etməməsi də dərsin keyfiyyətinə təsir göstərir. Şagirdlərin bu fənnə marağının az olması və onu ikinci dərəcəli hesab etməsi tədris prosesində passivliyə səbəb olur. Şəhər və kənd məktəbləri arasında resurs fərqləri və proqramın praktik yönümlə tam uyğunlaşmaması problemləri daha da artırır. Bu çətinliklərin aradan qaldırılması üçün texniki təminatın yaxşılaşdırılması, müəllimlərin peşəkar inkişafı, interaktiv metodların tətbiqi və məktəb-valideyn əməkdaşlığının gücləndirilməsi vacibdir.

***– Dünyada texnologiya sahəsində çalışmış və elmə real töhfə vermiş azərbaycanlı alimlər haqqında nə deyə bilərsiniz?***

– Texnologiya sahəsində mühüm nailiyyətlər əldə etmiş azərbaycanlı alimlər dünya elminə dəyərli töhfələr vermişlər. Lütfi Zadə süni intellektin əsas istiqamətlərindən biri olan qeyri-səlis məntiq nəzəriyyəsini yaradaraq müasir idarəetmə sistemlərinin, Kərim Kərimov isə raket və kosmos texnologiyalarının inkişafına böyük təsir göstərmişlər. Enerji, hərbi sənaye, informasiya texnologiyaları və müdafiə sistemləri sahələrində mühüm texnoloji yeniliklərə imza atmış görkəmli alimlərimiz də az deyil. Yusif Məmmədəliyev hərbi kimya və yanacaq texnologiyası sahəsində yüksək oktanlı aviasiya benzininin hazırlanması, Xoşbəxt Yusifzadə enerji və strateji resurslar sahəsində dəniz qazma texnologiyalarının inkişafı, Rasim Əliquliyev müasir texnologiya, təhlükəsizlik sahəsində informasiya texnologiyaları və kibertəhlükəsizlik üzrə tanınan alimlərimizdir. Dünyanın ən yaxşı hava müdafiə sistemi olaraq göstərilən, bir çox üstün xüsusiyyətləri ilə ABŞ-ın "Patriot" raketini kölgədə qoyan, Rusiyanın S-400 raket sisteminin mühəndislərindən biri əslən azərbaycanlı olan İqor Aşurbəylidir. Azərbaycanlı alimlərin texnologiya sahəsindəki mühüm kəşfləri, yaratdıqları nəzəriyyələr və texnoloji yeniliklər bu gün bir çox sahələrdə tətbiq olunur və bəşəriyyətin inkişfına böyük töhfələr verir.



***– Orta məktəblərdə, eləcə də bəzi ailələrdə "I və II dərəcəli fənlər" anlayışına münasibətiniz necədir?***

– Məktəb mühitində fənlərin "vacib" və "az əhəmiyyətli" kateqoriyalarına bölünməsi müasir pedaqogikanın bütöv şəxsiyyət yetişdirmə prinsipinə ziddir. Bu cür subyektiv təsnifatın kökündə əsasən imtahan mərkəzli təhsil anlayışı dayandığı üçün praktik və yaradıcılıq yönümlü fənlər çox vaxt akademik dərəcələrin kölgəsində qalır. Əslində, humanitar və dəqiq elm sahələri məntiqi düşüncəni formalaşdırdığı kimi, sənət və texnologiyayönümlü dərslər də şagirdlərin estetik zövqünü və həyati vərdişlərini inkişaf etdirən strateji sütunlardır.

Belə ayrı-seçkilik şagirdlərdə balanssız inkişafa yol açmaqla yanaşı, onların real həyatda qarşılaşacaqları kompleks problemləri həll etmək bacarığını məhdudlaşdırır. "II dərəcəli" damğası vurulan fənlərə qarşı yaranan laqeydlik həm şagirdlərin məsuliyyət hissini zəiflədir, həm də həmin sahədə çalışan pedaqoqların peşə motivasiyasını ciddi şəkildə aşağı salır. Müasir təhsil standartları, xüsusilə STEAM metodologiyası təsdiq edir ki, elmi biliklər yaradıcı bacarıqlarla sintez olunmadıqda tam səmərə verə bilməz. Təhsilin keyfiyyətini artırmaq üçün fənlərarası inteqrasiya gücləndirilməli və hər bir fənnə şagirdin intellektual arsenalının ayrılmaz hissəsi kimi yanaşılmalıdır.

Bir çox valideynin "Texnologiya" fənnini ikinci dərəcəli görməsi tədrisin keyfiyyətinə və şagirdlərin akademik inkişafına birbaşa mənfi təsir göstərir. Ailədəki bu laqeyd baxış tərzi uşaqlara sirayət edərək, onlarda fənnə qarşı qeyri-ciddi yanaşma və dərslərdə passiv iştirak meyillərini formalaşdırır. Müasir təhsil modelində yaradıcı düşüncə və praktik vərdişlərin əsasını qoyan bu fənn, valideyn dəstəyi olmadıqda şagirdlərin daxili motivasiyasını zəiflədir. Nəticədə, şagirdlər yaradıcılıq tələb edən layihələrdən yayınır və mürəkkəb praktiki tapşırıqları yerinə yetirməyə həvəs göstərmirlər. Müəllim və valideyn arasında fikir ayrılığı şagirdin əldə etdiyi biliklərin yalnız məktəb divarları arasında qalması ilə nəticələnir. Bu mənfi tendensiyanı qırmaq üçün valideynlərin maarifləndirilməsi və məktəblə sıx əməkdaşlıq çərçivəsində fənnin strateji əhəmiyyətinin təbliği zəruridir.

***– Respublikamızda "Texnologiya" fənninin tədris proqramı beynəlxalq təcrübə ilə nə dərəcədə uyğunlaşır?***

– Ölkəmizdə texnologiya fənninin tədrisi sahəsində həyata keçirilən islahatlar milli proqramın beynəlxalq meyarlara adaptasiyası prosesini sürətləndirib. Ölkənin təhsil sistemi postsovet modelindən uzaqlaşaraq, şagirdlərin praktiki qabiliyyətlərini ön plana çıxaran müasir səriştə əsaslı struktura keçid etmişdir. Mövcud kurikulum gənclərin müstəqil həyat fəaliyyətinə hazırlanması və dizayn-istehsalat vərdişlərinə yiyələnməsi baxımından qlobal təhsil trendləri ilə həmahəngdir. Xüsusilə, STEAM metodologiyasının tədrisə inteqrasiyası yerli proqramın Sinqapur və Finlandiya kimi qabaqcıl ölkələrin təcrübəsinə yaxınlaşmasında müstəsna rol oynayır. Yeni standartlara əsasən, robototexnika və 3D modelləşdirmənin dərs proqramına daxil edilməsi texnoloji tərəqqiyə çevik uyğunlaşma strategiyasının bir hissəsidir.

"Rəqəmsal bacarıqlar" layihəsi vasitəsilə kodlaşdırma və alqoritmik düşüncənin kütləviləşməsi Azərbaycanın rəqəmsal savadlılıq üzrə beynəlxalq reytinqlərdəki mövqeyini gücləndirir. Buna baxmayaraq, innovativ yanaş maların tətbiqi zamanı regionlar üzrə texniki infrastruktur bərabərsizliyi və vahid tətbiq mexanizminin yoxluğu ciddi maneə kimi qalmaqdadır. Beynəlxalq tədqiqatlara görə, pedaqoqların texnoloji yeniliklərə, o cümlədən süni intellektə marağı artsa da, onların praktik səriştələrinin təkmilləşdirilməsinə ehtiyac duyulur.

Nəzəri bazanın müasirliyinə rəğmən bəzən məktəblərin maddi-texniki təchizatı ilə kurikulumun tələbləri arasında kəskin fərq müşahidə olunur. Odur ki, tam inteqrasiyaya nail olmaq üçün müəllim hazırlığının keyfiyyətini artırmaq və innovativ tədris alətlərini bütün təhsil müəssisələri üçün əlçatan etmək prioritet olmalıdır.

***– Texnologiya dərslərində şagirdlərin yaradıcılığını və problem həlletmə qabiliyyətini inkişaf etdirmək üçün hansı metodlardan istifadə olunur?***

– Müasir texnologiya dərsləri analitik düşüncə və kreativlik potensialını üzə çıxaran strateji platformaya çevrilməlidir. Passiv təlim modellərindən uzaqlaşaraq interaktiv metodlara keçid təhsilalanların tədqiqatçılıq qabiliyyətini və sərbəst qərar qəbuletmə vərdişlərini stimullaşdırır. Layihə əsaslı öyrənmə yanaşması çərçivəsində şagirdlər ideyadan məhsula qədər olan bütün mərhələləri icra edərək, sistemli fəaliyyət strukturunu mənimsəyirlər.

Problem əsaslı öyrənmə metodikası isə gəncləri real həyatın çətinlikləri ilə üz-üzə qoyaraq, onları mürəkkəb situasiyalardan çıxış yolları axtarmağa təşviq edir. Yaradıcı atmosferdə müstəsna rol oynayan "beyin həmləsi" üsulu, şagirdin innovativ ideyalarını sərbəst ifadə etməsinə şərait yaradır.

STEAM konsepsiyasının tətbiqi fənlərarası inteqrasiyanı təmin edərək texniki və estetik yanaşmaların vahid müstəvidə birləşdirilməsinə imkan verir. Dərslərdə tətbiq olunan refleksiya və özünüqiymətləndirmə mexanizmləri şagirdlərin öz fəaliyyətlərini obyektiv təhlil etməsinə və zəif tərəflərini müəyyənləşdirərək inkişafına kömək edir.

Müəllimin, sadəcə, fasilitator kimi çıxış etdiyi bu mühitdə təhsilalanlar informasiyanı passiv qəbul etmək əvəzinə aktiv yaradıcı subyektlərə çevrilirlər. Aktiv təlim metodlarının sintezi isə şagirdlərin həm fərdi inkişafını, həm də müasir dövrün qlobal çağırışlarına hazırlıqlı olmasını təmin edir.

***– Müəllimlər bu fənni yüksək səviyyədə tədris etmək üçün hansı peşəkar bacarıqlara yiyələnməlidirlər?***

– "Texnologiya" fənninin uğurlu tədrisi müəllimdən yalnız dərin nəzəri biliklər deyil, həm də geniş spektrli praktik səriştə tələb edir. Müasir dövrün müəllimi material və istehsalat prosesləri kimi fundamental sahələri mənimsəməklə yanaşı, bu bilikləri real həyat nümunələri ilə sintez edərək şagirdlərə ötürməlidirlər. Müəllimin rəqəmsal savadlılığı, xüsusilə 3D modelləşdirmə və süni intellekt alətlərindən pedaqoji məqsədlər üçün istifadə etməsi müasir təhsil mühitinin zəruri tələbidir. Praktik məşğələlər zamanı resursların düzgün idarəsi və texniki təhlükəsizlik qaydalarına ciddi riayət olunması müəllimin təşkilatçılıq qabiliyyətinin əsas göstəricisidir.

Hazır həll yolları vermək əvəzinə, şagirdləri innovativ ideyalar irəli sürməyə təşviq edən müəllim, onlarda tənqidi düşüncə və mühəndislik vərdişlərinin formalaşmasına zəmin yaradır. Effektiv kommunikasiya qurmaq və komanda işini dəstəkləmək bacarığı şagirdin fərdi inkişafı ilə yanaşı, kollektiv fəaliyyət mədəniyyətini gücləndirir. Sürətlə dəyişən texnoloji trendləri izləmək və mütəmadi olaraq peşəkar inkişaf treninqlərində iştirak etmək müəllimin uzunmüddətli pedaqoji uğurunun təməl şərtidir.

***– Məktəblərdə maddi-texniki bazanın vəziyyəti, rəqəmsal texnologiyaların - 3D modelləşdirmə, robototexnika və s. dərslərə inteqrasiyası texnologiya dərslərinin keyfiyyətinə necə təsir göstərir?***

– Məktəblərdə maddi-texniki bazanın səviyyəsi texnologiya fənninin tədris keyfiyyətini və təhsil hədəflərinin reallaşmasını birbaşa şərtləndirən amildir. Nəzəri biliklərin praktik tətbiqlə vəhdət təşkil etdiyi bu fənn üçün funksional fənn kabinetlərinin və müasir avadanlıqların mövcudluğu təlimin səmərəliliyini müəyyən edən əsas meyardır. Müasir avadanlıqlarla təchiz olunmuş mühit şagirdlərin yaradıcılıq potensialını üzə çıxarmaqla yanaşı, onlarda materialların emalı və məhsul istehsalı üzrə real vərdişlər formalaşdırır. Texniki resursların çatışmazlığı isə dərslərin daha çox nəzəri xarakter almasına və bununla da şagirdlərin fənnə olan marağının kəskin şəkildə azalmasına səbəb olur.

Kompüter texnologiyaları və 3D printerlər kimi rəqəmsal resurslar dərslərin interaktivliyini artıraraq gənclərin ənənəvi əmək və müasir mühəndislik bacarıqlarını paralel şəkildə inkişaf etdirir. Müəllimin peşəkarlıq dərəcəsindən asılı olmayaraq, lazımi infrastrukturun yoxluğu onun innovativ layihələri həyata keçirmə imkanlarını məhdudlaşdırır və pedaqoji motivasiyasını zəiflədir. Bu innovativ alətlər mürəkkəb elmi nəzəriyyələri vizuallaşdıraraq abstrakt anlayışların daha asan mənimsənilməsinə xidmət edir.

Təcrübi məşğələlər zamanı şagirdlər nəinki texniki biliklər, həm də qarşılaşdıqları mühəndislik problemlərini müstəqil analiz etmək vərdişi qazanırlar. Rəqəmsal platformalar gənclərə öz yaradıcı ideyalarını konkret məhsul halına gətirmək imkanı verməklə, onlarda təşəbbüskarlıq və innovativ düşüncə tərzi formalaşdırır. Kollektiv şəkildə icra olunan texnoloji layihələr fərdlər arasında kommunikasiyanı gücləndirir və onlara gələcək peşə həyatında zəruri olan komanda işi bacarıqlarını aşılayır.

Texnologiya dərsləri öyrənmə prosesini interaktiv oyun formasına salaraq şagirdlərin akademik motivasiyasını və fənnə marağını artırır. Erkən yaşlardan rəqəmsal səriştələrə yiyələnən gənclər müasir əmək bazarının sürətlə dəyişən tələblərinə qarşı daha hazırlıqlı və rəqabətədavamlı fərdlər kimi yetişirlər.

***– "Texnologiya" fənninin tədrisində şəhər və kənd məktəbləri arasında hansı fərqlər mövcuddur?***

– "Texnologiya" fənninin tədris keyfiyyəti məktəbin coğrafi mövqeyindən asılı olaraq maddi-texniki baza, rəqəmsal resurslar və kadr potensialı baxımından kəskin fərqlənə bilər. Şəhər məktəbləri müasir laboratoriyalar və robototexnika avadanlıqları ilə daha yaxşı təmin olunduğu üçün burada dərslər əsasən innovativ layihələr üzərində qurulur. Maddi imkanların məhdudluğu səbəbindən kənd məktəblərində texnoloji mövzular çox vaxt təcrübi məşğələlərdən uzaqlaşaraq nəzəri çərçivədə qalır. İxtisaslı müəllimlərin şəhər mərkəzlərində cəmləşməsi və onların mütəmadi peşəkar təlimlərə çıxışı tədris metodikasındakı qeyri-bərabərliyi daha da dərinləşdirir. Kənd yerlərində internet infrastrukturunun zəifliyi rəqəmsal platformaların dərslərə inteqrasiyasını çətinləşdirsə də, bu mühit şagirdlərə real əmək vərdişləri və təbii resurslarla işləmək üçün unikal imkanlar tanıyır. Şəhərdə təhsil alanlar texnoparklar və əlavə kurslar vasitəsilə biliklərini genişləndirə bildiyi halda, kənd şagirdlərinin praktik həyata yaxınlığı və fiziki əmək təcrübəsi bəzi texniki bacarıqların mənimsənilməsində onlara təbii üstünlük qazandırır. Regionlardakı rəqəmsal boşluğu aradan qaldırmaq üçün kənd məktəblərinin texnoloji təchizatını yeniləmək və müəllimlərin distant inkişafını təmin etmək təhsil sisteminin əsas hədəfi olmalıdır.

***– Texnologiya dərslərində təhlükəsizlik qaydalarına əməl olunması necə təmin edilməlidir?***

– Təlimatların, sadəcə, nəzəri oxunuşu ilə kifayətlənməyib, hər bir yeni avadanlığın işləmə prinsipi və riskləri şagirdlərə əyani nümunələr üzərində nümayiş etdirilməlidir. Emalatxananın düzgün zonalaşdırılması, kəsici alətlərin mütəmadi texniki yoxlanışı və iş sahəsinin təmizliyi qəza risklərini minimuma endirən texniki şərtlərdir. Şagirdlərdə qaydalara riayət etməyin daxili məsuliyyət hissinə çevrilməsi üçün onlarda özünümüdafiə instinkti və kollektiv təhlükəsizlik şüuru inkişaf etdirilməlidir.

Tapşırıqların çətinlik dərəcəsi və istifadə olunan materiallar şagirdlərin yaş qrupuna və fərdi bacarıqlarına uyğun olaraq ciddi şəkildə tənzimlənməlidir. Valideynlərin də bu maarifləndirmə prosesinə cəlb olunması şagirdlərdə həm məktəbdə, həm də məişətdə düzgün texniki davranış vərdişlərinin möhkəmlənməsinə xidmət edir.

***– Gələcəkdə bu fənnin inkişafı üçün hansı islahatların aparılması zəruridir?***

– İlk növbədə, təhsil müəssisələrinin texniki bazası müasir standartlara uyğunlaşdırılmalı, 3D printerlər və robototexnika qurğuları kimi innovativ alətlər emalatxanaların ayrılmaz hissəsinə çevrilməlidir. Maddi-texniki təminatdakı regional bərabərsizliyi aradan qaldırmaq məqsədilə kənd məktəblərini prioritet seçən xüsusi dövlət proqramlarının icrası mütləqdir.

Müəllim heyətinin peşəkarlığını artırmaq üçün STEAM yanaşmasını və müasir rəqəmsal həlləri əhatə edən davamlı ixtisasartırma kursları təşkil edilməlidir. Kurikulumun tədrisi yenidən nəzərdən keçirilməli, nəzəriyyənin payı azaldılaraq real həyat problemlərinin həllinə yönəlmiş praktik layihələrə daha geniş yer ayrılmalıdır. Şagirdlərdə tənqidi düşüncə və mühəndislik bacarıqlarını inkişaf etdirən proqramlaşdırma elementlərinin dərslərə inteqrasiyası dövrün tələbidir.

Şagird layihələrinin müntəzəm sərgilənməsi və texnoloji müsabiqələrin keçirilməsi gənclərdə özünəinam hissini artıraraq innovativ yaradıcılığa təşviq edir. Fikrimizi belə yekunlaşdıraq: sistemli islahatlar vasitəsilə texnologiya dərsləri sadə əmək vərdişlərindən uzaqlaşaraq, gələcəyin mütəxəssislərini hazırlayan intellektual platformaya çevrilməlidir.

***– Natiq müəllim, ətraflı məlumat və maraqlı fikirləriniz üçün təşəkkür edirik.***

*Müsahibəni apardı:*
***Mehparə ƏLİYEVA***
***XQ***

# Donmuş prosesin buzları əriyir

## *Fələstin siyasi sistemi yenidən fəaliyyətə başlayırmı?*

**Xarici mediada bu həftəsonu İordan çayının qərb sahilində və Qəzza zolağının bəzi bölgələrində yerli özünüidarəetmə orqanlarına səsvermə keçiriləcəyi barədə xəbər yayılıb. Məlumata görə, proses Qəzza müharibəsi başladıqdan sonra qərb sahildə, anklavda isə son iki onillikdə təşkil olunan ilk səsvermədir. Lakin prosesin zamanlaması, coğrafiyası və baş verdiyi geosiyasi kontekst onu böyük siyasi hadisəyə çevirir. Qəzza müharibəsinin davam etdiyi, Fələstin siyasi sisteminin legitimlik böhranı yaşadığı və regional güclərin müharibədən sonrakı idarəçilik modelini müzakirə etdiyi mərhələdə seçki amili gələcək siyasi arxitekturanın elementlərindən biri kimi ortaya çıxır.**

Fələstin siyasi sistemində ümumilikdə seçki institutları uzun müddət faktiki donmuş vəziyyətdə idi. Bu baxımdan indiki səsvermə siyasi sistemin hələ işlək olub-olmamasının "isti" sınağı kimi qiymətləndirilə bilər. Seçkiləri xüsusi edən daha bir amil onun məhz müharibə fonunda keçirilməsidir. Müharibə adətən siyasi institutları zəiflədir, seçki proseslərini dondurur, idarəçilik mexanizmlərini iflic edir. Görünür, Fələstin nümunəsində vəziyyət əksinədir. Məhz müharibə siyasi prosesin yenidən hərəkətə gətirilməsi üçün impuls rolunu oynayır ki, bu da hadisəni daha mürəkkəb və analitik baxımdan əhəmiyyətli edir.



Seçkilərin arxasında duran əsas motivlərdən biri müharibədən sonrakı idarəetmə modelinə dair ilkin nümunə formalaşdırmaqdır. Çünki Qəzzada gələcəkdə bu ərazilərin kim tərəfindən və hansı mexanizmlə idarə olunacağı məsələsi gündəmin əsasını təşkil edir. Ona görə də Fələstin Administrasiyası seçki vasitəsilə daxili legitimlik toplamaqdan əlavə, beynəlxalq aktorlara funksional tərəfdaş olduğunu nümayiş etdirməyə çalışır. Çünki müharibədən sonrakı bərpa prosesində siyasi legitimliyi olmayan aktorun donor dəstəyi və beynəlxalq koordinasiya üzərində rol qazanması çətindir.

Sözsüz ki, bu gün Fələstin siyasi sistemində əsas problem siyasi etimadın tükənməsidir. Ona görə də seçkilərin bu fonda ortaya çıxması siyasi sistemin özünü bərpa etmək cəhdi kimi də başa düşülə bilər. Belə olan halda, səsverməyə böhran şəraitində siyasi dayanıqlılıq imtahanı kimi də baxmaq olar. Yəni əsas məsələ kimin qalib gəlməsindən çox, seçki institutunun işləməsidir. Çünki bəzi hallarda institutun mövcudluğunun özü nəticədən daha böyük siyasi məna daşıyır. Seçkilərin görünən tərəfi namizədlər və yerli şuralar uğrunda mübarizə olsa da, FƏTH–HƏMAS rəqabətinin yeni mərhələsi də müşahidə olunur. Mövcud qarşıdurma artıq uzun illərdir paralel idarəetmə modellərinin mübarizəsinə çevrilib. Səsvermənin ikili siyasi arxitekturanı dəyişə bilməsə də, balansa təsir göstərməsi ehtimalı yüksəkdir.

FƏTH üçün seçkilər Qəzzada yenidən institusional mövqe qazanmaq cəhdidir. HƏMAS üçün isə ictimai dayağın real miqyasını qiymətləndirmək vasitəsinə çevrilir. Bu səbəbdən görünən sakitlik fonunda seçki əslində siyasi güc ölçüsüdür.

Maraqlıdır, legitimlik problemi seçkilərlə həll oluna bilərmi? Nəzərə almaq lazımdır ki, Fələstin siyasi sistemində əsas problem seçki ilə legitimlik arasında əlaqənin zəifləməsidir. Ən əsası, cəmiyyətin mühüm hissəsində seçkinin real dəyişiklik yarada biləcəyinə dair skeptisizm var. Aşağı iştirak göstəricilərinin arxasında da məhz bu etimadsızlıq dayanır. Amma legitimlik seçkidən sonra formalaşacaq idarəetmənin real nəticələri ilə möhkəmlənə bilər. Bir nüansı da qeyd edək ki, seçilmiş yerli strukturların formal çərçivədə qaldığı təqdirdə, seçkilər siyasi etimadı artırmaq əvəzinə daha çox simvolik hadisə kimi yadda qalacaq.

Yeri gəlmişkən, səsvermənin regional diqqət çəkməsi onun yalnız daxili məsələ olmadığını göstərir. Misir, İordaniya və Körfəz aktorları üçün Qəzzanın gələcək idarəçilik modeli regional təhlükəsizlik məsələsidir. Bu səbəbdən yerli seçki kimi görünən proses əslində daha böyük geosiyasi hesablamaların tərkib hissəsinə çevrilir. Eyni yanaşma Qərbdə də müşahidə olunur. Vaşinqton və Brüssel prosesi daha çox idarəçilik vakuumunu qismən doldurmaq cəhdi kimi yozur. Həmin yanaşmanın mərkəzində belə bir məntiq dayanır ki, institusional boşluq dərinləşdikcə, radikallaşma və qeyri-sabitlik arta bilər. Bu səbəbdən seçkilər həm də təhlükəsizlik mexanizmi kimi qəbul edilir.

Seçkilər Fələstin liderliyi üçün də ciddi testdir. Uzun illərdir təxirə salınan proses artan narazılıqlar və siyasi elitanın qocalması fonunda yenilənmə modeli kimi təqdim olunur. Model işləsə, mövcud liderlik üçün legitimliyin bərpası üçün imkan yaranması ehtimalı yüksəkdir. Əgər gözlənilən nəticəni verməsə, proses əks-effekt yaradaraq siyasi böhranı dərinləşdirə bilər. Ona görə də seçkiləri həm də mövcud liderliyin siyasi dayanıqlılıq sınağı kimi təhlil etmək düzgün olar.

Sonda onu da qeyd edək ki, siyasi sistemlərdə böyük transformasiyalar bəzən kiçik institusional hərəkətlərlə başlayır. Həftəsonu keçiriləcək seçkilərin də hərəkət potensialı yaratmaq ehtimalı yüksəkdir. Onun real dönüş nöqtəsinə çevrilməsi isə yalnız seçkidən sonrakı siyasi dinamika ilə müəyyən olunacaq. Əgər proses daha geniş siyasi yenilənməyə yol açarsa, indiki səsvermə başlanğıc kimi tarixə düşə bilər. Əks halda, bu, yalnız böhran fonunda simvolik siyasi jest olaraq xatırlanacaq.

***Nəzrin ELDARQIZI***
***XQ***

### *Ekspert rəyi*



**Yusif BAĞIRZADƏ,**
**politoloq**

Şübhəsiz, bu seçkilərə, sadəcə yerli, idarəetmənin yenilənməsi kimi baxmaq düzgün olmaz. Seçkilərdən dərhal strateji-siyasi dönüş gözləmək də realist yanaşma deyil. Əslində, iki paralel proses gedir. Bunlardan biri texniki-institusional, digəri isə simvolik və siyasi yükü ağır olan prosesdir. Qəzza zolağı və İordan çayının qərb sahili kimi bölgələrdə yerli seçkilər formal olaraq bələdiyyə və icma idarəçiliyini müəyyən edir. Yəni su təchizatı, infrastruktur, kommunal xidmətlər, yerli vergi və gündəlik idarəetmə məsələləri əsasdır. Bu baxımdan səsvermənin birbaşa dövlət quruculuğu və ya sülh prosesində dönüş yaratması institusional baxımdan mümkün deyil. Amma məsələ yalnız texniki idarəetmə ilə bitmir.

Seçkilərin siyasi çəkisi, bölgədəki uzunmüddətli böhran fonunda daha geniş məna qazanır. Xüsusilə Qəzzada uzun illər davam edən idarəetmə vakuumu, müharibə və dağıntı fonunda keçirilən ilk yerli seçkilər olması onu həm daxili legitimlik, həm də simvolik "yenidən təşkilatlanma" göstəricisinə çevirir. Yəni insanlar üçün səsvermə hələ də siyasi həyat mümkündürmü? sualına cavab axtarışıdır. Digər tərəfdən, proses regiondakı siyasi parçalanmanı da üzə çıxarır. Qərb sahildə və Qəzzada fərqli siyasi idarəetmə modellərinin mövcudluğu artıq uzun illərdir davam edir və seçkilər həmin fərqliliyi ya yumşalda, ya da daha da dərinləşdirə bilər.

Eyni zamanda, bu məsələdə beynəlxalq kontekst də mühüm rol oynayır. Regionda baş verən proseslər İsrail–Fələstin münasibətləri, humanitar vəziyyət və təhlükəsizlik dinamiki ilə sıx bağlıdır. Bu səbəbdən yerli seçkilər daha geniş geosiyasi müzakirələrin tərkib hissəsinə çevrilir. Amma yerli idarəetmə seçkiləri adətən böyük siyasi razılaşmaların yerinə keçmir, mövcud reallığı idarə etməyə xidmət edir.

Seçkilər demokratik iştirakın bərpası və yerli legitimliyin gücləndirilməsi baxımından vacibdir, amma nə münaqişənin fundamental səbəblərini həll edir, nə də regional siyasi düyünləri açır. Daha real yanaşma ondan ibarətdir ki, seçkilər uzunmüddətli prosesin kiçik, amma əhəmiyyətli bir elementi kimi qiymətləndirilə bilər.

# Yekaterinburqda Azərbaycan rəqsi

**Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin (RAGB) Sverdlovsk vilayətindəki fəalları Yekaterinburqda keçirilən "Uşaqlığın ritmində" – III Beynəlxalq Rəqs Festivalında çıxış ediblər.**

RAGB nümayəndələri "Dastan" Qafqaz rəqs qrupu ilə birlikdə Azərbaycan rəqs nümunələrini nümayiş etdiriblər.

Festival müxtəlif mədəniyyətləri təmsil edən iştirakçıları bir araya gətirib və milli ənənələrin rəqs sənəti vasitəsilə təqdimatı platforması rolunu oynayıb. Soydaşlarımız "Sverdlovsk vilayətinin ən kütləvi sərbəst rəqsi" müsabiqəsinə də qoşulublar.

***XQ***



**Xarici media diqqəti Vaşinqton-Tehran xəttində danışıqların perspektivi, İran hakimiyyətində parçalanma, regional təhlükəsizlik arxitekturası və böyük güclərin fərqli mövqelərinə yönəldib. Enerji bazarları, sanksiya təhdidləri, Hörmüz boğazı ilə bağlı risklər və Avropa–Yaxın Şərq xəttində artan narahatlıq kimi mövzular da gündəmdən düşmür. Görünən odur ki, regionda hərb və diplomatiya arasında incə balans qorunmağa çalışılır və qarşıdakı günlər bu prosesin həlledici mərhələsi olacaq.**

# Yaxın Şərq danışıqlarında "maneə aysberqləri"

## *Regionda təhlükəsizlik mövzusu gündəmdə*

**"Fox News":** ABŞ-ın dövlət katibi Marko Rubio "Fox News"a müsahibəsində bildirib ki, Vaşinqton və Tehran arasında razılaşmanın əldə olunması yolunda ən böyük maneə İran rəhbərliyindəki parçalanmadır. Onun sözlərinə görə, iranlı nümayəndələrlə hakimiyyət nümayəndələri arasında fikir ayrılıqları olur ki, bu da sülh danışıqları imkanlarını ciddi şəkildə məhdudlaşdırır: "Ölkə daxilində (İran - red.) dərin parçalanma var və düşünürəm ki, bu həmişə belə olub. Lakin indi özünü daha güclü göstərir. İranı anlamağın ən yaxşı yolu hazırda orada siyasi bir sinfin formalaşdığını başa düşməkdir. Bilirsiniz, insanlar mötədillər və sərt xətt tərəfdarları haqqında danışırlar".

**"Sky News":** Böyük Britaniyanın Baş naziri Kir Starmer davam edən münaqişə fonunda qiymətlərin artmasının Britaniyanın tətil planlarına təsir göstərə biləcəyi ehtimalını istisna etməyib: "Deyə bilərəm ki, mənfi təsirlər davam edərsə, insanlar bu il hara səyahət etdikləri, supermarketdən nə aldıqları və bu kimi şeylər baxımından vərdişlərini dəyişə bilərlər". O qeyd edib ki, hökumətin "Cobra" Fövqəladə Hallar Komitəsinin iclasında bu məsələlərə toxunulacaq.

**"Daily Mail":** ABŞ dövlət katibi Marko Rubio İranın xarici işlər naziri Abbas Əraqçi ilə heç vaxt əlaqə saxlamadığını bildirib: "Dediyim kimi, o, nadir hallarda bizimlə ünsiyyət qurub. Bunlar əsasən dolayı danışıqlardır". Onun sözlərinə görə, son həftələr İslamabadda keçirilən görüşlərlə bağlı birbaşa əlaqələr olub. O əlavə edib ki, onlarla birbaşa əlaqələr çox məxfidir və yalnız onların sistemindəki bir və ya iki nəfər vasitəsilə baş verir.

**"Tasnim":** İranın xarici işlər naziri Abbas Əraqçi Rusiya Prezidenti Vladimir Putinlə görüşündə bəyan edib ki, bütün dünya ABŞ ilə qarşıdurmada İranın real gücünü görüb və aydın olub ki, İslam Respublikası sabit, möhkəm və qüdrətli bir sistemdir. O əlavə edib ki, bu müharibədə İranın Rusiya kimi dost və müttəfiqinin olduğu müəyyənləşib.

**"CNN":** İran və ABŞ arasında potensial sülh razılaşmasının birinci mərhələsi münaqişədən əvvəlki status-kvoya qayıtmaq ola bilər. Telekanalın məlumatına görə, danışıqların ikinci mərhələsinin olmamasına baxmayaraq, tərəflərin mövqeləri göründüyü qədər uzaq deyil. Mənbələr iddia edirlər ki, mərhələli həllə yönəlmiş aktiv pərdəarxası diplomatiya davam edir. İlk addım Hörmüz boğazından sərbəst keçidin bərpası və eskalasiyadan əvvəlki mövqelərə qayıtmaq hesab olunur. Məlumata görə, İranın nüvə proqramı məsələsinin müzakirəsi sonrakı mərhələdə planlaşdırılır. Həmçinin qeyd olunur ki, vasitəçilər tərəflərə razılığa gəlmək üçün təzyiq göstərirlər və qarşıdakı günlər həlledici ola bilər.

**"Reuters":** İranın müdafiə nazirinin müavini Rza Talei-Nik Bişkekdə ŞƏT-ə üzv ölkələrin müdafiə nazirlərinin müşavirəsində çıxışı zamanı bəyan edib ki, İran hərbi imkanlarını "müstəqil ölkələrlə", xüsusilə Şanxay Əməkdaşlıq Təşkilatının üzvləri ilə bölüşməyə hazırdır.

**"WSJ":** ABŞ-ın maliyyə naziri Skott Bessent bildirib ki, Amerika administrasiyası İran aviaşirkətləri ilə əməkdaşlıq edən şirkətlərə qarşı sanksiyalar tətbiq edə bilər. Onun sözlərinə görə, sanksiya tətbiq edilən İran aviaşirkətləri ilə iş görmək ABŞ sanksiyalarına məruz qalma riskini daşıyır. Xarici hökumətlər öz yurisdiksiyalarındakı şirkətlərin bu təyyarələrə aviasiya yanacağı, qida, eniş haqqı və idarəetmə xidmətləri də daxil olmaqla xidmət göstərməməsi üçün bütün zəruri tədbirləri görməlidirlər".

**"Mehr":** İran XİN-in sözçüsü İsmayıl Bəqai "X" sosial şəbəkə hesabında yazıb ki, Avropa İttifaqının İrana qarşı sanksiyaları heç vaxt insan hüquqları ilə bağlı olmayıb: "Onlar sadə iranlıların əsas hüquqlarını tapdalamaq üçün hazırlanıb. Bu cür nümayişkaranə mövqe dünya arenasında sizə və ya ətrafınıza bir qram belə etibar qazandırmayacaq. Əslinə qalsa, bu, sadəcə olaraq, Avropa hakim sinfinin ikili standartlarını daha çox nümayiş etdirir və birliyin süqutunu sürətləndirir".



**"Bəhreyn DİN":** Bəhreyn hakimiyyəti 69 nəfəri və onların ailə üzvlərini vətəndaşlıqdan məhrum edib. Bu barədə Bəhreynin Daxili İşlər Nazirliyi məlumat yayıb. DİN-in bəyanatında bildirilib ki, bu vətəndaşlar İranın hücumlarına münasibətdə dəstək ifadə ediblər.

**"Al Arabiya":** Səudiyyə Ərəbistanı bu gün Ciddədə Fars Körfəzi Ərəb Dövlətləri Əməkdaşlıq Şurasının növbədənkənar sammitini keçirəcək. Sammit Körfəz dövlətləri rəhbərlərinin fevralın 28-də ölkələrinin İranla qarşıdurmaya cəlb olunmasından sonra ilk əyani görüşü olacaq. Görüşün məqsədi İran tərəfindən həyata keçirilən raket və dron hücumlarına qarşı ümumi cavab hazırlamaqdır. Sammitdə Qətər, Küveyt və Bəhreyn rəhbərlərinin iştirakı gözlənilir. Oman və Birləşmiş Ərəb Əmirliklərini kimin təmsil edəcəyi barədə məlumat isə hələlik açıqlanmır.

***Hazırladı:***
***N.BEYDİYEVA***
***XQ***


## "Ağsu Avtonəqliyyat"ASC səhmdarlarının nəzərinə!

25 iyun 2026-cı il saat 10.00-da "Ağsu Avtonəqliyyat" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** Cəmiyyətin 2025-ci il üzrə maliyyə hesabatının müzakirəsi və təsdiqi.

**2.** Cari məsələlər.

**Ünvan:** Ağsu şəhəri, M.Ə.Rəsulzadə küçəsi 6.

## "Bakı Ofset Kombinatı" ASC səhmdarlarının nəzərinə!

24 iyun 2026-cı il saat 10.00-da Bakı şəhəri, Nəsimi rayonnu, A.Məhərrəmov küçəsi 4 nömrəli ünvanda "Bakı Ofset Kombinatı" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** 2025-ci il üzrə cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyəti haqqında hesabatı.

**2.** Digər məsələlər.

**Əlaqə telefonu:** (050) 209-29-15.

## "Kürdəmir Taxıl" ASC səhmdarlarının nəzərinə!

25 iyun 2026-cı il saat 11.00-da Kürdəmir şəhəri, Bakı prospekti 6 nömrəli ünvanda "Kürdəmir Taxıl" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** 2025-ci il üzrə cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyəti haqqında hesabatı.

**2.** Digər məsələlər.

**Əlaqə telefonu:** (070) 313-99-62.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 73 (31042) 29 aprel 2026-cı il, çərşənbə

## İDMAN

### “Prezident kuboku 2026”nın rəsmi paradı və təqdimatı



**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr edilən akademik avarçəkmə, kayak və kanoe üzrə “Prezident Kuboku 2026” beynəlxalq reqatasında iştirak edən komandaların rəsmi paradı və təqdimatı keçirilib.**

Gənclər və İdman Nazirliyi ilə Azərbaycan Su İdman Növləri Federasiyasının birgə təşkilatçılığı ilə baş tutan tədbir Mingəçevirdə gerçəkləşib.

Parad zamanı əvvəlcə rəsmi şəxslər və qonaqlar Heydər Əliyevin Mingəçevir şəhərindəki abidəsini ziyarət ediblər. Daha sonra iştirakçı komandaların Heydər Əliyev prospekti boyunca keçidi olub.

Ardınca Dövlət Himni səsləndirilib. “Prezident Kuboku 2026” haqqında ümumi məlumat verilib. Qeyd olunub ki, 20-dək ölkədən 100-dən artıq idmançının iştirak etdiyi reqata cənab Prezident İlham Əliyevin tapşırığı əsasında ilk dəfə olaraq aprelin 27-də Sərsəng su anbarından start götürüb. Yarışlar 29 aprel tarixində Suqovuşanda davam edəcək. 30 aprel – 1 may tarixlərində Mingəçevirdə final yarışları keçiriləcək.

### Minifutbol millimiz dünyada 1-ci pillədə



**Minifutbol üzrə Azərbaycan milli komandası dünya reytinqində birinci pilləyə yüksəlib.**

Dünya Minifutbol Federasiyası (WMF) milli komandaların yeni reytinq cədvəlini açıqlayıb. Siyahının ilk pilləsində son dünya çempionatının qalibi olan Azərbaycan millisi qərarlaşıb. 4085 xal toplayan komandamız tarixində ilk dəfə olaraq bu uğura imza atıb.

Reytinq cədvəlinin ikinci pilləsində 3890 xalla son Avropa çempionu Serbiya millisi yer alır. İlk üçlüyü isə 3385 xalla Rumıniya komandası tamamlayır.

### Bakı marafonu: 25 min iştirakçı!



**Heydər Əliyev Fondunun təşəbbüsü ilə bazar günü keçiriləcək “Bakı Marafonu 2026” üçün 25 min iştirakçı qeydiyyatdan keçib.**

Marafonda Azərbaycan vətəndaşları ilə yanaşı, ABŞ, Almaniya, Böyük Britaniya, Çin, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Rusiya, Türkiyə, Ukrayna və digər ölkə vətəndaşları da qələbə uğrunda mübarizə aparacaqlar.

Qeyd edək ki, builki yarışda da fiziki imkanları məhdud, eləcə də daun sindromlu şəxslər də iştirak edəcəklər.

Mayın 3-də isə start nöqtəsi Dövlət Bayrağı Meydanı, finiş Sea Breeze ərazisi olmaqla ilk dəfə 42 kilometr məsafədə keçiriləcək Bakı Marafonunun kişi və qadın iştirakçıları qaçış zolağında ilk 3 yer uğrunda mübarizə aparacaqlar.

*Qabil YUSİFOĞLU*
*XQ*

## Futbol tariximizdən

# 65 il əvvəl canlı izlədiyim “Neftçi”–“Avanqard”oyunu

**1961-ci il iyulun 2-si idi. Təhsilimi ali məktəbdə davam etdirmək üçün yenicə rayondan Bakıya gəlib qəbul imtahanlarına hazırlaşırdım. Buna qədər oyunlarını uzaqdan-uzağa, radio və televiziya reportajları vasitəsilə izlədiyim “Neftçi” SSRİ çempionatının güclülər dəstəsində növbəti görüşünü keçirirdi. Respublika stadionunun tribunalarına toplaşan azarkeşlər arasında mən də vardım. Rəqibimiz isə Xarkovun “Avanqard” komandası idi.**



Bu gün diqqətinizə çatdırdığımız foto da 65 il əvvəlin futbolumuza əmanətidir. Oyun haqqında danışmazdan əvvəl 1937-ci ildə yaradılmış və 1961-də 24 yaşına çatmış “Neftçi” Peşəkar Futbol Klubunun fotodakı oyunçularını xatırlayaq (sağdan sola): Yuri Kuznetsov, Çingiz İsmayılov, Vyaçeslav Semiqlazov, Aleksandr Trofimov, Ravil Cəlilov, Yuri Alyoşin, Kamil Eynullayev, Anatoli Qryazev, Əhməd Ələsgərov, Omari Kaxiani, Adamas Qolodets.

Yaddaşım məni aldatmırsa, Moskva “Dinamo”-sundan dəvət olunan Qolodets və gürcüstanlı Kaxianidən başqa, adları çəkilən oyunçuların hamısı Azərbaycan futbolunun yetirməsi idi.

“Avanqard”la matça gəldikdə, 23-cü SSRİ çempinatının ikinci dövrə görüşü idi. Oyunda ədalətli qorumaq moskvalı hakim V.Podqornıya həvalə olunmuşdu. Hesab tez açıldı. Artıq 7-ci dəqiqədə xarkovlu Nesterov qapıçımız Kosenkovu məyus etdi. Erkən qolla hesabda irəli çıxan qonaqlar fasiləyədək kiçik üstünlüyü qoruyub saxlaya bildilər. Azarkeşlər ikinci hissənin ortalarında daha bir qol gördülər. Bu dəfə Qolodetsin zərbəsindən sonra Ukrayna təmsilçisinin qapısında. Yeri gəlmişkən, Adamas mənim yadımda rəqib qapısı ağzında yaranan cüzi imkandan belə, dəqiq istifadə etməyi bacaran hücumçu kimi qalmışdır. Oyunda hesab bərabərləşəndən sonra başqa qol olmadı və rəqiblər heç-heçə ilə ayrıldılar – 1:1.

Təxminən 1 il əvvəl Kamil Eynullayev haqqında danışdığımız yazıda sağ kənar hücumçumuzun 1961-ci ildə Xarkovda keçirilmiş “Avanqard”–“Neftçi” görüşündə komandasına çox mühüm qələbə qazandırdığını qeyd etmişdik. İndi xatırlatmaq yerinə düşər ki, həmin çempionatın mayda birinci dövrə görüşündə gərgin mübarizənin taleyini həll edən qələbə topunu Eynullayev 58-ci dəqiqədə vurmuş (1:0), qalan vaxt ərzində isə “Neftçi” müdafiədə səhvsiz oynayaraq evə 2 mühüm xalla qayıtmışdı.

Sonda onu da xatırladaq ki, 23-cü çempionatda “Neftçi”nin baş məşqçisi məşhur moskvalı mütəxəssis Boris Arkadyev, onun köməkçisi Əli Əbilzadə, komandanın rəisi isə Tofiq Bəhramov idi.

*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

# Dünyadan gələn sorağımız



**Azərbaycan Almaniyanın Bremen şəhərində keçirilən, dünya caz sənayesinin mühüm tədbirlərindən biri sayılan “Jazzahead!” beynəlxalq sərgi-festivalda uğurla iştirak edib.**

Bu il 20-ci yubileyini qeyd edən sərgi-festival dünyanın 60-dan çox ölkəsindən 3 mindən artıq peşəkar iştirakçını – musiqiçiləri, agentləri, media nümayəndələrini və caz sənayesi üzrə müxtəlif institutları bir araya gətirib. Festival çərçivəsində Bremen şəhərinin 45 müxtəlif məkanında 160-dan çox konsert və digər tədbirlər təşkil olunub və şəhərdə əsl caz ab-havası yaşanıb.

Beynəlxalq sərgi-festivalda Azərbaycan stendi qurulub, ölkəmizdən olan caz musiqiçilərinin yaradıcılığı beynəlxalq auditoriyaya təqdim edilib. Eyni zamanda, Bakıda keçirilən beynəlxalq caz festivalının tanıdılması istiqamətində görüşlər keçirilib, xarici caz ifaçıları, həmçinin caz sənaye nümayəndələri ilə əlaqələr qurulub və qarşılıqlı olaraq caz festivallarına dəvət olunub.

Tədbirin sonuncu günündə təşkil olunan konsert proqramında Azərbaycanın Əməkdar artisti, tanınmış caz ustası Rain Sultanov və digər musiqiçilərin çıxışları böyük maraqla qarşılanıb və beynəlxalq dinləyicilər tərəfindən yüksək qiymətləndirilib.

* * *

**Azərbaycanın Koreya Respublikasındakı səfirliyinin, Koreyanın İnçon şəhər cənub təhsil idarəsinin və “Inha” Universitetinin birgə təşkilatçılığı ilə multikultural tədris üzrə koreyalı müəllimlərin peşəkar bacarıqlarının artırılmasına həsr olunmuş müzakirə təşkil edilib.**

Səfirliyin əməkdaşları ölkəmizin mədəniyyəti və multikultural modeli, eləcə də Koreya ilə ikitərəfli mədəni və təhsil əməkdaşlığı barədə məlumat veriblər, Azərbaycanla bağlı sualları cavablandırıblar. Məclis ikili bakalavr diplomu proqramı çərçivəsində “Inha”



Universitetində təhsil alan azərbaycanlı tələbələrin milli musiqi və rəqs ifaları ilə davam edib, ölkəmizin mədəniyyət nümunələri nümayiş edilib.

* * *

**Finlandiyanın paytaxtı Helsinki şəhərində fəaliyyət göstərən Azərbaycan Evində görkəmli Azərbaycan şairi Bəxtiyar Vahabzadənin yaradıcılığına həsr olunmuş ədəbi tədbir təşkil edilib.**

Şairin 50 şeiri və “Gülüstan” poeması Finlandiyada yaşayan yazıçı və tərcüməçi Tahirə Cəfərova tərəfindən Diaspora İş üzrə Dövlət Komitəsinin dəstəyilə Azərbaycan dilindən fin dilinə tərcümə edilib və Finlandiyanın Palladium Kirjat nəşriyyatında çap olunub.



Tədbirin təşkilatçısı və aparıcısı, Helsinki Azərbaycan Evinin rəhbəri Ülviyyə Cabbarova çıxışında Bəxtiyar Vahabzadə yaradıcılığının Azərbaycan ədəbiyyatındakı əhəmiyyətini vurğulayıb və bu cür layihələrin mədəniyyətlərarası dialoqu gücləndirdiyini qeyd edib.

Gecədə pianoda Leyli Hüseynova çıxış edib, Sevinc Rüstəmova, Sabina Mirzəyeva, Sura Ağaverdiyeva və Mona Safocifar tərəfindən şeirlər səsləndirilib.

Bu ədəbi gecə Azərbaycan ədəbiyyatının Finlandiyada tanıdılması istiqamətində mühüm addım olmaqla yanaşı, iki ölkə arasında mədəni əlaqələrin daha da möhkəmlənməsinə töhfə verib.

*XQ*

## HAVA

### Arabir yağış yağacaq, duman olacaq...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında buludlu hava şəraiti üstünlük təşkil edəcək. Səhər və axşam bəzi yerlərdə arabir yağış yağacağı proqnozlaşdırılır. Yarımadanın bəzi yerlərində qısamüddətli intensivləşəcəyi ehtimalı var. Mülayim şimal-qərb küləyi gündüz arabir güclənəcək.**



Havanın temperaturu gecə 8-11, gündüz 12-15 dərəcə isti olacaq. Atmosfer təzyiqi 763 millimetr civə sütunu, nisbi rütubət isə 60-70 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə yağıntının intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Axşam əksər rayonlarda yağıntılar tədricən kəsiləcək. Ayrı-ayrı yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək.

Havanın temperaturu 7-12, gündüz 15-20, dağlarda gecə 1-6, gündüz 7-12, bəzi yerlərdə 16 dərəcə isti olacaq.

*Q.ƏLİYEV*
*XQ*

✓ *2025-ci il aprelin 19-da “Şərur” MTK tərəfindən Sumqayıt şəhərinin 12-ci mikrorayonundakı məcburi köçkünlər şəhərciyində inşa edilən 4 nömrəli binanın 592-ci mənzilinin maliyyə sənədləri itdiyi üçün etibarsız sayılır.*

### ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli AMEA Şəki Regional Elmi Mərkəzinin direktoru, fizika-riyaziyyat elmləri üzrə fəlsəfə doktoru, dosent

**YUSİF ŞÜKÜRLÜNÜN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3092
SİFARİŞ 543
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00